


***…Bizim Dövlət Statistika Komitəsi var,***

***çox düzgün statistika aparır…"***

***Heydər Əliyev***

## “Statistika xəbərləri” elmi-praktik jurnalının redaksiya heyəti


**Baş redaktor**

| | |
|---|---|
| **Sakit YAQUBOV** | *iqtisad elmləri doktoru, professor* |

**Redaksiya heyəti:**

| | |
|---|---|
| **Ziyad SƏMƏDZADƏ** | iqtisad elmləri doktoru,<br>Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü |
| **Səlim MÜSLÜMOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Şahin SADIQOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Ədalət MURADOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Vahid NOVRUZOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Nazim İMANOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Süleyman QASIMOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Tahir BUDAQOV** | *tibb üzrə fəlsəfə doktoru* |
| **Azər ƏMİRASLANOV** | *iqtisad üzrə fəlsəfə doktoru* |
| **Mehman TAĞIYEV** | *iqtisad üzrə fəlsəfə doktoru* |
| **Saleh MÖVLAMOV** | *iqtisad üzrə fəlsəfə doktoru* |
| **Alxan MANSUROV** | *məsul katib* |

## ***“Statistika xəbərləri” elmi-praktik jurnalının rubrikaları***

Statistikanın inkişaf strategiyası və taktikası

Statistik təsnifatlar, standartlar və registrlər

Statistik müşahidə metodları

Statistik məlumatların toplanması, işlənməsi, saxlanması və yayıl-ması texnologiyası

İnformasiya şəbəkəsi, məlumat bazası, məlumat bankları

Statistik informasiya sisteminin təkmilləşdirilməsi

Milli hesablar sistemi

Statistik tədqiqatlar

Statistika sahəsində beynəlxalq əməkdaşlıq

Statistika: xronika, informasiya

Biblioqrafiya: yeni nəşrlər

Oxucuların rəy və təklifləri

Statistika: rəsmi sənədlər

Statistika: metodoloji təminat (metodoloji əlavələr)

Statistika: faktlar və proqnozlar (statistik əlavələr)

# Mündəricat


səh.

MİLLİ HESABLAR STATİSTİKASI

***Ümüdvar Əliyev***
Milli iqtisadiyyatda quruluş dəyişikliklərinin Ümumi Daxili Məhsulun strukturu və dinamikasına təsiri........5

***Zərifə Hüseynova***
İnsan kapitalı – innovativ inkişafın fundamentidir........13

***Ramiz Cavadov***
Manatın devalvasiyasının sosial-iqtisadi nəticələri........19

METODOLOJİ MƏSƏLƏLƏR

***Elman Qasımzadə, Rəşid Vəliyev***
Valyutaların alıcılıq qabiliyyəti paritetləri........24

***Hacıbala Dadaşov***
Sənaye istehsal indeksinin hesablanmasında istifadə edilən çəkilərin yenilənməsi məsələləri........32

***Севиндж Аббасова***
Теоретико-методологические подходы к управленческому анализу эффективности затрат на персонал........40

***Yaşar Paşa***
Çoxölçülü statistik təhlil əsasında yoxsulluğun müəyyənləşdirilməsi........48

DÖVLƏT PROQRAMLARININ İCRASININ STATİSTİK TƏHLİLİ

***Əsgər Əliyev, Sevda Məmmədova***
Azərbaycanda dövlət proqramlaşdırmasının xüsusiyyətləri........56

SƏNAYE STATİSTİKASI

***Əli Hacıyev***
Azərbaycanda sənaye siyasətinin prioritetləri........63

KƏND TƏSƏRRÜFATI STATİSTİKASI

***Ilkin Shahvaladov***
Statistical evaluation of the role of agriculture in the economy of Azerbaijan........72

ƏMƏK STATİSTİKASINDA BEYNƏLXALQ STANDARTLARIN TƏTBİQİ

***Nemət Xuduzadə***
Əmək statistikasına dair yeni beynəlxalq standartların milli səviyyədə tətbiqi məsələləri........78

NORMATİVLƏR

***Aslan Məmmədov***
Azərbaycanda lizinqin normativ-hüquqi bazasının təkmilləşdirilməsinin əsas istiqamətləri........84

BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

BMT-nin Statistika Komissiyasının 47-ci sessiyası........91

Dayanıqlı inkişaf məqsədləri kontekstində statistik və institusional potensialın möhkəmləndirilməsi məsələləri üzrə işçi müşavirə və Avropa Statistikləri Konfransının 64-cü plenar sessiyası........92

AZƏRBAYCANIN STATİSTİKA TARİXİNİN SƏHİFƏLƏRİNDƏN

Şahbala Aqqırax oğlu Məmmədov – 80........94

Məqalələrin təqdim olunma qaydaları........96

# MİLLİ İQTİSADİYYATDA QURULUŞ DƏYİŞİKLİKLƏRİNİN ÜMUMİ DAXİLİ MƏHSULUN STRUKTURU VƏ DİNAMİKASINA TƏSİRİ

***Ümüdvar Əliyev***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*"Nəzəri və praktiki iqtisadiyyat" kafedrasının müdiri, i.e.d., professor*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt:umudvar.aliyev@asu.edu.az*

**Açar sözlər:** quruluş dəyişiklikləri, ÜDM-in strukturu, elmtutumlu sahələr, innovasiya, iqtisadiyyatın ixracyönümlülüyü.
**Ключевые слова:** струкурные изменения, структура ВВП, наукоемкие отрасли, инновация, экспортно-ориентированная экономика.
**Keywords:** structural changes, the structure of GDP, high-tech industry, innovation, export oriented economy.

Müstəqillik illərinin ilkin dövrlərindən başlayaraq, Azərbaycan Respublikasının qarşısında duran ən mühüm vəzifələrdən biri milli iqtisadiyyatın tələblərinə uyğun səmərəli iqtisadi quruluşun formalaşdırılması olmuşdur. İnzibati-amirlik iqtisadi sistemində müttəfiq respublikalarda iqtisadiyyatın mövcud quruluşu ictimai mülkiyyət münasibətlərinə və SSRİ xalq təsərrüfatı kompleksinin tələblərinə uyğun formalaşdırılmışdır. İctimai mülkiyyətin özünü doğrultmaması kifayət dərəcədə təbii zəngin bir ölkənin iqtisadiyyatını "qıtlıq iqtisadiyyatı" vəziyyətinə gətirib çıxarmışdır ki, bu da son nəticədə ittifaqa daxil olan bütün respublikaların iqtisadiyyatının çox ciddi deformasiyaya uğraması ilə nəticələnmişdir. Bu dövrdə formalaşdırılmış iqtisadi quruluş ictimai mülkiyyət münasibətlərinin fövqündə duran bürokratik Mərkəzi Dövlət İdarəetmə Aparatının maraqlarına uyğun gəlirdi. Bir sıra respublikalar (Rusiya Federasiyası, Ukrayna, Qazaxıstan, Azərbaycan, Özbəkistan) ittifaq büdcəsinin formalaşmasında çox əhəmiyyətli rol oynamalarına baxmayaraq, mərkəzi büdcədən digərlərinə nisbətən az pay alırdılar. Yerdə qalan respublikalar isə (Ermənistan, Gürcüstan, Pribaltika Respublikaları və başqaları) ittifaq büdcəsinin yaranmasında iştirak etdikləri paydan çox vəsait əldə edirdilər. Müttəfiq respublikalardakı müəssisələrin ittifaq tabeçiliyindəki nisbəti də fərqli idi. Azərbaycan Respublikasının sənaye müəssisələrinin 90%-dən çoxu ittifaq tabeliyində olduğu halda, Ermənistanda sənaye müəssisələrinin cəmi 10%-ə yaxın bir hissəsi ittifaq tabeliyində idi. İqtisadiyyatı yuxarıda qeyd edildiyi kimi, bu səviyyədə deformasiyaya uğrayan Azərbaycan Respublikası yeni iqtisadi sistemə transformasiya dövründə ardıcıl və məntiqi qaydada həyata keçirdiyi iqtisadi-siyasi, sosial islahatlar və struktur siyasəti vasitəsi ilə bazar iqtisadiyyatına uyğun sahibkarlığın bütün formalarının inkişafını şərtləndirən mütərəqqi iqtisadi quruluş formalaşdırmağı qarşısına məqsəd qoydu. Müstəqilliyinin bərpası ilə bütün sərvətinin yeganə mülkiyyətçisinə çevrilən Azərbaycan Respublikası ilk olaraq, bazar iqtisadiyyatının əsaslarını yaratmaq üçün mülkiyyət münasibətlərində köklü dəyişikliklər etməyə başladı. Azərbaycan hökuməti inzibati – amirlik iqtisadi sistemində hakim mülkiyyət forması olan dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramlarını qəbul etdi. Mülkiyyətin çoxnövlülüyünün hərtərəfli inkişafına əlverişli şərait yaradılmağa başlanıldı. Mülkiyyətə görə iqtisadiyyat iki böyük bölməyə: dövlət və özəl bölməyə ayrıldı. Dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramlarına uyğun olaraq, keçid dövrü başa çatdıqdan sonra dövlət mülkiyyətinin 30%, özəl mülkiyyətin isə 70% olacağı nəzərdə tutulurdu. Özəlləşdirilməyə başlanılan zaman ÜDM-də özəl sektorun payı faktiki olaraq 10% təşkil etdiyi halda, statistik məlumatlara görə 2015-ci ildə ÜDM-in 81,2%-i özəl sektorda istehsal olunmuşdur.

Azərbaycan iqtisadiyyatının strukturunda sənaye aparıcı sahələrdəndir. 2014-cü ildə istehsal olunmuş 59 mlrd. manatlıq ÜDM-in 41,0%-i sənayenin payına düşmüşdür. Ənənəvi olaraq neft və neft-qaz sahəsi sənaye məhsulu istehsalında daha çox xüsusi çəkiyə malik olmuşdur.

Sovet dönəmində Azərbaycan iqtisadiyyatı SSRİ xalq təsərrüfatı kompleksinin bir elementi olduğundan çox bəsit bir struktura malik idi. Həmin dönəmdə də neft, neft-qaz və neft-kimya sənayesinin iqtisadiyyatımızda çox böyük xüsusi çəkisi var idi. Sənaye istehsalının 50%-ə yaxını, ixracın isə daha çox hissəsi onun payına düşürdü. Müstəqilliyimizin ilk illərində qarşıda duran mühüm vəzifələrdən biri milli iqtisadiyyatı formalaşdıra və inkişaf etdirə bilən, dünya iqtisadiyyatına inteqrasiyanı şərtləndirən, iqtisadiyyatda quruluş dəyişikliklərinin həyata keçirilməsindən ibarət olmuşdur ki, bunun da əsas məqsədi neft sənayesini inkişaf etdirməklə yanaşı, qeyri-neft sektorunun inkişafına əlverişli şərait yaratmaqla iqtisadiyyatın neftdən asılılığının aradan qaldırılması olmuşdur.

Müstəqilliyimiz ərəfəsində iqtisadiyyatın bütün sahələrində olduğu kimi neft sənayesi də böhranlı günlərini yaşayırdı. Neftçıxarmada tətbiq olunan texnologiya fiziki və mənəvi cəhətdən köhnəlmişdir. Neft sənayesinin əsas avadanlıqlarının 70%-dən çoxu öz istismar müddətini başa vurmuşdur. Tarixən Azərbaycan sənayesinin flaqmanı olan neft sənayesini dirçəltmədən bütövlükdə Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi mümkün deyildi.

Doğrudur, müstəqillik illərində də uzun müddət istehsal və ixracda neft sektoru dominant rol oynamışdır. Ulu öndər H.Ə.Əliyev dünyanın aparıcı neft şirkətlərini Azərbaycan neft sənayesi müəssisələri ilə birgə işləməyə cəlb etməklə (neft konraktları) Azərbaycan neft sənayesinin inkişafına yeni nəfəs vermişdir. Respublikamıza yeni texnologiyalar gətirilmiş, nəticədə yeni neft yataqlarını kəşf etmək və istismara vermək mümkün olmuşdur. Neft hasilatı təxminən 12-14 mln. tondan 50 mln. tona çatdırılmışdır. Azərbaycanın Avropaya inteqrasiyasını gücləndirən neft boru kəməri çəkilmiş, şaxələndirilmiş qaz kəmərlərinin (TAP, TANAP) çəkilməsi (qaz ehtiyatlarımız 2,6 trilyon kub metr dəyərləndirilir) gündəmdə olan məsələlərdəndir. Ölkəyə külli-miqdarda valyuta gəlmişdir. Azərbaycan tarixində ilk dəfə neft sənayemizə 8 mlrd. ABŞ dolları civarında investisiya qoyulmuşdur ("Əsrin müqaviləsi" 20 sentyabr 1994-cü il). Bütövlükdə müstəqillik illərində iqtisadiyyatımıza 200 mlrd. dollar investisiya qoyulmuşdur. Son 8-9 ildə investisiyanın quruluşunda ciddi dəyişikliklər baş vermişdir. 2015-ci ildə iqtisadiyyata qoyulan 16 mlrd. manat investisiyanın 56%-i daxili investisiyanın payına düşür. Neft gəlirlərindən istifadənin səmərəliliyini təmin etmək məqsədilə Neft Fondu yaradılmışdır. Ölkəyə daxil olan neft gəlirləri bu fondda cəmləşdirilir. Hazırda valyuta ehtiyatlarımız Mərkəzi Bankın ehtiyat fondu da nəzərə alınmaqla təqribən 40 mlrd. dollara yaxın qiymətləndirilir. Bu valyuta ehtiyatları ümumi milli təhlükəsizliyimizin, o cümlədən də iqtisadi təhlükəsizliyimizin əsas maliyyə mənbəyi kimi çıxış edir.

Neft Fondunun vəsaitləri neft sektorunun inkişafı ilə yanaşı, qeyri-neft sektorunun inkişafına, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, sosial infrastrukturun inkişaf etdirilməsinə, insan kapitalının müasir tələblər səviyyəsində hazırlanmasına, büdcəyə transfert yolu ilə ümumi milli problemlərin həllində də istifadə olunur. 2016-cı ilin dövlət büdcəsinə Neft Fondundan 6 mlrd. dollar civarında vəsaitin transfert olunması nəzərdə tutulmuşdur.

Neft sənayesinin inkişafı iqtisadiyyatın digər sahələrinin inkişafına əlverişli şərait yaratmışdır.

Bu gün Azərbaycan iqtisadiyyatında quruluş dəyişikliyi baxımından gündəmdə olan mühüm məsələlərdən biri qeyri-neft sektorunun üstün inkişaf etdirilməsi, neftdən asılılığın minimuma endirilməsindən ibarətdir. 2015-ci ilin nəticələrinə görə ÜDM-də qeyri-neft sektorunun payı 69,3%-i ötüb keçmişdir. Dünya iqtisadiyyatında böhranın davam etməsinə baxmayaraq, həm qeyri-neft sektorunda, həm də bütövlükdə Azərbaycan iqtisadiyyatında 1,1% artım müşahidə olunmuşdur. Dünya bazarında neftin qiymətinin 3-4 dəfədən çox aşağı düşməsinə və respublikamızda onun hasilatının azalmasına baxmayaraq, ixracatımızın əhəmiyyətli hissəsi (90%-dən çoxu) yenə də neft sektorunun payına düşür.

Yeni təsərrüfatçılıq şəraitində sənayenin mühüm tərkib hissələrindən olan emal sənaye sahələrinin və turizmin inkişaf etdirilməsi perspektivli sahələrdəndir. Respublikamızda bu sahələrin inkişaf etdirilməsi üçün hər cür əlverişli şərait var. Bu sahələrin ixrac potensialı genişdir.

Bütövlükdə maşınqayırma sənayesinin, xüsusilə kənd təsərrüfatı maşınqayırmasının (kənd təsərrüfatı avadanlıq və alətləri də daxil olmaqla) inkişaf edirilməsi bir sıra ciddi problemlərin həll edilməsinə şərait yarada bilər.

Düşünürəm ki, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə yanaşı, bu sahədə ixracyönümlü məhsulların istehsalının təşkili strateji istiqamət olmaqla ixracın strukturunu təkmilləşdirəcək, iqtisadiyyatın rəqabətədözümlülüyünün və iqtisadi təhlükəsizliyinin təmin edilməsinin mühüm amillərindən birinə çevriləcək.

Azərbaycan iqtisadiyyatının strukturunda kənd təsərrüfatı tarixən əhəmiyyətli rol oynamışdır. Əhalinin kənd və şəhərlərdə məskunlaşmasında təxmini bir bərabərlik var. Azərbaycan SSR-in kənd təsərrüfatının strukturunda pambıqçılıq, üzümçülük, tütünçülük daha çox xüsusi çəkiyə malik idi. Hətta bəzi illərdə pambıq istehsalı 1 mln. tona, üzüm istehsalı 2,1 mln. tona çatdırılmışdır. Müstəqillik illərində bu sahələrə diqqətin zəifləməsi nəticəsində pambıq, tütün, üzüm istehsalı kəskin şəkildə aşağı düşmüşdür və 2014-cü ildə 41 min ton pambıq, 2,9 min ton tütün, 147,7 min ton üzüm istehsal olunmuşdur. Bu sahələrin inkişaf etdirilməsi ölkə rəhbərliyi tərəfindən 2016-cı ildən yenidən diqqət mərkəzinə gətirilmiş, satınalma qiymətləri yüksəldilmiş, iri kənd təsərrüfatı müəssisələrinin yaradılmasının dövlət tərəfindən dəstəklənməsi nəzərdə tutulmuşdur.

Müstəqilliyimizin ilk illərindən başlayaraq, kənd təsərrüfatında bazar münasibətlərinin əsaslarını formalaşdırmaq məqsədilə kənd təsərrüfatı müəssisələrinin əmlakı əvəzsiz (pulsuz) özəlləşdirilmiş, nəticədə kənd əhalisi torpağın və digər kənd təsərrüfatı istehsal vasitələrinin mülkiyyətçisinə çevrilmişlər. Ölkəmizdə kənd təsərrüfatı məhsullarının demək olar ki, hamısı özəl sektorda istehsal olunur. Kənd təsərrüfatı məhsulları istehsalının ÜDM-də xüsusi çəkisinin 6,2% təşkil etməsinə baxmayaraq (sovet dönəmində 30%), ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayır. Sovet dönəmində əlçatmaz hesab olunan 1 mln. ton taxıl istehsalına 1996-cı ildə nail olunmuşdur. Artıq ölkəmizdə 2014-cü ildə 1001,4 min. ha əkin sahəsində 2,4 mln. ton taxıl istehsal olunmuşdur. Taxıl əkin sahələrinin 1 mln. ha-ya çatdırılması nəzərdə tutulmuşdur. Kənd təsərrüfatında özəl mülkiyyət münasibətlərinin inkişafı nəticəsində ölkə əhalisinin əsas ərzaq məhsullarına (çörək, ət, ət məhsulları, süd, süd məhsulları, meyvə-tərəvəz, bostan məhsulları və s.) olan tələbatının əhəmiyyətli hissəsi, 80-85%-i daxili istehsal hesabına ödənilir. 2015-ci ildə ərzaq istehsalı 2,9% artmışdır. Ölkə rəhbərliyi tərəfindən məqsədli proqramların, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi dövlət proqramlarının qəbul edilməsi və reallaşdırılması, sahibkarlığın inkişaf etdirilməsinin öncül istiqamətinin müəyyənləşdirilməsi, aqrar bölməyə dövlət büdcəsində nəzərdə tutulan dövlət dəstəyi iqtisadiyyatın mühüm sahəsi olan kənd təsərrüfatının inkişafını stimullaşdırır.

Xüsusi mülkiyyətin bütün formalarının inkişafına əlverişli şərait yaradılması iqtisadiyyatımızın strukturunun mühüm elementlərindən birinə çevrilən tikinti-inşaat sektorunun da inkişafına güclü təkan vermişdir. Keçid dövrünün müxtəlif illərində (2000-2008-ci illər) Ümumi Daxili Məhsulun təxminən 10%-dən çoxu tikintinin payına düşmüşdür. Tikinti-inşaat sektorunun sürətli inkişafı bir sıra sosial problemlərin həllində əhəmiyyətli rol oynayır. Mənzil tikintisi sürətlə inkişaf etdirilmiş, 2010-cu ildə ən yüksək səviyyəyə çatmışdır. Mənzil tikintisində 2010-cu ildə 2009-cu illə müqayisədə 36,4% artım olmuşdur. Bütün mülkiyyət növləri üzrə 2014-cü ildə 2197 min kv. metr yaşayış evi istifadəyə verilmişdir. Onun 205 min kv.metri dövlət, 1992 min kv. metri isə qeyri-dövlət sektorunun payına düşür. Tikintinin inkişafı inşaat materialları istehsalının inkişafını da stimullaşdırmışdır. Tikinti-inşaat işlərinin genişlənməsi nəticəsində sement istehsalı yeni texnoloji əsaslara keçirilmiş, ətraf mühitin çirkləndirilməsi minimuma endirilmişdir. Yerli xammalla işləyən inşaat materialları istehsal edən müəssisələr işə salınmışdır. 2014-cü ildə həm əsas kapitala yönəldilmiş vəsait, həm də ÜDM-də tikintinin payı 12,6% olmuşdur.

İqtisadiyyatın strukturunda mühüm sahələrdən biri də nəqliyyat sektorudur. İqtisadiyyat sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin 2014-cü ildə 13,9%-i nəqliyyatın payına düşmüşdür, bu sektorun ÜDM-də payı isə həmin ildə 4,5% olmuşdur. Nəqliyyat sektorunun inkişaf etdirilməsi istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlər bu sahənin iqtisadiyyatda rolunu daha da artıracaq. Bu gün Azərbaycan iqtisadiyyatının inkişafında əhəmiyyətli rol oynaya biləcək, reallaşan nəqliyyat layihələrindən biri Bakı Beynəlxalq Dəniz Ticarət limanının istifadəyə verilməsidir. Bakı Beynəlxalq Dəniz Ticarət limanı Xəzər hövzəsi ölkələrinin, Rusiya

Federasiyasının, İran İslam Respublikasının, Qazaxıstanın və Türkmənistanın dəniz ticarəti limanları sırasında müasirliyinə və yükdaşıma qabiliyyətinə görə ilk sıralardadır. Bu limanın ərazisində azad ticarət zonasının və böyük logistika mərkəzinin yaradılması nəzərdə tutulub. Azərbaycan Respublikasının Prezidenti cənab İ.H.Əliyev 17 mart 2016-cı il tarixində bu limanın ərazisində azad ticarət zonası yaradılması haqqında Sərəncam imzalamışdır. Bütövlükdə nəqliyyat sektorunun inkişaf etdirilməsi, Bakı Beynəlxalq Ticarət limanının istifadəyə verilməsi, qədim "İpək yolunun" bərpası, neft-qaz boru kəməri şəbəkələrinin genişləndirilməsi, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişinin başa çatdırılması, TAP və TANAP qaz kəmərlərinin çəkilişi, İran İslam Respublikası ilə Azərbaycan hökümətinin nəqliyyat sektorunun inkişaf etdirilməsi sahəsində əldə etdikləri razılaşmalar, Azərbaycanın Asiyanı Avropaya birləşdirən nəqliyyat dəhlizi rolu oynaması nəqliyyat sektorunun ÜDM-də payını artırmaqla bərabər ümumi iqtisadi inkişafa təkan verəcək.

Müasir dünyada inkişaf etmiş ölkələrin iqtisadiyyatının mühüm sahələrindən biri də İKT sektorudur. Regionun ən dinamik inkişaf edən ölkəsi kimi Azərbaycan bu gün İKT sahəsinin genişləndirilməsi üçün böyük imkanlara malikdir.

Ölkəmizdə yüksək texnoloji tutumlu və rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasında İKT-nin rolunu genişləndirmək, infrastrukturun modernləşdirilməsi, sahə üzrə iqtisadi-təşkilati islahatların aparılması, e-imzanın tətbiqi üçün Milli Sertifikat Xidməti Mərkəzinin və Milli Superkompüter Mərkəzinin yaradılması, e-hökumətin formalaşdırılması üçün müxtəlif layihələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Həmçinin Azərbaycanın informasiya tranziti ölkəsinə çevrilməsinə xidmət edəcək daha bir neçə perspektiv layihə üzrə də hazırda ardıcıl iş aparılır. Onların sırasında olan milli süni peyk layihəsinin reallaşdırılması ilə ölkəmiz tərəfindən təklif olunacaq rabitə xidmətləri dünyanın böyük bir hissəsini Şərqi Avropa, Şimali Afrika, MDB, Orta, Mərkəzi və Şərqi Asiyanı əhatə edəcəkdir. Artıq 2014-cü ildən Azərbaycanın süni peyki "Azərspase-1" orbitə buraxılmışdır. Azərbaycan çox məhdud sayda süni peyki olan ölkələrdəndir. Bu layihə bir sıra ölkələrdə televiziya, radio, internet, beynəlxalq telefon trafiki, informasiya mübadiləsi və bir sıra telemexanika xidmətlərinin verilməsini və ölkəmizin beynəlxalq kosmik bazara çıxışını təmin edəcəkdir.

Azərbaycanın son illərdə reallaşdırdığı irimiqyaslı layihələr ölkəmizlə yanaşı, ümumən bölgənin uzunmüddətli inkişaf strategiyasını müəyyən edir. Regionda enerji və nəqliyyat dəhlizlərinin yaranması üçün Azərbaycan hökumətinin təşəbbüsü ilə yaradılması nəzərdə tutulan "Trans-Avrasiya Super İnformasiya Magistralı (TASİM)" layihəsi üzrə yüksək sürətli Qərb-Şərq informasiya dəhlizinin də yaradılması artıq reallığa çevrilməkdədir. 2014-cü ildə ÜDM-də informasiya, rabitə məhsul və xidmətlərinin xüsusi çəkisi 1,8% olmuş, əsas kapitala yönəldilmiş kapitalın isə 0,8% rabitənin payına düşmüşdür. İKT sektorunda məhsul istehsalı və xidmətlərin dinamik artımı müşahidə olunur. 2009-cu ildə 1033,1 milyon manatlıq, 2012-ci ildə 1420,2 milyon manatlıq, 2014-cü ildə isə 1577,5 milyon manatlıq məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir. İqtisadiyyatda muzdla çalışan işçilərin 1,3%-i İKT sektorunda fəaliyyət göstərir.

İnkişaf etdirilməsi prespektivli hesab olunan qeyri-neft sektorunun struktur sahələrindən biri də turizmdir. Azərbaycanın təbii-coğrafi şəraiti imkan verir ki, ilin bütün fəsillərində yay-qış turizmi təşkil edilsin. Kurort-turizm sahəsi təsərrüfatının kompleks inkişafı əsas istiqamətlərdən biridir və ölkəmizdə kurort-turizm təsərrüfatının inkişaf etdirilməsi üçün hər cür təbii, iqlim, landşaft şəraiti, iqtisadi imkanlar və tarixi-arxeoloji abidələr kompleksi mövcuddur.

Azərbaycanda ən mühüm təbii-rekreasiya ehtiyatları Xəzər dənizinin sahillərində yerləşir. Yay aylarının bol günəş enerjisi, qızmar qumlar buranın həm istirahət, həm də müalicə üçün istifadə imkanlarını genişləndirir.

Göygöl və onun ətrafında olan göllər sistemi, Batabat gölünün ətrafı, onların suları və yaratdığı mikroiqlim şəraiti mühüm təbii-rekreasiya ehtiyatlarıdır. Şəki-Zaqatala, Gəncə-Qazax, Quba-Xaçmaz, Lənkəran, Yuxarı Qarabağ iqtisadi rayonlarında olan dağlar, bu ərazilərdə bitən meşələr, təbii-iqlim şəraiti, qoruqlar və yasaqlıqlar əhalinin istirahət zonalarının təşkil edilməsi və turizmin inkişafı üçün istifadə edilə bilər. Respublikanın digər qoruqları, onlarda olan nadir bitki və heyvan növləri, təbii-iqlim şəraiti də bu məqsədlə istifadə olunmalıdır.

Respublikada mövcud olan mineral bulaqların müalicə imkanları çox böyükdür və onlardan bəzilərinin əsasında iri kurort-sanatoriya kompleksləri yaradılır. Naftalanda və Qalaaltı mineral

bulaqları əsasında belə komplekslər tikilmişdir. Naxçıvanda olan mineral bulaqlardan geniş istifadə olunmasının təşkili zəruridir.

Antropogen mənşəli rekreasiya ehtiyatları olan arxitektura, arxeoloji, incəsənət abidələri respublikada çoxdur. Bu rekreasiya ehtiyatları həm ölkə əhalisini, həm də xarici turistləri cəlb edir. Qobustanın, Gəmiqayanın qaya təsvirləri, Azıx, Tağlar, Damcılı mağaraları, Əlincə, Çıraq, Cavanşir, Ərkivan qalaları, müxtəlif regionlarda tapılmış şəhər xarabalıqları mühüm arxeoloji abidələrdir. Bakıda-Şirvanşahlar sarayı, Qız qalası, Qala divarları, Şəkidə-Xan sarayı, Gəncədə, Şamaxıda, Naxçıvanda, Ordubadda, Qubada, Lənkəranda və s. şəhərlərdə müxtəlif tarixi dövrlərdə tikilmiş tarixi-memarlıq abidələri turistlərin gəzib-görməsi üçün vacib olan arxitektura obyektlərinə misal ola bilər.

15 mart 2016-cı ildə Ankara şəhərində Azərbaycan–Türkiyə hökümətlərarası iqtisadi komissiyanın 5-ci iclasında diqqət mərkəzində olan məsələlərdən biri də ölkələrarası turizmin inkişaf etdirilməsi olmuşdur. Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb T.Ərdoğan Naxçıvan Muxtar Respublikası ilə turizm əlaqələrinin inkişaf etdirilməsini xüsusi ilə vurğulamışdır.

Turizmin təşkili ayrı-ayrı insanların fərdi təşəbbüsü şəklində deyil, dövlət proqramlarına uyğun həyata keçirilməlidir.

Nədənsə son vaxtlar Xəzər sahili turizm şəbəkələrinin yaradılması və inkişaf etdirilməsi sahəsində dövlət proqramı diqqətdən kənarda qalıb. Xəzəryanı turizm şəbəkələrinin müasir tələblər səviyyəsində yenidən qurulması və inkişaf etdirilməsi ölkədə turizmin inkişafında əhəmiyyətli rol oynaya bilər. Yuxarıda qeyd etdiyimiz kimi, ölkəmizin təbii-coğrafi şəraiti yay-qış turizminin inkişafı üçün çox əlverişlidir. Lakin təbii-coğrafi şəraitin əlverişliliyi turizmin inkişafı üçün yetərli deyildir. Turizmin cəlbediciliyini müəyyən edən mühüm amillərdən biri turistin ilk diqqətini cəlb edən getdiyi ölkədə çəkəcəyi nəqliyyat xərcləridir. Hava nəqliyyatında AZAL-ın inhisarçılığı nəqliyyat xərclərinin yüksək olmasına gətirib çıxarır. Belə ki, yüksək qiymətlər ölkəyə gələnlərin və ölkədən gedənlərin bir qisminin AZAL-ın xidmətindən istifadədən imtina etməsi ilə nəticələnir və son nəticədə bizim hava nəqliyyatı şirkətinin qazana biləcəyi vəsaitləri başqa ölkənin şirkətləri qazanır. Güman etmək olar ki, son vaxtlar xarici ölkələrin hava şirkətləri ilə bağlanan müqavilələr, AZAL-ın sərnişindaşıma qiymətlərinin aşağı salınması istiqamətlərində görülən işlər öz nəticəsini verəcək və daha çox insan onun xidmətindən istifadə edəcəkdir.

İqtisadiyyatın quruluş dəyişikliklərinin ÜDM-in strukturuna təsirinin araşdırılması zamanı diqqəti cəlb edən məsələlərdən biri də regionların ÜDM-də fərqli pay nisbətinə malik olmalarıdır. Ümumi Daxili Məhsulun əhəmiyyətli hissəsi, əsasən, Naxçıvan Muxtar Respublikasında, Bakıda, Sumqayıtda, Gəncədə istehsal edilir. ÜDM-in ərazi quruluşu təkmilləşməlidir. Bu dispraporsiyanın aradan qaldırılması məqsədilə “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları” qəbul edilmişdir.

Regionların xüsusiyyətləri nəzərə alınmaqla aqrar sahibkarlıqla yanaşı, yüngül sənaye, emal sənayesi, yeyinti sənayesi və sair kimi sahibkarlığın digər formaları da inkişaf etdirilməlidir. Regionların sosial-iqtisadi inkişafını sürətləndirmək məqsədilə dövlət tərəfindən üç proqram qəbul edilmişdir. Artıq bunların ikisi: 2004-2008 və 2009-2013-cü illər üzrə Dövlət Proqramlarının reallaşdırılması müvəffəqiyyətlə başa çatdırılmış, üçüncü “2014-2018-ci illərdə Regionların sosial iqtisadi inkişafı Dövlət Proqramı” isə müvəffəqiyyətlə həyata keçirilir.

“Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”nın uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin yüksəlməsində mühüm rol oynamışdır. Dövlət Proqramı ilə əhatə edilmiş dövr ərzində Ümumi Daxili Məhsulun (ÜDM) real həcmi 2,6 dəfə artaraq 40,1 milyard manata çatmış, ÜDM-in adambaşına düşən nominal həcmi 5 dəfədən çox artaraq 4603,7 manat təşkil etmişdir. Qeyri-neft sektoru 1,8 dəfə artmış, 2008-ci ilin yekunlarına görə ÜDM-də qeyri-dövlət sektorunun payı 84,5 faiz təşkil etmişdir. Bu dövrdə qeyri-neft sektoruna qoyulan investisiyanın həcmi 6,8 dəfə artmış və ümumi investisiyaların strukturunda onun xüsusi çəkisi 2003-cü ildəki 26,8 faizdən 2008-ci ildə 70,6 faizə çatmışdır. Ölkə sənayesində 1,4 dəfə, kənd təsərrüfatında isə 8,9 dəfə artım olmuşdur. İqtisadiyyatın sürətli inkişafı ilə yanaşı, son illər əhalinin rifahını səciyyələndirən göstəricilərdə də yüksək artım dinamikası müşahidə edilmiş, 2003-cü illə müqayisədə 2008-ci ildə

əhalinin gəlirləri 3,6 dəfə artmışdır. Bu dövrdə muzdla işləyənlərin orta aylıq əmək haqqı 3,5 dəfə artaraq inflyasiya səviyyəsini 1,7 dəfə üstələmiş və 274,4 manata çatmışdır. 2008-ci ilin sentyabrından minimum əmək haqqının və pensiyanın minimum məbləğinin həddi 75 manata çatdırılmışdır. 2003-cü ildə ölkə əhalisinin təxminən 44,7 faizi yoxsulluq şəraitində yaşayırdısa, 2008-ci ilin sonuna bu kateqoriyaya əhalinin yalnız 13,2 faizi aid olmuşdur. Azərbaycanda həyata keçirilən çevik iqtisadi siyasət dövlət büdcəsinə, onun gəlir və xərclərinin dinamikasına və strukturuna öz təsirini göstərmişdir. Aparılan uğurlu islahatlar və ardıcıl iqtisadi siyasət nəticəsində dövlət büdcəsinin gəlir və xərclərinin ÜDM-ə nisbəti ilbəil dəyişmişdir. Büdcə-vergi siyasəti, əsasən, makroiqtisadi sabitliyin möhkəmləndirilməsinə, iqtisadi inkişafın sürətlənməsinə, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşmasına və büdcə kəsirinin minimuma endirilməsinə yönəldilmişdir. Həyata keçirilən çevik büdcə-vergi siyasəti nəticəsində dövlətin iqtisadi qüdrətinin daha da artırılması, regionların, qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, istehsal və infrastrukturun müasir tələblərə uyğun yenidən qurulması, xalqın rifah halının yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmiş, dövlət büdcəsi sosial və investisiyayönümlü, inkişaf və quruculuq büdcəsinə çevrilmiş, iqtisadi islahatların və dövlət proqramlarının maliyyələşmə mənbəyi kimi çıxış etmişdir. Ölkə iqtisadiyyatının inkişafına bütün maliyyə mənbələri hesabına əsas kapitala qoyulmuş investisiyanın həcmi son beş ildə 73,6 milyard manat təşkil etmiş, bunun 75,8 faizi daxili, 24,2 faizi isə xarici investisiyalar olmuşdur.

Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində mühüm rol oynamışdır.

Regional inkişaf üzrə hər iki dövlət proqramlarının icrası dövründə bütün iqtisadi rayonlara daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə 240 sərəncam imzalanmışdır. Ümumilikdə ötən 10 il ərzində regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən siyasət ölkənin makroiqtisadi göstəricilərinin sürətlə yaxşılaşdırılmasına səbəb olmuş, Ümumi Daxili Məhsul (ÜDM) 3,2 dəfə, adambaşına düşən ÜDM-in həcmi 2,8 dəfə, qeyri-neft sektoru 2,6 dəfə artmış və ölkəmizdə ortaillik iqtisadi artım 12,9% təşkil etmişdir. Son 10 ildə strateji valyuta ehtiyatları 31 dəfə, xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, idxal 4,1 dəfə, qeyri-neft ixracı 4,7 dəfə artmışdır.

Azərbaycan iqtisadiyyatının "Qlobal Rəqabətqabiliyyətli İndeksi 2013-2014" hesabatına əsasən rəqabət qabiliyyəti səviyyəsinə görə dünyada 39-cu, MDB-də 1-ci olmuş, ölkəmiz ilk dəfə dünyanın "yuxarı orta gəlirli" və "yüksək insan inkişaflı" ölkələr qrupuna daxil olmuşdur. Nüfuzlu reytinq agentliklərinin hamısı ("Fitch Raitings", "Standart & Poors" və "Moodys") Azərbaycana investisiya kredit reytinqi vermiş və Azərbaycan Qafqaz ölkələri arasında investisiya reytinqinə malik yeganə ölkə olmuşdur. Son 10 ildə dövlət büdcəsinin gəlirləri 16 dəfə, orta aylıq əmək haqqı 5,5 dəfə, pensiyalar 9,6 dəfə, əhalinin əmanətləri 25,4 dəfə artmışdır.

Minimum əmək haqqının ölkə üzrə yaşayış minimumuna çatdırılması siyasəti davam etdirilmiş, əmək siyasəti və əməyin ödənilməsi sahəsində həyata keçirilən islahatlar nəticəsində işləyənlərin orta aylıq əmək haqqının ilbəil artması əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin etmişdir. Son 10 ildə ölkədə minimum əmək haqqının məbləği 11,7 dəfə artmış, yoxsulluğun səviyyəsi 2003-cü ildəki 44,7 faizdən 2014-cü ildə 5,0 faizə düşmüşdür.

Artıq üçüncü dövlət proqramı olan "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın reallaşdırılmasının ikinci ili başa çatmışdır. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2014-2018-ci illər)"nın icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, ÜDM-in ərazi strukturunun təkmilləşməsində, makroiqtisadi sabitliyin təmin olunmasında, regionların sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayacaqdır. Üçüncü dövlət proqramının reallaşdırılmasının ikinci ilində, 2015-ci ildə regionlara 4,0 mlrd. manat investisiya qoyulmuşdur. Bütövlükdə hər üç proqram üzrə regionların inkişafına 60 mlrd. manatdan çox investisiya

qoyulmuşdur. 2015-ci il bütövlükdə dünya iqtisadiyyatı üçün, o cümlədən Azərbaycan iqtisadiyyatı üçün çox mürəkkəb bir il olmasına baxmayaraq (dünya iqtisadi böhranı davam edir, neftin qiyməti dünya bazarında üç dəfədən çox aşağı düşmüşdür, dünyada qeyri-sabitlik daha da güclənmişdir və s.), 2015-ci ildə ölkə iqtisadiyyatına 16 mlrd. manat sərmayə qoyulmuş, ÜDM-də 1,1%-dən artıq, qeyri-neft sektorunda isə 1,1% artım olmuşdur.

**Nəticə.** Beləliklə, Azərbaycan iqtisadiyyatı inkişaf etdikcə milli maraqlara cavab verən səmərəli iqtisadi struktur formalaşır. Bu səmərəli iqtisadi struktura uyğun olaraq, ÜDM-in yaranmasında iştirak edən sahələrin pay nisbəti mütərəqqi sahələrin xeyrinə (elmtutumlu sahələr) dəyişəcək.

**Ümüdvar Əliyev**

**Milli iqtisadiyyatda quruluş dəyişikliklərinin Ümumi Daxili Məhsulun strukturu və dinamikasına təsiri**

**Xülasə**

Azərbaycan müstəqillik illərinin ilk dövründən başlayaraq, iqtisadiyyatda quruluş dəyişiklikləri həyata keçirməyə başladı. Bu quruluş dəyişiklikləri milli mənafelərə uyğun formalaşdırılır. Yeni formalaşdırılan iqtisadi struktur ÜDM-in də strukturunda dəyişikliklərə gətirib çıxarır. Quruluş dəyişiklikləri nəticəsində çox böyük xüsusi çəkiyə malik olan kənd təsərrüfatının payı 30%-dən hal-hazırda 6%-a qədər enmişdir. Bu heç də kənd təsərrüfatının ÜDM-də mütləq həcminin azalması demək deyildir. Qeyri-neft sektorunun inkişaf etdirilməsi də müqayisə olunan illərdə onun ÜDM-də payının artması ilə müşahidə olunmuşdur. Hazırda elmtutumlu sahələrin inkişaf etdirilməsi ölkəmizin iqtisadi siyasətinin prioritetlərindəndir. Bu sahənin inkişafı nəticəsində iqtisadiyyatda baş verə biləcək ciddi dəyişikliklər ÜDM-in strukturunun səmərəliliyini yüksəldəcək.

**Умудвар Алиев**

**Влияние структурных изменений в национальной экономике на динамику и структуру Валового Внутреннего Продукта**

**Резюме**

С первых лет независимости Азербайджана стали осуществляться структурные преобразования в экономике. Эти изменения формируются с учетом национальных интересов. Вновь сформировавшаяся экономическая структура привела к изменению структуры Валового Внутреннего Продукта. В результате структурного изменения, доля сельскохозяйственного производства, занимавшая большой удельный вес в ВВП, за эти годы снизилась с 30% до 6%. Однако, это вовсе не означает уменьшение абсолютной величины сельскохозяйственного производства в ВВП. Развитие ненефтяного сектора экономики за этот период времени также сопровождается ростом его удельного веса в ВВП. В настоящее время приоритетным направлением экономической политики страны является развитие наукоемких отраслей. Серьезные изменения в экономике, являющие результатом развития этих отраслей, приведут к более эффективной структуре ВВП.

**Umudvar Aliyev**

**The impact of structural changes of national economy on the dynamics and structure of the Gross Domestic Product**

**Summary**

From the first years of independence Azerbaijan began to implement structural changes in the economy. These changes were based on national interests. The newly formed, economic structure has led to change the structure of Gross Domestic Product. As a result, the share of agricultural production, which occupied a large share of GDP fell from 30% to 6% over the years. However, this does not mean a decrease in the absolute value of agricultural production in the GDP. The development of non-oil sector of the economy during this period is also accompanied by an increase of its share in GDP. Currently, the country's priority of economic policy is the development of knowledge-based industries. Significant changes in the economy resulting from the development of these sectors, will lead to a more efficient structure of GDP.

**Ədəbiyyat**


1. Azərbaycan İqtisadiyyatı. Bakı "Ağrıdağ" 1999; 396 səh.
2. Ümüdvar Əliyev. İqtisad elminin aktual problemləri. Bakı "İqtisad Universiteti" 2013; 158 səh.
3. F.F. Mustafayev. Keçid iqtisadiyyatında dövlət tənzimlənməsinin makroiqtisadi aspektləri. Bakı, "Elm" nəşriyyatı 2008; 537 səh.
4. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramı (2004-2008-ci illər)
5. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramı (2009-2013-ci illər)
6. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramı (2014-2018-ci illər)
7. Azərbaycanın statistik göstəriciləri 2015-ci il. Bakı, 2015; 814 səh.

# İNSAN KAPİTALI – İNNOVATİV İNKİŞAFIN FUNDAMENTİDİR

***Zərifə Hüseynova***
*Azərbaycan Dillər Universiteti*
*Siyasi elmlər kafedrasının dosenti, i.e.n.*
*AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi 134*
*e-poçt: zarifa37@mail.ru*

**Açar sözlər:** innovasiya, insan, insan kapitalı, intellektual kapital, modernləşmə.
**Ключевые слова:** инновация, человек, человеческий капитал, интеллектуальный капитал, модернизация.
**Keywords:** innovation, human, human capital, intellectual capital, modernization.

Cəmiyyətin tarixi inkişafı maddi və mənəvi mədəniyyətin bütün elementlərinin məcmusunu əks etdirən sivilizasiya meyarları ilə əlaqədardır. Tarixə yeni, müasir sivilizasiyalı yanaşmanın mərkəzində insan amili, dünyada maraq doğuran, davamlı inkişafın əsasını təşkil edən insanın sağlamlığı, biliyi, yenilikçilik qabiliyyəti, intellekt ehtiyatları kimi başa düşülən insan kapitalı durur.

İnsan, onun fəaliyyəti və təbiəti, "insan qızılı"nın formalaşması, cəmiyyətin hər bir üzvünün potensialının artırılması prosesi sivilizasiyanın inkişafı, transformasiyası və beynəlxalq rəqabətin vəhdəti olan müasir modernləşmənin də ən aktual problemlərindəndir. İqtisadi inkişafın modernləşmə mərhələsi dünyagörüşünün, dünyanı dərk etməyin, dünyaya münasibətin, insan, onun fəaliyyəti və idrak imkanlarının, eləcə də onların ətraf mühitdə yeri və rolunun spesifik üsulla qiymətləndirilməsi ilə xarakterizə edilir.

Yeni əsrin tarixi sənədi olan Birləşmiş Millətlər Təşkilatının Minillik Bəyannaməsində biliyə əsaslanan inkişafı, cəmiyyətin ən böyük meyarı olan insanların daha yaxşı həyat tərzi qurmaları, ölkənin zəngin insan potensialının gələcək inkişafı üçün müəyyən edilmiş prinsipləri bütün dünya hökümətləri tərəfindən qəbul olunmuşdur. Minilliyin Bəyannaməsinə imza atmış digər dövlətlər kimi Minilliyin İnkişaf Məqsədləri nəzərə alınmaqla Azərbaycanda da əsas məqsəd modernləşmənin ilkin şərti olan insan ehtiyatlarının inkişafı, insan kapitalının formalaşması, yüksək səviyyəli peşəkarların timsalında müasir texnika və texnologiyaların inkişafi prosesində iştirak etmək üçün kifayət qədər potensialın yaradılmasıdır.

Fəlsəfi özünüdərkin mərkəzi problemi olan insan, onun fəaliyyəti və insan təbiəti sivilizasiyanın inkişafının bütün mərhələlərində görkəmli mütəfəkkirlərin diqqətini cəlb etmişdir. Bu problem qədim dünyanın görkəmli filosofu və iqtisadçısı Aristotelin (e.ə. 384-322), ingilis materializmin görkəmli nümayəndələri T.Hobbsun (1588-1679), Con Lokkun (1632-1704), alman fəlsəfi fikrinin inkişafında xüsusi rolu olan İ.Herderin (1744-1803), fransız maarifçilərinin nümayəndəsi J.J.Russonun (1712-1778), italyan iqtisadçısı V.Paretonun (1848-1923), amerikan psixoloqu A.Moslounun (1908-1970) və digərlərinin əsərlərində öz əksini tapmışdır.

İnsan təbiətinə xas olan xeyirxahlığı iki qrupa bölən Aristotel zəkaya uyğun, əqli əməklə məşğul insanlara aid etdiyi birinci qrup xeyirxahlığı hər şeydən əvvəl intellektual, insanın xarakteri ilə əlaqələndirən, ikinci qrupu isə etik xeyirxahlıq adlandırırdı. Aristotelə görə bütün şeylərin və həqiqətin ölçüsü kamil əxlaqlı insandır, insanların həyat tərzini ehtiyac müəyyən edir.

İnsanın mövcudluğunun və fəaliyyətinin əsası olan insan təbiəti haqqında ziddiyyətli fikirlər də olmuşdur. Belə ki, T.Hobbs insan təbiətinə eqoistlik, bir-birinə ziyan vurmaq, J.J.Russo isə insanın təbiətinə xeyirxahlıq xas olduğunu sübut etməyə çalışmışlar.

Əməyi insan təbiətinin ayrılmaz atributu hesab edən Con Lokka görə insan təbiətinə mülkiyyətə meyillilik və xeyirxahlıq xasdır. İnsan mədəniyyətinin əsasını eyniləşdirdiyi əməklə, mülkiyyətdə görən C.Lokk zəhmət çəkməyi və təşəbbüs göstərməyi dəyərin əsas mənbəyi hesab edirdi. C.Lokkun "Təcrübə insan zəkası anlamı haqqında" (1690), "Tərbiyə haqqında bəzi fikirlər" (1693) əsərləri insan zəkasının əmələ gəlməsi haqqında təlim adlandırılırdı.

K.Marksın fikrincə, müasir sosioloqların da inkişaf etdirdiyi fikir – insanın mahiyyəti – bütün ictimai münasibətlərin məcmusudur.

İnsanların tarixini təbiətin davamı hesab edən İ.O.Helder sübut etməyə çalışırdı ki, tarixi inkişafın subyekti görkəmli şəxsiyyətlər deyil, cəmiyyətin tərəqqisini ixtiralar, kəşflər və yeni biliklər təşkil edir. İnsan təbiətinə fəaliyyət göstərmək, ideyalar yaratmaq qabiliyyəti xasdır, həqiqi humanizm insanın təbiətindədir. Qloballaşan müasir dünyada da iqtisadi inkişafın ən mühüm və mürəkkəb problemlərindən olan humanizm cəmiyyətin sosial-iqtisadi təbiətindən irəli gələn həyati tələbatdır.

XX əsrin 20-30-cu illərində ABŞ-da sosioloq və psixoloqların hazırladıqları "insan münasibətləri" nəzəriyyəsinə görə hər bir istehsal sisteminin mərkəzində insan – işçi durmalıdır, ona "bioloji maşın" kimi deyil, "sosial-psixoloji varlıq" kimi müraciət edilməlidir.

Ən son bilik və texnologiyalara yiyələnmə prosesində insan kapitalının formalaşmasının və ölkənin davamlı inkişafının təmin olunmasının obyektiv zəruriliyini şərtləndirən əsas səbəb elmi-texniki inqilabın nailiyyətlərinin tətbiqi, elmtutumlu istehsal, həyat keyfiyyəti də daxil olmaqla yeni peşəkarlıq səviyyəsini tələb edən fasiləsiz innovativ inkişaf prosesidir.

Hər cür dəyişikliyi, yeniliyi əks etdirən innovasiya geniş mənada elmi-texniki tərəqqi bazasında bazis innovasiyaya, dar mənada isə mövcud olanların modifikasiyası ilə əlaqədar təkmilləşdirici innovasiyaya ayrılır. İqtisadi ədəbiyyatlarda məzmun nöqteyi-nəzərindən məhsul və xidmətlərdə innovasiya, texnologiyada innovasiya, istehsal vasitələrində innovasiya ən müxtəlif səviyyələrdə insanlardan gələcəyi görmək, orijinal təfəkkür, yenilikçilik fəaliyyəti tələb edir. İnnovasiya anlayışını ilk dəfə elmi dövriyyəyə gətirən Avstriyanın görkəmli iqtisadçısı İ.Şumpeterin (1883-1950) qeyri-tarazlıq nəzəriyyəsində mərkəzi yeri yenilikçilik, yüksək peşəkarlıq, xüsusi tip təfəkkür, yeni istehsal metodlarının tətbiqi durur. İnnovativ iqtisadiyyatın formalaşdığı şəraitdə məhz insan fəaliyyəti, insanın yaradıcı əməyi, fəallığı, innovativ insan kapitalı cəmiyyətin humanitar inkişafının əsas amilinə çevrilir. Onu da qeyd etmək lazımdır ki, cəmiyyətin tarixi də fəallığın sosial, spesifik forması olan insan fəaliyyətinin nəticəsidir. İnsan fəaliyyəti nəticəsində yalnız ətraf mühit öyrənilmir, eyni zamanda maddi və mənəvi dəyərlərin daşıyıcısı olan insanın daxili təbiəti də inkişaf edir, təcrübənin toplanması və yayılması prosesi baş verir.

İnsan potensialının kamilliyi və aktivliyinin üstünlük təşkil etdiyi mərhələdə miqyasına və əhəmiyyətinə görə baş verən dəyişikliklər iqtisadiyyatın hərəkətverici qüvvəsi anlayışına yanaşma tərzini də dəyişdirir, dar bazar formulu, başqa sözlə, "dəyər-faydalılıq" formulu köhnəlir, istehsal və istehlaka istiqamətlənən sənaye insanı mənəvi dəyərlərə, yaradıcılığa, yenilikçiliyə istiqamətlənən yeni cəmiyyətin insanına, şəxsiyyətinə çevrilir, innovativ insan kapitalının formalaşmasına imkan yaranır, istehsal vasitələrini hərəkətə gətirən, öz dəyərindən əlavə dəyər yaradan insan ən zəngin kapital kimi innovativ inkişafın fundamentini təşkil edir. Fikrimizcə, heç bir iqtisadi sistem insanın yaradıcı və innovativ potensialından istifadə etmədən iqtisadi inkişafı təmin etmək iqtidarında deyildir. Bu baxımdan cəmiyyətin sosial-iqtisadi inkişafında insan potensialı həlledicidir, insanda maddiləşən kapital gəlir gətirmək qabiliyyətinin ölçüsüdür. Kifayət qədər həcmli, geniş və hətta fəlsəfi, sosial anlayış olan insan kapitalı iqtisadi artımın keyfiyyəti və səmərəliliyinin yüksəldilməsilə əlaqədar problemlərin tərkib hissəsidir.

XX əsrin 60-70-ci illərində ilk dəfə Amerika iqtisadçıları, makroiqtisadi təhlilin tətbiqi sahəsinin genişləndirilməsi və insan kapitalı nəzəriyyəsinin işlənilməsinə görə Nobel mükafatı laureatları Teodor Şuls və Harri Bekker insan resursları, insan kapitalı anlayışlarını elmi dövriyyəyə gətirmişlər. İqtisadi münasibətlərin transformasiyasını əsaslandıran müasir iqtisadi nəzəriyyələr arasında elmi-texniki inqilabla əlaqədar "insan kapitalı konsepsiyası" mühüm yer tutur.

Amerika iqtisadçısı Teodor Şuls ilk dəfə işçi qüvvəsinin keyfiyyətini yüksəldən təhsilə vəsait qoyuluşunu texnika və texnologiyaya investisiya kimi proses hesab edir. Amerika iqtisadçısı Harri Bekker isə "insana investisiya" anlayışını yalnız ümumi professional təhsilə deyil, eyni zamanda səhiyyəyə, insan tərbiyəsinə, insanın mədəni və intellektual səviyyəsinin yüksəlməsinə və s. təsir edən qoyuluşları da aid edir. H.Bekkerə görə insanın yaradıcı potensialı onun şəxsiyyəti ilə ayrılmaz əlaqədədir və ona gəlir gətirir. Bu baxımdan məqsədyönlü xarakter daşıyan investisiya kimi qiymətləndirilən bütün növ xərclər davamlı inkişaf modelinə keçmək, davamlı insan inkişafını təmin etməkdir.

Ümumiyyətlə, Çikaqo məktəbinin insan kapitalı konsepsiyasına görə gələcəkdə artan gəlirlər naminə təhsilə, səhiyyəyə, miqrasiyaya və istehsal fəaliyyətinin digər növlərinə qoyuluşlar səmərəli əsasda həyata keçirilməlidir. İnsan kapitalı konsepsiyasının əsas məzmununu insan-kapital qoyuluşunun obyekti kimi, insan-iqtisadi fəaliyyətinin subyekti kimi xarakterizə olunur. İnvestisiyanın belə istiqamətləri insanın yüksək ixtisas səviyyəsində maddiləşən yeni tipli kapitalın – insan kapitalının formalaşmasının əsasına, yüksək ixtisaslaşmış və təşəbbüskar işçi qüvvəsinə istiqamətlənməyə, fasiləsiz biliyin zənginləşməsinə və ixtisasının artırılmasına xidmət edir.

İnsan kapitalına investisiya həm cəmiyyətə, həm də ayrı-ayrı insanlara faydalıdır. Cəmiyyət nöqteyi-nəzərindən yüksək ixtisaslı istehsalçı daha çox ümumi daxili məhsul kütləsi verir, sahibkarlıq baxımından az istehsal xərclərini və yüksək mənfəəti təmin edir, ayrı-ayrı insanlar nöqteyi-nəzərdən insana qoyuluşlar hər kəsin qabiliyyətlərinin daha tam reallaşmasına imkan yaradır, nəticədə həyatı boyu yüksək gəlir əldə edir. Bu baxımdan insan kapitalına qoyulan sərmayə gələcəyə yönəldilmiş ən səmərəli yatırımdır. İnsan kapitalına investisiya yalnız texniki sahələrin iqtisadi imkanlarının inkişafına deyil, həm də müasir texnologiyaların istehsalı və idarəetmə sahəsinin istifadəsinə xidmət edən prosesdir.

XX əsrin sonlarında informasiya və kommunikasiya texnologiyalarının təsir dairəsi iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti, bütövlükdə insanların həyat fəaliyyətini əhatə edir. Dünya təsərrüfatının inkişafını texnika, texnologiya və bilik prizmasından izah edən amerikan sosioloqu, ictimai fikir tarixi mütəxəssisi D.Bell göstərmişdir ki, “kapitalın daha mühüm forması maşını – nəzəri biliklər, sosial nüfuzun mərkəzi kimi korporasiyaları – universitetlər və tədqiqat institutlarını sıxışdırıb çıxarır, sosial inkişafın əsas şərti mülkiyyətə sahib olmaq deyil, intellekt, bilik, istedad, mürəkkəb intellektual məsələləri həll etmək qabiliyyətidir” [2, səh.24].

“Postsənaye cəmiyyəti” nəzəriyyəsinin yaradıcısı Amerika sosioloqu E.Tofflerə görə bu cəmiyyət maddi nemətlər istehsalında, istehsal və qeyri-istehsal fəaliyyətinin bütün növlərində biliyin xüsusi rolu ilə kapital və insan resurslarının sənaye istehsalı sferasından xidmət və informasiya sferasına yerləşdirilməsi ilə xarakterizə olunur, ... yeni şəraitdə peşəkar hazırlıq iqtisadi artımın mühüm amili olur [2, səh.26] ... yeni şəraitdə işçi qüvvəsinin, onun hazırlanmasının keyfiyyət xarakteristikası mühüm əhəmiyyət kəsb edir” [2, səh.27]. Tofflerin fikrincə, bilik və informasiya elə bir kapitaldır ki, dünya iqtisadiyyatında hər bir ölkənin yerini müəyyən edir.

Yaradıcı enerjiyə malik, yeni metodlar mənimsəyən yüksək ixtisaslı innovativ intellektlərin formalaşması, insan kapitalının yeni keyfiyyətinə nail olmaq davamlı inkişaf edən Azərbaycan Respublikasının iqtisadi strategiyasının, “Azərbaycan 2020: gələcəyə baxış konsepsiyası”nın, həyata keçirilən bütün sosial-iqtisadi Dövlət Proqramlarının tərkib hissəsidir. Bu proqramlarda əsas ideya Azərbaycanın gələcək inkişafının insan kapitalı, innovativ iqtisadi artım təməli üzərində qurulmasıdır. Azərbaycanın gələcək inkişafı naminə insan kapitalı siyasətinin zəruriliyini nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlhan Əliyev dəfələrlə demişdir: “...intellektual potensial bu gün və xüsusilə gələcəkdə də hər bir ölkənin inkişafını müəyyən edir. Azərbaycanda təbii resurslarımızı, ilk növbədə, intellektual potensiala çevirmək üçün proqramlar tərtib etmişik. ...qara qızılı insan kapitalına çevirmək prinsipi bu gün artıq işləyir” [3]. “...insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir. Gec-tez təbii sərvətlər tükənəcək, bilik, zəka, səviyyə isə ölkəmizin davamlı inkişafını uzun illər təmin edəcəkdir” [4].

UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Parisdə UNESKO-nun Baş Konfransının 36-cı sessiyasındakı çıxışında demişdir: “... Əgər əvvəllər təbii resurslar zənginliyin yeganə mənbəyi sayılırdısa, indi insanların özü müasir ideya və texnologiyaların təşəbbüskarı kimi yeni mənbə rolunu oynayırlar. Lakin təbii sərvətlərdən fərqli olaraq, insan təfəkkürü hüdudsuzdur. “İnsan kapitalı” termini artıq metafor deyildir” [5].

Qloballaşan dünyada Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası və iqtisadi inkişafın insana istiqamətləndiyi şəraitdə insan kapitalı makroiqtisadi səviyyədə də tərəqqinin və rəqabətqabiliyyətliliyinin ən vacib resursudur. Ölkə iqtisadiyyatının və rəqabət qabiliyyətinin yüksəldilməsi, davamlı inkişaf modelinə keçilməsinin sürətləndirilməsi və s. sahəsində görülən tədbirlərin nəticəsidir ki, “Dünya İqtisadi forumunun 2013-2014” Qlobal rəqabətqabiliyyətli indeksi

üzrə Azərbaycan dünyanın 148 ölkəsi arasında 39-cu, MDB məkanında birinci, dünya miqyasında ilk 40 ölkənin sırasındadır [6], sahibkarlıq fəaliyyətinin aparılmasında 189 ölkə arasında 70-ci yerdədir [7].

Fikrimizcə, yeni meyarlara uyğun fəaliyyət göstərən, modernləşən Azərbaycanda hazırda innovativ intellektual qlobal texnologiyalardan innovativ idarə etməyi bacaran yenilikçi kadrların hazırlanmasına ehtiyac var. Akademik Ramiz Mehdiyev demişdir: "...biz inkişafın yeni mərhələsinin astanasındayıq. Bu dövlət idarəetmənin müxtəlif sahələrində yeni metodları mənimsəyən yüksək hazırlıqlı kadrlar formalaşdırmaq zəruriliyini şərtləndirir ... biz müasir idarəetmənin incəlikləri ilə tanış olan, hazırlıqlı kadrlara tələbat duyuruq. Bu gün biz müstəqil yeni biliklərə sahib olmaq bacarığına malik insan və vətəndaş formalaşdırmalıyıq" [8].

Bizcə, yalnız bilik, ağıl və uzaqgörənlik yolu ilə bütün insan resursları və təbii resursların idarə edilməsi ilə təbiətin bəxş etdiyi sərvətlər qoruna, saxlanıla və gələcək nəsillərə ötürülə bilər.

Modernləşən və müasirləşən Azərbaycanda davamlı inkişaf prosesinin təmin olunması məqsədilə insan kapitalının əsas komponenti olan təhsilin bütün pillələrində və səviyyələrində genişmiqyaslı islahatların və layihələrin həyata keçirilməsi dövlətin prioritet siyasətinin, "Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsilə bağlı Fəaliyyət Planı"nın başlıca istiqamətlərindəndir. "...prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir. İnsan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir" [9].

Qeyd edək ki, təhsil bir tərəfdən sosial-iqtisadi həyatın müasirləşməsinə, təhsil alanın qazandığı bilik və bacarığın iqtisadi amilə çevrilməsinə, digər tərəfdən təhsil prosesində əldə olunmuş bilik və bacarıqlar, etik-əxlaqi normalar hər bir təhsil alanın cəmiyyətin layiqli vətəndaşına çevrilməsi üçün zəruri şərait yaradır. Təhsil həm təhsil almağı arzu edən şəxslərin, həm də təhsil investorlarının gücünü birləşdirir.

Son illər Azərbaycanda təhsilə, elmə, səhiyyəyə yüksək texnologiyalara dair tədqiqatların güclənməsinə, İKT-nin peşəkar istifadəsinə büdcədən ayrılan xərclər xeyli artmışdır. 2013-cü ildə 2005-ci illə müqayisədə dövlət büdcəsindən elmə çəkilən xərclər 4,1 dəfə, təhsilə 3,8 dəfə, tədqiqat və işləmələrə çəkilən daxili xərclər 4,2 dəfə, ali təhsil müəssisələrinə 5,4 dəfə, səhiyyəyə 5,4 dəfə, informasiya və rabitə xidmətlərinə isə 3,4 dəfə artmışdır. Əhalinin hər 100 nəfərinə düşən internet istifadəçilərinin sayı 73 nəfər, ali və orta təhsili olan 15 yaş və yuxarı yaşlı əhalinin hər 1000 nəfərinə 971 nəfər düşür. 2009-cu ilin siyahıyaalınması məlumatlarına görə ölkədə savadlılıq 99,8% təşkil edir [10, səh.269].

Təhsil, səhiyyə, ixtisas, bilik, əlverişli mühitin mövcudluğu, işçi qüvvəsi və məşğulluq kimi parametrləri nəzərə almaqla ölkənin uzunmüddətli iqtisadi potensialının inkişaf imkanlarını qiymətləndirən Ümumdünya Forumunun İnsan kapitalı indeksi üzrə ilk reytinqində Azərbaycan 122 ölkə arasında 64-cü, təhsil səviyyəsinə görə 71-ci, əlverişli mühitin mövcudluğu, işçi qüvvəsi və məşğulluğa görə 55-ci yerdədir [11].

İqtisadi məzmun daşıyan anlayışların ciddi transformasiyaya uğradığı innovasiya prosesində "insan kapitalı" anlayışı ilə yanaşı, yeni tipli kapital – "intellektual kapital" anlayışı elmi dövriyyəyə daxil oldu.

İntellektual kapital – nou-xaudan irəli gələn işçi qüvvəsinin müstəqil hərəkət qabiliyyətilə əlaqədar əşya və fəaliyyət formasında xüsusi mübadilə sahəsinin formalaşmasına, hər növ fəaliyyətin səmərəliliyinin yüksəldilməsinə imkan verən informasiyanın yaradılması və ötürülməsi ilə şərtlənən insan kapitalının spesifik formasıdır. "Nou-xau elmi-texniki, istehsal-texnoloji, maliyyə-iqtisadi, kommersiya xarakterli biliklərin məcmusudur" [12].

İntellektual kapital makroiqtisadi səviyyədə iqtisadi artımın yeni innovativ iqtisadi artım tipinə keçməyə imkan yaradır.

İstehsal amillərinin keyfiyyətcə təkmilləşdirilməsinə əsaslanan iqtisadi artımın innovativ tipinin əsas fərqli xüsusiyyəti bazar iqtisadiyyatı şəraitində baş verən tələb və bölgü amillərinin manеələrinin aradan qaldırılmasına, eləcə də iqtisadi və sosial səmərəlilik arasında yalnız ziddiyyətin ləğv edilməsinə deyil, həm də sərhədlərin silinməsinə, şəxsi və istehsal tələbatlarının innovativ

paritetinin seçilməsinin meyarı və tənzimlənməsinin təkrar istehsal mexanizmlərinin mərkəzinə keçməsinə istiqamətlənməsidir. Belə maneələrin aradan qaldırılması imkanları, hər şeydən əvvəl iqtisadiyyatın artımı nəticəsində tələbatların təmin olunmasını yüksəltmək qabiliyyətindən asılıdır. İqtisadi artımın yeni keyfiyyətinin formalaşması cəmiyyətdə işgüzar aktivliyi, onun istehlak tələbatının ödənilməsini artırmağa istiqamətlənən və istehsal prosesində həm sahibkarların, həm də icra funksiyasını yerinə yetirənlərin stimullaşdırılmasına kömək edən islahatların, yenidənqurmaların həyata keçirilməsilə əlaqədardır.

İnnovasiya prosesinin ön plana keçdiyi iqtisadi inkişafın müasir mərhələsində yeni keyfiyyətli iqtisadi artım cəmiyyətin inkişaf perspektivlərini proqnozlaşdırmağa imkan verir, məhdud resurslar problemlərinin həlli üçün şərait yaradır. İnnovativ tipli iqtisadi artım resursaqənaət texnologiyalarının tətbiqi, ETT-nin nailiyyətləri əsasında istehsalın səmərəliliyinin yüksəldilməsinə daha intensiv xarakter verir, qara qızılın insan kapitalına transformasiyası, ÜDM-in artması, sosial-iqtisadi problemlərin həllinə geniş imkanlar açır.

İqtisadi cəhətdən sürətlə inkişaf edən Azərbaycanda son illərdə (2009-2013) ÜDM 1,1 dəfə, əhalinin hər nəfərinə düşən ÜDM 1,1 dəfə, əhalinin gəlirləri 1,7 dəfə artmışdır [10, səh.209]. 2015-ci ildə Azərbaycanın hüquqi və fiziki şəxsləri dünyanın 165 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirmiş, 111 ölkəyə məhsul ixrac etmiş, 147 ölkədən idxal olunmuşdur. Ticarət dövriyyəsinin 48,2 faizi Avropa İttifaqı ölkələrinin, 42,4 faizi dünyanın digər ölkələrinin payına düşür [10, səh.40].

Dünyada, o cümlədən ölkədə baş verən iqtisadi böhran, devalvasiya neft-qaz sahəsində, tikintidə, nəqliyyat sektorunda məhsul və xidmətlərin istehsalının azalması nəticəsində Azərbaycanda 2016-cı ilin yanvar-fevral aylarında ÜDM 3,2 faiz, qeyri-neft sektorunda 5,5 faiz, azalmasına baxmayaraq, ölkə əhalisinin gəliri əvvəlki ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 10,2 faiz, işləyənlərin orta aylıq əmək haqqı 4,5 faiz artmışdır [14]. ÜDM-ə qeyri-neft sektorunun dinamikası 2010-cu ildə 7,9 faiz, 2011-ci ildə 9,4 faiz, 2013-cü ildə 10,0 faiz, 2014-cü ildə 7,0 faiz olmuşdur. ÜDM-in 2014-cü il istehsalının 61,3 faizi qeyri-neft sektorunun payına düşür[10, səh.602].

Makroiqtisadi şəraiti xarakterizə edən bu göstəricilər sosial-iqtisadi həyatın modernləşdirilməsi və ölkənin davamlı inkişafının təmin olunması, insan kapitalının formalaşması, iqtisadiyyatın neft amilindən asılılığının azaldılması məqsədilə sosial və iqtisadi islahatların uğurla həyata keçirilməsinin nəticəsidir.

**Nəticə.** Müasir iqtisadi inkişafın xarakterik əlaməti innovasiya prosesinin ön plana keçməsidir. İnkişafın innovasiya mərhələsinə keçən dünya iqtisadiyyatının, o cümlədən Azərbaycan iqtisadiyyatının fərqləndirici əlaməti istehsalın elmtutumluğu, ən müxtəlif səviyyələrdə iqtisadiyyatda kəmiyyət, keyfiyyət və struktur dəyişiklikləridir. İqtisadi inkişafın innovativ mərhələsində müxtəlif səviyyələrdə insan kapitalına investisiya emli-texniki tərəqqiyə, iqtisadi artıma uzunmüddətli təsir etmək qabiliyyətidir. İnnovasiyanın məqsədyönlü yerləşdirilməsi və ondan istifadənin səmərəliliyinin yüksəldilməsi inmnovativ iqtisadi artımı sürətləndirir. Müasir innovativ inkişaf şəraitində təsərrüfat proseslərinin dinamizmini əks etdirən iqtisadi artımın müəyyən qədər azalması iqtisadiyyatın səmərəliliyinin zəifləməsi demək deyildir. İqtisadiyyatın dinamizmini xarakterizə edən digər mühüm göstərici mütərəqqi struktur dəyişiklikləridir.

Hazırda Azərbaycanda milli xüsusiyyətlər nəzərə alınmaqla başlıca vəzifə innovativ inkişafın fundamentini təşkil edən qara qızılın insan kapitalına çevrilməsi, intellektual və yüksək idarəetmə qabiliyyətinə malik insan kapitalı bazasını formalaşdırmaq, əhalinin rifahının daha da yaxşılaşdırmaqdır.


**Zərifə Hüseynova**

**İnsan kapitalı – innovativ inkişafın fundamentidir**

**Xülasə**

Məqalədə müasir modernləşmənin ən aktual problemlərindən olan fasiləsiz innovasiya prosesi, yüksək ixtisaslı intelektualların, insan kapitalının, onun spesifik forması olan yeni tipli intellektual kapitalın formalaşmasının zəruriliyi xarakterizə edilir. Bununla yanaşı, modernləşən və müasir Azərbaycanda insan kapitalına investisiyanın artırılması, cəmiyyətin, sahibkarlığın, eləcə də

ayrı-ayrı insanların nəzəri-nöqteyincə bu artımın faydalılığı, iqtisadiyyatın neft amilindən asılılığının azaldılması, qara qızılın insan kapitalına çevrilməsi prinsipləri və digər məsələlər konkret makroiqtisadi statistik materiallar əsasında şərh olunur.

**Зарифа Гусейнова**

**Человеческий капитал – фундамент инновационного развития**

**Резюме**

В статье рассматривается одна из актуальных проблем современной модернизации непрерывного инновационного процесса, характеризуется необходимость формирования высококвалифицированных интеллектуалов, человеческого капитала и его специфической формы нового типа интеллектуального капитала. Наряду с этим, увеличение инвестиций в человеческий капитал, эффективность этого роста с точки зрения общества, предпринимательства, а также отдельных людей, уменьшение зависимости экономики от нефтяного фактора, принципы превращения черного золота в человеческий капитал и другие вопросы в современном Азербайджане комментируются на основе конкретных макроэкономических статистических данных.

**Zarifa Huseynova**

**Human capital foundation of innovativ development**

**Summary**

The article considers one of challenging issues of up-to-date modernization of continuous innovation process, the necessity of formation of highly-qualified intellectuals, human capital and its specific form - new type of intellectual capital. It also discusses increasing of investments to human capital, its efficiency with regard to society, entrepreneurship and several individuals, reducing dependency on oil factor, and principles of conversion of black gold to human capital and other issues on the base of concrete macroeconomic statistical materials of Azerbaijan.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında hesabat. Birləşmiş Millətlərin İnkişaf Proqramı. Azərbaycan. 2003. səh.76 (46).
2. Пашковская М.Б., Господарик Ю.П. Мировая экономика «Синергия», № 2012, 526 стр.
3. İlham Əliyev. Üçüncü Bakı Beynəlxalq Humanitar forumunun açılışında çıxışı. Video. Az/ru/br.az/ru
4. İlham Əliyev. Azərbaycanda İKT-nin inkişafı ilə bağlı mühüm addımlar atılıb.www.minkom.qov.az.
5. Mehriban Əliyeva. UNESKO-nun dünya mədəniyyəti və davamlı inkişafda rolu. Parisdə UNESKO-nun Baş konfransı. 26.10.2011.
6. Dünya İqtisadi Forumunun 2013-2014 Qlobal Rəqabətqabiliyyətli indeksi. Info azadin-form.az. 3.12.2012.
7. Ümumdünya Bankı və Beynəlxalq maliyyə korporasiyası. Doinq. Biznes.2014.
8. Ramiz Mehdiyev. XXI əsrdə Azərbaycan ideyası kreativ millət kontekstində. Trend.az.25 iyun 2012.
9. Azərbaycan Respublikasında təhsil üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 oktyabr tarixli Sərəncamı.
10. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2014.
11. İnsan kapitalı. Az.wikipediya.orq/wiki/insan kapitalı
12. Райзверг Б.А., Лозовский Л.Ш. Словарь современных экономических терминов. Москва. 2006. стр.446(235).
13. Xarici ticarət əlaqələri haqqında. Stat.qov.az/news/?id=13107
14. 2016-cı ilin yanvar-fevral aylarında makroiqtisadi göstəriciləri. Stat.gov.az/news/&id=3160,3161,3145

# MANATIN DEVALVASİYASININ SOSİAL-İQTİSADİ NƏTİCƏLƏRİ

**_Ramiz Cavadov_**
_Azərbaycan Dövlət İqtisad Universiteti_
_Statistika kafedrasının dosenti, i.ü.f.d._
_AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6_
_e-poçt:ramiz-dzhavadov@mail.ru_

**Açar sözlər:** gəlir, neft, devalvasiya, valyuta, maliyyə böhranı, büdcə gəlirləri, əmək haqqı.
**Ключевые слова:** доход, нефть, девальвация, валюта, финансовый кризис, доходы бюджета, зарплата.
**Keywords:** income, oil, devaluation, currency, financial crisis, budget revenue, salary.

Dünya iqtisadi təcrübəsində bütün ölkə hökümətlərinin qarşısında üç mühüm problemin – məşğulluğun, işsizliyin və inflyasiyanın optimal səviyyəsinin təmin edilməsi və bunların fonunda real iqtisadi artıma nail olunması aktual olaraq qalmaqdadır. Əhalinin səmərəli məşğulluğunun təmin edilməsi onun həyat səviyyəsinin yüksəldilməsinin ən vacib şərtlərindəndir. Belə ki, əhalinin həyat səviyyəsinin qiymətləndirilməsinin əsas komponentlərindən biri onun gəlirləridir. Əhalinin gəlirlərinin əsas mənbəyi kimi məşğulluqdan əldə olunan gəlirlər çıxış edir. Yüksək gəlir, eyni zamanda məcmu istehlakın həcminin müsbət dinamikasına təsir edən əsas amillərdən biridir. Digər tərəfdən əhalinin gəlirlərinin artması onun müəyyən bir hissəsinin əmanət kimi yığılmasına zəmin yaradır. Əmanətlər isə öz növbəsində investisiyaların əsas mənbələrindən biri hesab edilir. Deməli, əhalinin gəlirlərinin müsbət dinamikası məcmu tələbin (istehlakın) və investisiyaların artımına təkan verir ki, bunların da həcminin artması iqtisadi artımın təmin edilməsində xüsusi rol oynayır. Üzünmüddətli dövrdə iqtisadi artım dövlət büdcəsinin gəlirlərinin artımını təmin edir ki, bu da öz növbəsində hökümətin genişmiqyaslı sosial-iqtisadi islahatları həyata keçirə bilməsinə imkan yaradır. 2000-2013-cü illəri əhatə edən dövrdə Azərbaycanda, eləcə də dünyanın neft ixrac edən bir sıra ölkələrində “Neft bumu” yaşandığının şahidi olduq. Bu dövrdə bütövlükdə dünyada yüksək iqtisadi artım templəri müşahidə olundu. Azərbaycanın da neft ixracından əldə olunan gəlirləri ötən dövr ərzində ilbəil artmışdır. Yüksək neft gəlirləri ölkədə sosial-iqtisadi islahatların uğurla həyata keçirilməsinə zəmin yaratmışdı. Müqayisə üçün deyək ki, 2003-2013-cü illər ərzində ölkədə bir milyondan çox daimi iş yeri yaradılmış, muzdla işləyənlərin orta aylıq əmək haqqı 5,5 dəfə artaraq 425,1 manat təşkil etmiş, yoxsulluğun səviyyəsi 44,7%-dən 5,3%-dək azalmışdır. Adambaşına düşən ÜDM-in nominal həcmi müqayisə olunan dövrdə manat ifadəsində 7,2 dəfə, dollar ifadəsində isə 9,0 dəfə artmışdır. Dövlət büdcəsinin gəlirləri 2003-cü illə müqayisədə 2013-cü ildə 16 dəfə çoxalmışdır [1].

Araşdırılan dövrdə dövlət büdcəsinin gəlirlərinin formalaşdırılmasında neft sektorunun əhəmiyyətli rolu olmuşdur. Belə ki, büdcə gəlirlərinin qeyri-vergi daxilolmalarının əhəmiyyətli hissəsi Neft Fondunun transfertləri hesabına təmin edilmişdir. 2006-cı ildə Neft Fondundan dövlət büdcəsinə daxilolmaların həcmi 585,0 milyon manat təşkil etmişdir ki, bu da büdcə gəlirlərinin 15,1%-nə bərabər olmuşdur. Neft Fondundan büdcəyə transfertlərin həcmi 2006-cı illə müqayisədə 2013-cü ildə 19,4 dəfə artmış və 11350 milyon manat təşkil etmişdir ki, bu da büdcə gəlirlərinin 58,2%-i həcmində olmuşdur [2]. Digər tərəfdən büdcə gəlirlərinin formalaşmasında və vergi daxilolmalarında əhəmiyyətli xüsusi çəkiyə malik “Hüquqi şəxslərin mənfəət vergisi” vergi növüdür. Büdcə gəlirinin bu mənbəyinin xüsusi çəkisi 2003-cü ildə 14,6%, 2013-cü ildə isə 12,2% təşkil etmişdir. 2003-cü illə müqayisədə 2013-cü ildə bu vergi növünün büdcə daxilolmalarında xüsusi çəkisi 2,4 faiz bəndi qədər azalsa da, dinamikada mənfəət vergisindən daxilolmaların həcmi müvafiq müqayisədə 13,3 dəfə çoxalmışdır. 2015-ci ilin yekunlarına əsasən büdcə gəlirlərinin 12,9%-i hüquqi şəxslərin mənfəət vergisi və 47,4%-i Neft Fondunun transfertləri hesabına formalaşmışdır. Əgər nəzərə alsaq ki, mənfəət vergisinin əsas ödəyiciləri qismində neft sektorunun şirkətləri çıxış edir, onda büdcə gəlirlərinin birbaşa neft gəlirlərindən nə qədər asılı olduğunu dərk etmək çətin deyildir.

2008-ci ildə baş vermiş Ümümdünya maliyyə böhranı neftin qiymətinə də əhəmiyyətli təsir göstərmişdir. Belə ki, dünyanın əmtəə birjalarında neftin bir barelinin qiymətinin ən pik həddi

146,09 ABŞ dolları 02.07.2008-ci ildə qeydə alınsa da, ilin sonunda, yəni 23.12.2008-ci il tarixində neftin qiymətləri 4 dəfə azalaraq bir barel üçün 36,49 ABŞ dolları səviyyəsində qeydə alınmışdır[3]. 2008-ci ilin maliyyə böhranının müəyyən mənada Azərbaycan iqtisadiyyatından yan keçməsinin başlıca səbəbləri Azərbaycan iqtisadiyyatının beynəlxalq maliyyə bazarlarına zəif inteqrasiya olunması və dünya neft qiymətlərinin sürətli enməsinin qısamüddətli olması ilə izah oluna bilər. Lakin 2009-cu ilin əvvəllərindən başlayaraq neft tədricən də olsa, yenidən bahalaşmağa başladı və bu artım 2011-ci ilin mayınadək davam etdi. 2011-ci ilin mayın əvvəlində neftin bir bareli üçün 125-127 ABŞ dolları təklif olunurdu. 2011-ci ilin may ayından 2014-cü ilin iyul ayınadək qara qızılın bir barelinin orta qiyməti 110-115 ABŞ dolları civarında tərəddüd edirdi. Lakin dünyanın iri ölkələri maliyyə böhranının mənfi təsirlərindən tam xilas olmağa macal tapmamış 2014-cü ilin ikinci yarısından başlayaraq, dünya əmtəə birjalarında xam neftin qiyməti sürətlə aşağı enməyə başladı. Artıq 2015-ci ilin yanvar ayının əvvəllərində neftin bir barelinin qiyməti 47 dollaradək ucuzlaşmışdı. Bu enişin başlıca səbəbləri kimi, dünya ölkələrində iqtisadi artım templərinin zəifləməsi və xam neft bazarında təklifin həcminin tələbin həcmini müəyyən qədər üstələməsidir. 2011-ci ilin may ayı ilə müqayisədə 2015-ci ilin yanvar ayında neftin qiyməti təxminən 2,7 dəfə ucuzlaşmışdı. 2014-cü ilin ikinci yarısından başlayaraq, neftin ucuzlaşması regionun ən iri iqtisadiyyatı olan dövləti, Rusiya Federasiyasını öz milli valyutasını devalvasiya etmək və üzən məzənnə siyasətinə keçmək məcburiyyətində qoydu. Rusiyanın ardınca Qazaxıstanın, Ukraynanın, Belarusun da milli valyutaları devalvasiyaya məruz qaldı. Dünya iqtisadiyyatında gedən proseslər, Avropa və Asiyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrində məcmu tələbin azalması və iqtisadi artım templərinin səngiməsi fonunda neft ixracatçısı olmayan bir sıra ölkələrdə də, o cümlədən Türkiyədə də milli valyutanın devalvasiyası baş verdi. Qonşu ölkələrin valyutalarının dollar və avro qarşısında məzənnədən düşməsi Azərbaycan manatına da təzyiqləri artırdı. Digər tərəfdən neftin qiymətinin kəskin ucuzlaşması dövlət büdcəsinin donoru kimi çıxış edən Neft Fondunun və büdcə gəlirlərinin artım templərinin əhəmiyyətli dərəcədə aşağı düşməsinə səbəb oldu. Türkiyədə, Rusiyada, İranda, Qazaxıstanda, Ukraynada, Belarusda, Gürcüstanda və digər qonşu ölkələrdə baş vermiş devalvasiya Azərbaycanda istehsal olunan məhsulların qiymətinin bu ölkələrdə istehsal olunan analoji məhsullarla müqayisədə yüksəlməsinə səbəb oldu ki, bu da ölkədən bu cür məhsulların ixracının həcmini azaltmaqla bərabər həmin ölkələrdən idxalın əlverişli olmasına səbəb oldu. Qonşu ölkələrdən idxalın artması xarici ticarətin saldosuna mənfi təsir göstərdi və ölkədən valyuta axınına səbəb oldu. Bununla yanaşı, yerli və xarici investorların Azərbaycandakı aktivlərinin öz ölkələrindəki analoji aktivlərlə müqayisədə yüksək dəyərə malik olmasından istifadə edərək Azərbaycandakı aktivlərini sataraq, xarici valyutaya çevirməklə ölkədən çıxarılması da valyuta axınını gücləndirdi. İdxalın həcminin artması, ixracın həcminin dəyər ifadəsində azalması valyuta bazarında xarici valyutaya tələbi, bu da öz növbəsində manata təzyiqləri artırdı.

2008-2009-cu illərdə olduğu kimi neft qiymətlərinin yenidən qısa zaman müddətində bahalaşacağına ümid edən hökumət yalnız Mərkəzi Bankın valyuta ehtiyatlarından istifadə etməklə valyuta bazarında manatın xarici valyutalar qarşısında məzənnəsini qoruyub saxlamağa istiqamətlənmiş siyasət yürütməklə kifayətləndi. 2014-cü ilin avqust – 2015-ci ilin yanvar ayları müddətində olan dövr ərzində Mərkəzi Bankın valyuta ehtiyatları nisbi ifadədə 16,5%, mütləq ifadədə isə 2513,4 mln. ABŞ dolları həcmində azalaraq 12680 mln. ABŞ dolları təşkil etmişdir [4]. Manata təzyiqlərin, ölkədən valyuta axınının qarşısını almaq, Neft Fondunun ehtiyatlarına qənaət etmək və ölkədə istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin yüksəldilməsi baxımından səmərəli addım kimi 2015-ci il fevralın 21-də Mərkəzi Bank Azərbaycan manatının devalvasiyası qərarını verdi və 1 ABŞ dolları=1,05 manat, 1 avro=1,19 manat müəyyən edildi. Devalvasiya nəticəsində ABŞ dolları manata nəzərən 34,6%, avro isə 33,7% bahalaşdı. Xarici valyutanın bahalaşması ölkənin sosial-iqtisadi həyatında müəyyən problemlərin yaranmasına səbəb oldu. Əhalinin xarici valyutada olan kreditlərinin ödənilməsi ilə bağlı problemlər meydana gəldi, xaricdən ölkəyə idxal olunan məhsulların qiymətləri artmağa başladı. Valyuta məzənnələrinin dəyişilməsi ölkədə istehsal olunan məhsulların qiymətinin də artırılmasını aktuallaşdırdı. Devalvasiya kənd təsərrüfatı sektorunda mövcud olan problemləri daha da qabartdı. Məlum oldu ki, ölkədə istehsal olunan buğda un istehsalı üçün səmərəli deyil və una olan tələbatı ödəmək üçün həm un, həm də

istehsal təyinatlı buğda xaricdən idxal olunur. Bu səbəbdən də 2015-ci il fevralın sonu martın əvvəlində çörəyin qiymətində 25%-lik artım müşahidə olundu ki, bu da nominal gəlirləri dəyişilməz qalan geniş əhali kütləsinin maraqlarına toxundu. Bu problemi aradan qaldırmaq məqsədilə ölkə prezidentinin müvafiq sərəncamına əsasən buğda idxalına tətbiq olunan Əlavə dəyər vergisi (ƏDV) ləğv edildi. Prezidentin müvafiq göstərişi ilə süni qiymət artıran işbazlara qarşı mübarizə tədbirləri gücləndirildi. Manatın devalvasiyası 2015-ci ildə dövlət büdcəsinə Neft Fondundan nəzərdə tutulan transfertlə bağlı müəyyən qənaət etməyə imkan verdi. Belə ki, 2015-ci ilin büdcə layihəsində Neft Fondundan transfertlərin həcmi 10388 milyon manat həcmində nəzərdə tutulmuşdu ki, bu da ABŞ dolları ifadəsində 13317,95 milyon dollar (1 ABŞ dolları=0,78 manat) həcmində olmalı idi [2]. Manatın birinci devalvasiyasından sonra dövlət büdcəsinə transfert olunması nəzərdə tutulan 10388 milyon manatı əldə etmək üçün Neft Fondu 9893,33 milyon dollar istifadə etməli oldu ki, bunun da nəticəsində fondun vəsaitlərinə 3424,62 milyon ABŞ dolları həcmində qənaət etmək mümkün oldu.

Fevral devalvasiyasından sonra belə güman edilirdi ki, manata təzyiqlər sona yetəcək və valyuta bazarında sabitlik yaranacaq. Lakin heç də hər şey gözlənilən kimi olmadı. Belə ki, 2015-ci ilin mart-dekabr ayları ərzində manatın yeni məzənnəsinin qorunub saxlanması məqsədilə Mərkəzi Bankın (MB) valyuta bazarına intervensiyası davam etdirildi. Nəticədə 2015-ci ilin fevral-noyabr ayları ərzində MB-nin valyuta ehtiyatları mütləq ifadədə 4758,8 milyon dollar həcmində, nisbi ifadədə isə 1,76 dəfə azaldı. Neftin qiymətinin azalmaqda davam etməsi, valyuta bazarında baş verən neqativ proseslər və MB-nin valyuta ehtiyatlarının tükənməsi Azərbaycan hökümətini üzən məzənnə siyasətinə keçməklə manatın yeni devalvasiyası haqqında qərar verməyə məcbur etdi. 21 dekabr 2015-ci il tarixində 1 ABŞ dolları=1,55 manat, 1 avro=1,6850 manat səviyyəsində müəyyən edildi [5]. Azərbaycan MB-nin rəsmi məlumatına əsasən 21 dekabr 2015-ci il tarixində manatın məzənnəsi dekabrın 18-i ilə müqayisədə 47,63% və ya 0,500 manat artaraq 1,55 manat təşkil etdi. Bivalyuta səbətinə daxil olan avronun məzənnəsinə gəlincə, Avrozonanın vahid valyutası da 48,32% və ya 0,5456 manat artaraq 1,6850 manata yüksəlib. Manata nəzərən Rusiya rublunun məzənnəsi 47,3% və ya 0,007 manat bahalaşaraq 0,0218 manat olmuşdu. Bütövlükdə 2015-ci il ərzində baş verən devalvasiyalar nəticəsində manat dollar qarşısında 98,7%, avroya nəzərən isə 91% ucuzlaşmışdır. MB-nin üzən məzənnəyə keçməsi və manatın təkrar devalvasiyası bank sektorunda xarici valyutada olan kredit borcları ilə bağlı problemi daha da kəskinləşdirdi. Manatın devalvasiyası əhali arasında müəyyən mənada təşviş yaratdı və milli valyutaya olan etibarını itirən şəxslər olan-olmazlarını da xarici valyutaya çevirməyə qərar verdilər ki, bu da valyuta bazarında xarici valyutaya tələbin daha da artmasına səbəb oldu. Valyutadəyişmə məntəqələrinin qarşısında yenidən növbələr yaranmağa başladı və bu vəziyyətdən sui-istifadə edən işbazlar qara bazarda xarici valyutanı daha baha qiymətə satmağa cəhd etdilər. Vəziyyətdən çıxış yolu kimi Mərkəzi Bank bir çox valyutadəyişmə məntəqələrinin fəaliyyətinə xitam verdi və nağd valyuta satışına məhdudiyyətlər qoyuldu. Bununla yanaşı, ölkədən valyuta axınının qarşını almaq məqsədilə ölkədən valyuta çıxarılmasına da məhdudiyyətlər tətbiq edildi. Belə ki, 19.01.2016-ci il tarixində "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Milli Məclisin müvafiq qərarına əsasən rezident və qeyri-rezident fiziki və hüquqi şəxsin birbaşa investisiya əməliyyatı üzrə – əməliyyatın məbləğinin 20 (iyirmi) faizi miqdarında və fiziki şəxsin özünün və ya yaxın qohumunun adına xarici ölkədə açılmış hesablara 50 (əlli) min ABŞ dolları ekvivalentindən yuxarı məbləğdə vəsaitin köçürülməsi üzrə – təqvim ili ərzində 50 (əlli) min ABŞ dolları ekvivalentindən yuxarı məbləğin 20 (iyirmi) faizi miqdarında icbari yığım tətbiq etdirilməsi qərarı verilmişdir [6]. Xarici valyutanın bahalaşması əhalinin manatda olan əmanətlərini də kütləvi sürətdə xarici valyuta əmanətlərinə çevirməyə sövq etdi ki, bu da bankların sərəncamında olan və iqtisadi dövriyyədə istifadə olunan manat kütləsinin həcminə mənfi təsir göstərmişdir.

Xarici valyutanın bahalaşması iqtisadiyyatın dollarlaşmasına və eyni zamanda iqtisadi dövriyyədə olan manat kütləsinin əhəmiyyətli dərəcədə azalmasına səbəb oldu ki, bu da məcmu tələbin həcminin kiçilməsi ilə nəticələnmişdir. Milli valyutanın devalvasiyası əmlak və avtomobil bazarlarına da güclü zərbə vurmuşdur. Əmlak bazarında yaranmış kritik vəziyyət tikinti sektoruna mənfi təsir göstərməklə, eyni zamanda əmək bazarına da mənfi təsir göstərmişdir. Tikinti

sektorunda yaranan problemlər tikinti materialları bazarında çalışanların da gəlirlərinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərmişdir.

Manatın devalvasiyası neqativ nəticələrlə yanaşı, bəzi müsbət effektlərin də yaranmasına stimul vermişdir. Belə ki, devalvasiyalardan əvvəlki dövrlərdə ölkədə enerji daşıyıcılarının qiyməti qonşu ölkələrlə müqayisədə yüksək idi. Yəni 21.02.2015-ci il tarixinədək Aİ-92 markalı yanacağın qiyməti 0,89 ABŞ dolları idisə, 21.12.15-ci il tarixindən bu yanacaq növünün qiyməti 0,46 ABŞ dolları səviyyəsinə enmişdir. Bundan başqa məhsul və xidmətlərin istehsalında istifadə olunan elektrik enerjisinin və təbii qazın qiyməti də xarici valyuta ekvivalentində 49,4% aşağı enmişdir. Digər tərəfdən 2014-cü ilin əvvəlində ölkədə muzdla işləyənlərin orta aylıq əmək haqqı 556 ABŞ dolları (444,5 manat) təşkil edirdisə, 2015-ci ilin sonunda ölkədə orta aylıq əmək haqqı 298 ABŞ dolları (462 manat) təşkil etmişdir [1]. Manat ifadəsində orta aylıq əmək haqqı 2014-cü illə müqayisədə 2015-ci ildə 3,9% artsada, dollar ekvivalentində bu göstəricinin həcmi 47,4% azalmışdır. Xarici valyutada işçi qüvvəsinə çəkilən xərclərin və enerji daşıyıcılarının qiymətinin əhəmiyyətli dərəcədə azalması yerli xammaldan istifadə etməklə istehsal edilən məhsulun maya dəyərinin xarici valyuta ifadəsində aşağı salınması imkanları yaratmışdır. Belə vəziyyətin yaranması daxili bazarın qorunmasına və yerli istehsalın stimullaşdırılmasına şərait yaratmışdır. Hazırkı dövrdə devalvasiyanın belə müsbət təsiri yetərincə qiymətləndirilməli və səmərəli istifadə olunmalıdır.

**Nəticə.** Dünyada baş verən qlobal iqtisadi-siyasi proseslər fonunda xam neftin qiymətinin kəskin azalması və milli valyutanın devalvasiyadan sonra yaranmış cari durumdan çıxmaq və əhali arasında işsizliyin artmasının qarşısını almaq məqsədilə bir sıra islahatların davam etdirilməsinə ehtiyac var. Belə ki, bəzi sahələrdə mövcud olan gizli inhisarçılıq aradan qaldırılmalıdır. Yerli məhsul istehsalının stimullaşdırılması tədbirləri gücləndirilməlidir. Yerli istehsalın artırılmasına istiqamətlənmiş iqtisadi islahatların miqyasının genişləndirilməsi həm əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə, həm də eyni zamanda idxalın həcmini azaltmaqla ölkədən valyuta axınının qarşısının alınmasına müsbət təsir göstərə bilər. Bu baxımdan əsaslandırılmış və vergi bazasının genişləndirilməsinə istiqamətləndirilmiş fiskal siyasət aparılmalıdır. Bəzi məhsulların idxalında və ixracında olan inhisarçılıqla mübarizə tədbirlərinin gücləndirilməsinə ehtiyac duyulur. Əsas məsələ dövlət büdcəsinin neft gəlirlərindən asılılığının əhəmiyyətli dərəcədə azaldılması məqsədilə ölkə başçısının qeyri-neft sektorunun inkişafını nəzərdə tutan müvafiq sərəncam və fərmanlarının aidiyyətli dövlət orqanları və iş adamları tərəfindən məsuliyyətlə dəstəklənməsi və ədalətli icrasıdır.

**Ramiz Cavadov**

**Manatın devalvasiyasının sosial-iqtisadi nəticələri**

**Xülasə**

2003-2013-cü il müddətində Azərbaycanda bir milyondan artıq daimi iş yeri açılmışdır, muzdla işləyənlərin orta aylıq əmək haqqı 5,5 dəfə artaraq 425,1 manat təşkil etmiş, yoxsulluq səviyyəsi 44,7%-dən 5,3%-dək azalmışdır. Adambaşına düşən ÜDM 7,2 dəfə, büdcə gəlirləri 16 dəfə artmışdır.

Ümumiyyətlə, 2015-ci il ərzində iki devalvasiya nəticəsində manat ABŞ dollarına nisbətdə 98,7%, eyni zamanda avroya nəzərən 91% ucuzlaşmışdır.

Devalvasiya nəticəsində enerji daşıyıcılarının qiyməti və işçi qüvvəsinə çəkilən xərclər dollar ekvivalentinə nisbətən əhəmiyyətli dərəcədə enmişdir. Devalvasiyanın müsbət təsirindən istifadə edərək, məhsulun yerli xammaldan istehsalını stimullaşdırmaq lazımdır və bununla idxalı və ölkədən valyutanın sızmasını minimuma endirilməsinə nail olmaq olar.

**Рамиз Джавадов**

**Социально-экономические последствия девальвации маната**

**Резюме**

В период 2003-2013 гг. в Азербайджане было создано более миллиона постоянных рабочих мест, среднемесячная заработная плата работников увеличилась в 5,5 раза и составила 425,1 манат, уровень бедности сократился с 44,7 до 5,3%. ВВП на душу населения увеличился в 7,2 раза, доходы бюджета увеличились в 16 раз.

В целом, в результате двух девальваций в течение 2015 года манат по отношению к доллару США подешевел на 98,7%, а по отношению к евро на 91%.

В результате девальвации цены на энергоносители и затраты на рабочую силу в долларовом эквиваленте очень существенно снизились. Пользуясь положительными эффектами девальвации, необходимо стимулировать производство продукции из местного сырья, тем самым достичь минимизации импорта и утечки валюты из страны.

**Ramiz Javadov**

**Socio-economic impact of the devaluation of the manat**

**Summary**

In the period of 2003-2013 years Azerbaijan has created more than a million permanent jobs, the average monthly wage of employees increased by 5,5 times and amounted to 425,1 manat, the poverty rate fell from 44,7% to 5,3%, per capita GDP increased 7,2 times, budget revenues increased by 16 times.

Overall, for 2015 as a result of the two devaluations of the manat against the US dollar depreciated by 98,7%, while against the euro decreased by 91%.

As a result of the devaluation of the energy prices and labour costs in dollar terms decreased very significantly. Taking advantage of the positive effects of devaluation, it is necessary to stimulate the production of local raw materials and to achieve this minimization of import leakage and currency from the country.

**Ədəbiyyat**

1. www.stat.gov.az
2. www.maliyye.gov.az
3. www.news.yandex.ru
4. www.cbar.az
5. www.rtv.az
6. www.meclis.gov.az

# VALYUTALARIN ALICILIQ QABİLİYYƏTİ PARİTETLƏRİ

***Elman Qasımzadə***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Qiymət statistikası şöbəsinin müdiri*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: elmang@azstat.org*

***Rəşid Vəliyev***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Qiymət statistikası şöbəsinin müdir müavini*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: rashidv@azstat.org*

**Açar sözlər:** Birləşmiş Millətlər Təşkilatı (BMT), Beynəlxalq Müqayisələr Proqramı (BMP), Alıcılıq Qabiliyyəti Pariteti (AQP), Ümumi Daxili Məhsul (ÜDM), valyuta.
**Ключевые слова:** Организация Объединенных Наций (ООН), Программа Международных Сопоставлений (ПМС), Паритет Покупательской Способности (ППС), Валовый Внутренний Продукт (ВВП), валюта.
**Keywords:** United Nations Organization (UNO), International Comparison Program (ICP), Purchasing Power Parity (PPP), Gross Domestic Product (GDP), currency.

Müasir dövrdə iqtisadiyyatda baş verən iqtisadi proseslər və xarici iqtisadi əlaqələrin qloballaşması nəticəsində dünya, regionlar və ölkələrdə iqtisadiyyatın inkişaf meyillərini, əhalinin həyat səviyyəsini təsvir etmək məqsədilə ardıcıl surətdə yenilənən və müqayisə edilə bilən etibarlı və keyfiyyətli məlumatlara tələbat kəskin şəkildə artmışdır. Beynəlxalq təşkilatlar, dünya dövlətləri, elmi mərkəzlər və ayrı-ayrı tədqiqatçılar özfəaliyyətlərini və funksiyalarını səmərəli şəkildə yerinə yetirmək, düzgün iqtisadi siyasəti həyata keçirmək və dəqiq təhlillər aparmaq məqsədilə makroiqtisadi göstəricilərin müxtəlif beynəlxalq müqayisələrini həyata keçirirlər.

Təxminən 20-ci əsrin ortalarından valyutaların mübadilə məzənnələri alıcılıq qabiliyyətlərini dəqiq əks etdirmədiyindən makroiqtisadi göstəricilərin müqayisəsinin dəqiqliyi qənaətbəxş deyildi[1]. Valyuta məzənnələri müxtəlif siyasi və ya konyunktur dəyişiklikləri səbəbindən valyutaların nisbi alıcılıq qabiliyyətini əks etdirmədən ildən-ilə ciddi şəkildə dəyişə bilər. Bu səbəbdən də keçən əsrin 50-ci illərin ortalarından başlayaraq, milli valyutalarla ifadə olunan göstəricilərin vahid, müqayisə edilə bilən valyutaya çevrilmiş valyutaların alıcılıq qabiliyyəti paritetlərindən (AQP) istifadə olunur. Qiymət indekslərinin dinamika sıraları eyni ölkənin valyutasının alıcılıq qabiliyyətinin zamana görə dəyişməsinə təsvir etməklə yanaşı, AQP ayrı-ayrı ölkələrin valyutalarının alıcılıq qabiliyyətinin məkana görə müxtəlifliyinə də təsvir etməyə imkan verir. Valyutaların alıcılıq qabiliyyəti pariteti (AQP) – müxtəlif ölkələrin pul vahidləri, valyutaları arasında nisbətin eyni əmtəə və xidmətlər arasındakı nisbətin eyni əmtəə və xidmətlər səbəti əsasında hesablanan alıcılıq qabiliyyəti üzrə müəyyən edilir. Yəni B ölkəsinin (bazis ölkəsi) 1 pul vahidinə və ya ölkələr qrupunun 1 şərti (ümumi) valyuta vahidinə alınması mümkün olan əmtəə və xidmətlərin standart dəstinin A ölkəsindən alınması üçün lazım olan pul vahidinin miqdarıdır. AQP-lər vasitəsilə milli valyutalardan müqayisəli valyutaya çevrilmiş göstəricilər "real həcmlər", valyuta məzənnələri ilə çevrilmiş göstəricilər isə "nominal həcmlər" adlanır. AQP əsasında həyata keçirilən həm metodoloji, həm də təşkilati cəhətdən ən təkmil, ölkələrin əhatəsinə görə ən geniş, mütəmadi olaraq keçirilən və hamılıqla qəbul edilmiş müqayisələr Birləşmiş Millətlər Təşkilatının (BMT) Beynəlxalq Müqayisələr Proqramıdır (BMP) [1]. BMP-nin müqayisə obyekti son istehlak üsulu ilə hesablanan Ümumi Daxili Məhsul (ÜDM) və onun əsas komponentləridir.

BMT-nin Beynəlxalq Müqayisələr Proqramı XX əsrin 60-cı illərinin sonlarında BMT-nin İqtisadi və Sosial Şurasının (Komissiyasının) qərarına əsasən Milli Hesablar Sisteminin (MHS) göstəricilərinin valyuta məzənnələri əsasında hesablanması ilə müqayisədə daha düzgün müqayisəli məlumatların əldə edilməsi məqsədilə işlənib hazırlanmışdır [1].

AQP əsasında həyata keçirilən BMP – praktiki olaraq, bütün dünya ölkələrinin statistika xidmətlərini birləşdirən ən böyük layihədir. Bu layihənin həyata keçirilməsi dünya və onun əsas regionlarının iqtisadiyyatı haqqında unikal məlumatların əldə edilməsinə imkan verir. BMP üzrə işlərin uğurla yerinə yetirilməsi milli statistika xidmətləri və beynəlxalq təşkilatların qarşılıqlı sıx əlaqədə fəaliyyət göstərmələrindən asılıdır.

BMP raundlar üzrə həyata keçirilir (təxminən 3 ildə 1 dəfə). BMP-nin ilk 3 raundu (1970, 1973 və 1975-ci illər) MHS göstəricilərinin müqayisəsi metodologiyasının işlənib hazırlanması məqsədilə daha çox tədqiqat və təcrübə xarakteri daşımışdır. Bu səbəbdən ilk raundlarda müqayisələr az sayda, lakin dünyanın bütün regionlarını, müxtəlif inkişaf səviyyəsi və sosial sistemləri olan ölkələri əhatə etmişdir. 4-cü raunddan etibarən (1980-ci il) iştirakçı ölkələrin sayının çox olması ilə əlaqədar olaraq, BMP regional prinsip əsasında həyata keçirilir. Azərbaycan Respublikası daxil olduğu MDB regionunun BMP-də 1993-cü ildən mütəmadi olaraq iştirak edir. 2005-ci ildən başlayaraq, hər 3 ildən bir BMP-nin regional raundu və hər 6 ildən bir isə qlobal (ümumdünya) raundu keçirilir. ÜDM-in müqayisəsinin ilk qlobal (ümumdünya) raundu BMT-nin Statistika Komissiyasının qərarına uyğun olaraq, 2005-ci ilin göstəriciləri əsasında həyata keçirilmişdir [2]. 2011-ci ilin göstəriciləri əsasında ÜDM-in beynəlxalq müqayisələrinin ikinci qlobal raundu BMT-nin Statistika Komissiyasının 39-cu sessiyasında qəbul edilmiş qərara uyğun olaraq, həyata keçirilmiş və dünyanın 179 ölkəsini və ərazisini əhatə etmişdir. Müqayisələrin qlobal raundu dünyanın ayrı-ayrı regionlarında həyata keçirilir, sonradan regional müqayisələrin nəticələri qlobal nəticələrin ümumi sisteminə aqreqasiya edilir (xüsusi üsul və düsturlar vasitəsilə birləşdirilir). Nəticədə, bütün dünya ölkələrində AQP-lər əsasında vahid valyutada hesablanmış həm ölkə üzrə ümumi ÜDM həcminə, həm də adambaşına düşən ÜDM həcminə görə müqayisəsinə imkan yaradır.

Müqayisələrin qlobal raundlarında iştirak edən bütün ölkələr dünyanın 6 əsas regionu üzrə qruplaşdırılmışdır: Asiya və Sakit okean ölkələri, Qərbi Asiya, Afrika, Latın Amerikası, MDB və İƏİT-Avrostat regionu [2]. Müqayisələrin 2011-ci il qlobal raundu çərçivəsində regional əlaqələndiricilər qismində müxtəlif beynəlxalq təşkilatlar çıxış etmişdir. MDB dövlətlərinin statistika orqanları rəhbərləri Şurasının 42-ci iclasında (noyabr 2009) qəbul edilmiş qərara əsasən MDB regionunda BMP-nin əlaqələndiricisi kimi MDB Dövlətlərarası Statistika Komitəsi təyin edilmişdir. MDB regionunda müqayisələrin 2011-ci il qlobal raundunda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Ukrayna və Ermənistan iştirak etmişdir.

AQP əsasında ÜDM-in beynəlxalq müqayisələri qiymət və milli hesablar statistikası sahələrinin göstəriciləri əsasında həyata keçirilir və bu müqayisələrin müvəffəqiyyətlə yerinə yetirilməsi həmin sahələr üzrə dəqiq və keyfiyyətli məlumatlardan, həmçinin vahid metodologiyanın tətbiqindən asılıdır.

MDB regionunda ÜDM və AQP-lərin müqayisəsi metodologiyasının əsas prinsipləri qlobal müqayisələrin aparılması üçün Dünya Bankı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən formalaşdırılan metodologiyanın ümumi prinsipləri ilə uyğunluq təşkil edir. Bu prinsipləri ümumi formada aşağıdakı kimi göstərmək olar:

- 1993-cü ilin Milli Hesablar Sistemi prinsiplərinə əsasən cari milli qiymətlərlə ÜDM-in müqayisəli göstəricilərinin təmin edilməsi;
- Dünya Bankı tərəfindən təklif edilmiş ÜDM xərclərinin standart təsnifatına uyğun olaraq, ilkin əmtəə qrupları üzrə ÜDM və onun əsas komponentlərinin bölüşdürülməsi;
- oxşar təmsilçi-əmtəələrin (xidmətlərin) seçilməsi və onların hər bir ilkin əmtəə qrupu üzrə uyğunlaşdırılması;
- təmsilçi-əmtəələrin milli ortaillik qiymətlərinin müəyyən edilməsi və onların ÜDM-in hesablanmasında qiymətləndirildiyi qiymətlərlə uyğunluğunun təmin edilməsi;
- hər bir ilkin əmtəə qrupu üzrə valyutaların alıcılıq qabiliyyəti paritetlərinin hesablanması və ÜDM-in ayrı-ayrı komponentləri, analitik qruplar, həmçinin ümumilikdə ÜDM üçün alıcılıq qabiliyyəti paritetinin alınması məqsədilə onların aqreqasiya edilməsi;

– Alıcılıq Qabiliyyəti Paritetinin köməyi ilə ÜDM göstəricilərinin müqayisə edilə bilən valyutaya çevrilməsi.

AQP-lərinin hesablanması sxemini aşağıdakı kimi təsvir etmək olar:
– ÜDM göstəricisi ətraflı həmcins əmtəə qruplarına bölünür;
– hər bir əmtəə qrupu üçün müəyyən sayda eyni və ya oxşar təmsilçi-əmtəələr (məhsul və xidmətlər) seçilir;
– təmsilçi-əmtəələrin qiymətləri əsasında valyutaların fərdi və qrup alıcılıq qabiliyyəti paritetləri hesablanır və Milli Hesablar Sisteminin çəkilər strukturundan istifadə etməklə aqreqasiya olunurlar.

Aqreqasiya edilmiş AQP-ləri göstəricilərindən müqayisəli valyutaya (şərti beynəlxalq valyutaya və ya hər hansı ölkənin valyutasına) çevrilməsi üçün istifadə edilir:

**Müqayisəli valyutadakı göstərici = Milli valyutadakı göstərici / AQP**

və ya,

**Real göstərici = Nominal göstərici / AQP**

BMT-nin Beynəlxalq Müqayisələr Proqramı çərçivəsində standart xərclər təsnifatına uyğun olaraq, ÜDM təxminən 150 ilkin əmtəə qrupuna ayrılır. Ümumilikdə xərclərin standart təsnifatına uyğun olaraq, ÜDM aşağıdakı səviyyələrə bölünür:
1) ilkin əmtəə qrupları – oxşar əmtəələrin məcmuları;
2) analitik qruplar – analitik maraq kəsb edən ilkin əmtəə qruplarının məcmuları (misal üçün, ərzaq məhsulları);
3) ÜDM-in əsas komponentləri − ev təsərrüfatlarının fərdi son istehlak xərcləri, dövlət idarəetmə orqanlarının son istehlak xərcləri, əsas kapitalın ümumi yığımı və s.

2011-ci ilin göstəriciləri əsasında MDB regionunda beynəlxalq müqayisələrin keçirilməsi üçün ÜDM-in 7 əsas komponenti 183 ilkin əmtəə qrupuna və 31 analitik qrupa bölüşdürülmüşdür.

Müqayisə üçün seçilmiş təmsilçi-əmtəələr (xidmətlər) aşağıdakı tələblərə cavab verməlidir:
- *müqayisəlilik* – seçilmiş təmsilçi-əmtəənin (xidmətin) digər ölkədə olan analoqu ilə həm fiziki (texniki), həm də iqtisadi səciyyəvi xüsusiyyətlər üzrə maksimal səviyyədə eyniliyini ifadə edir; müqayisəliliyin təmin edilməsinin ən effektiv üsulu təmsilçi-əmtəələrin (xidmətlərin) səciyyəvi xüsusiyyətlərinin işlənib hazırlanmasıdır;
- *reprezentativlik* – seçilmiş təmsilçi-əmtəələrin (xidmətlər) müqayisələr proqramında iştirak edən ölkənin iqtisadiyyatı üçün xarakterik olduğunu ifadə edir. Reprezentativ əmtəələr (xidmətlər) müvafiq ilkin qrup çərçivəsində xərclərin böyük hissəsini əhatə etməli, ölkənin daxili bazarında kifayət qədər təmsil olunmalı və geniş tələbata malik olmalıdır. Reprezentativliyin təmin edilməsi təmsilçi-əmtəə (xidmət) siyahılarına geniş yayılmış model və markaların daxil edilməsini nəzərdə tutur.

Hər bir ilkin qrup üçün ən azı 5-10 adda təmsilçi − əmtəə (xidmət) seçilir ki, bunlarda müqayisələrin keyfiyyətli keçirilməsi üçün ölkələrdə 600-1000 adda təmsilçi istehlak malını və xidmətini, 200-300 adda təmsilçi−investisiya malını (maşın və avadanlıq), 10-20 adda təmsilçi−tikinti obyektlərinin qiymətləndirilməsini təmin etməlidir.

Bir qayda olaraq, indeks şəklində alınmış müqayisələrin nəticələri aşağıda göstərilən bir sıra analitik xarakterli tələblərə cavab verməlidir:
- *xüsusiyyətlilik* – AQP-nin hesablanması üçün tətbiq edilən çəkilər sistemi müqayisələrdə iştirak edən bütün ölkələrin göstərici və qiymətlər strukturlarının xüsusiyyətlərini əhəmiyyətli dərəcədə əks etdirməlidir. Xüsusiyyətlilik iki ölkənin göstəricilərinin müqayisəsi nəticələrinin üçüncü ölkələrin göstəricilərindən asılı olmadığını nəzərdə tutur;
- *invariantlıq* – AQP-nin nəticələri seçilmiş müqayisə bazasından (bazis ölkəsindən, baza çəkilərdən və s.) asılı olmamalıdır;
- *tranzitivlik* – birbaşa qoşa müqayisələrin nəticələri dolayı yolla üçüncü ölkələr vasitəsilə aparılan müqayisələrin nəticələri ilə üst-üstə düşməlidir. Riyazi dildə ifadə etsək, əgər üç

indeksdən hər biri üçün aşağıdakı şərt yerinə yetirilərsə, o zaman AQP indekslərinin dəsti tranzitiv hesab edilir.

**I (A/B) = I (A/C) x I (C/B).**

Əgər AQP-lər tranzitivlik tələblərinə cavab verməzsə, o zaman bu məntiqi uyğunsuzluqla nəticələnə bilər. Misal üçün, AQP ilə hesablanmış A ölkəsinin göstəricisi B ölkəsinin göstəricisindən çoxdur, B ölkəsinin göstəricisi C ölkəsinin göstəricisindən çoxdur, C ölkəsinin göstəricisi A ölkəsinin göstəricisindən çoxdur: A>B; B>C, C>A. Dolayı yol ilə hesablanmış indeks mahiyyətcə A və B ölkələrini əlaqələndirən zəncirvari indeks kimi, C ölkəsi isə əlaqələndirici ölkə qismində çıxış edir;

- *additivlik* – ümumi göstərici və onun tərkib elementləri üçün AQP-lər elə hesablanmalıdır ki, ümumi göstərici üçün hesablanmış nəticələr onun ayrı-ayrı komponentləri üçün hesablanmış nəticələrin cəmindən ibarət olsun.

Ədəbiyyatlarda bu tələb tez-tez daxili uzlaşmanın tələbi kimi qeyd edilir. Əgər additivlik tələbi yerinə yetirilməzsə, o zaman bu daxili uyğunsuzluqla nəticələnə bilər. Misal üçün, müqayisə edilən valyutada ifadə edilən A ölkəsinin göstəricisinin bütün komponentləri B ölkəsinin göstəricisinin komponentlərindən çoxdur, lakin ümumilikdə B ölkəsinin göstəricisi A ölkəsinin göstəricisindən çoxdur.

Yuxarıda sadalanan tələblərin bəziləri bir-biri ilə müəyyən məntiqi ziddiyyət təşkil edir. Misal üçün, tranzitivlik və xüsusiyyətlilik: birinci tələbin təmin edilməsi üçün vahid çəkilər strukturu, ikinci tələbin təmin edilməsi üçün isə hər bir qoşa ölkə üçün ölkələrin öz çəkilər strukturu tətbiq edilməlidir. Bu səbəbdən istənilən çoxtərəfli müqayisələrin aparılması zamanı bu tələblərin yerinə yetirilməsi üzrə kompromis variantlar tapılmalıdır.

Birbaşa ikitərəfli müqayisələr çərçivəsində ilkin qruplar səviyyəsində AQP-lərin hesablanması zamanı təmsilçi–əmtəələrin fərdi indeksləri əsasında orta həndəsi düsturdan istifadə edilir:

$$\overline{i_{grr}}(A/B) = \sqrt[m]{\prod_{j=1}^{m} i_{j(\mathrm{A/B})}}$$

Burada:

$\overline{i_{grr}}(A/B)$ - A ölkəsinin B ölkəsinə nisbətən qrup üzrə orta qiymət indeksi;

m – qrupdakı təmsilçi–əmtəələrin sayı;

$i_{j(\mathrm{A/B})}$ - A ölkəsinin B ölkəsinə nisbətən fərdi qiymət indeksidir.

Aqreqasiya edilmiş səviyyədə AQP-ni yuxarıda qeyd olunan düsturla ilkin qruplar üçün hesablanmış orta qrup AQP-lərindən və milli valyutada ifadə edilmiş əmtəə qruplarının çəkilərindən istifadə edərək Paaşe və Laspeyres düsturlarının aqreqat indekslərinin köməyi ilə hesablamaq olar.

Paaşe düsturu aşağıdakı kimidir:

$$P(A/B) = \frac{\sum Pa * Qa}{\sum Pb * Qa} = \frac{\sum Wa}{\sum Wa/(Pa/Pb)} = \frac{\sum Wa}{\sum Wa/\overline{i_{grr}}(A/B)}$$

Laspeyres düsturu aşağıdakı kimidir:

$$L(A/B) = \frac{\sum Pa * Qb}{\sum Pb * Qb} = \frac{\sum Wb * (Pa/Pb)}{\sum Wb} = \frac{\sum Wb * \overline{i_{grr}}(A/B)}{\sum Wb}$$

burada:

Pa, Qa, Pb, Qb – A və B ölkələrində qiymət və miqdarlardır;

Wa, Wb – A və B ölkələrində milli valyutalarda ifadə edilmiş əmtəə qrupları üzrə dəyərlərdir.

Lakin eyni göstəricilərin Paaşe və Laspeyres düsturu ilə hesablanmış indekslər arasında yaranan fərqlərini nəzərə alaraq, ikitərəfli beynəlxalq müqayisələrdə bu iki indeksin orta həndəsi kəmiyyəti olan Fişer düsturundan istifadə edilir.

Fişer düsturu aşağıdakı kimidir:

$$F = \sqrt{P * L}$$

Çoxtərəfli müqayisələrin aparılması məqsədilə müxtəlif metodlar işlənib hazırlanmışdır. Bu metodlardan ən effektiv hesab edilən və MDB regionunda BMP çərçivəsində tətbiq edilən EKŞ (Eltet, Keveş və Şults) metodudur. Bu metodun əsasını birbaşa ikitərəfli müqayisələrin nəticələrinin aqreqasiya edilməsi təşkil edir.

İlkin qruplar üçün EKŞ düsturu ilə AQP-lərin hesablanması proseduru aşağıdakı əsas üç mərhələdən ibarətdir:

1) Laspeyres və Paaşe düsturları ilə ilkin ikitərəfli paritetlərin hesablanması yerinə yetirilir, daha sonra alınmış nəticələr əsasında Fişer düsturu tətbiq edilməklə hər bir qoşa ölkə üçün orta həndəsi göstəricilər hesablanır; nəticədə Fişer düsturu ilə hesablanmış AQP matrisi yaranır;
2) AQP-lərin ilkin matrisində boşluqların aradan qaldırılması yerinə yetirilir; bu məqsədlə dolayı yolla (üçüncü ölkələr vasitəsilə) alınmış AQP-lərin məcmusundan istifadə etməklə AQP-lərin orta həndəsi göstəriciləri hesablanır;
3) Fişer düsturu ilə hesablanmış AQP-lərin tam matrisi əsasında EKŞ düsturu tətbiq edilməklə AQP-lər hesablanır; EKŞ düsturunun tətbiq edilməsi tranzitivlik tələblərinə cavab verən və Fişer düsturu ilə hesablanmış indekslərdən minimum dərəcədə kənarlaşan indekslərin alınmasına imkan verir.

Aşağıdakı cədvəllərdə 2011-ci il üzrə ən yüksək ÜDM-ə malik olan ölkələr, hər nəfərə düşən ən yüksək və ən aşağı ÜDM-i olan ölkələr, MDB regionunda AQP əsasında ÜDM-in beynəlxalq müqayisələrinin əsas göstəriciləri haqqında məlumatlar verilmişdir.

**Cədvəl 1. 2011-ci il üzrə ən yüksək ÜDM-ə malik olan ölkələrin götəriciləri**

| Ölkələrin sıralanması | Ölkələr | ÜDM, mlrd. ABŞ dolları | |
|---|---|---|---|
| | | AQP üzrə | Valyutaların mübadilə məzənnələri üzrə |
| 1 | ABŞ | 15 533,8 | 15 533,8 |
| 2 | Çin | 13 495,9 | 7 321,9 |
| 3 | Hindistan | 5 757,5 | 1 864,0 |
| 4 | Yaponiya | 4 379,8 | 5 897,0 |
| 5 | Almaniya | 3 352,1 | 3 628,1 |
| 6 | Rusiya | 3 216,9 | 1 901,0 |
| 7 | Braziliya | 2 816,3 | 2 476,6 |
| 8 | Fransa | 2 369,6 | 2 782,2 |
| 9 | Birləşmiş Krallıq | 2 201,4 | 2 461,8 |
| 10 | İndoneziya | 2 058,1 | 846,3 |
| 11 | İtaliya | 2 056,7 | 2 197,0 |
| 12 | Meksika | 1 894,6 | 1 170,1 |
| 13 | İspaniya | 1 483,2 | 1 454,5 |
| 14 | Koreya Respublikası | 1 445,3 | 1 114,5 |
| 15 | Kanada | 1 416,2 | 1 778,3 |
| 16 | Səudiyyə Ərəbistanı | 1 366,7 | 669,5 |
| 17 | Türkiyə | 1 314,9 | 771,7 |
| 18 | İran İslam Respublikası | 1 314,2 | 576,3 |

| Ölkələrin sıralanması | Ölkələr | ÜDM, mlrd. ABŞ dolları | |
|---|---|---|---|
| | | AQP üzrə | Valyutaların mübadilə məzənnələri üzrə |
| 19 | Avstraliya | 956,0 | 1 490,0 |
| 20 | Tayvan | 907,1 | 465,2 |
| 21 | Tailand | 899,0 | 364,7 |
| 22 | Misir | 843,8 | 229,9 |
| 23 | Polşa | 838,0 | 515,5 |
| 24 | Pakistan | 788,1 | 222,2 |
| 25 | Niderland | 720,3 | 832,8 |
| 26 | Cənubi Afrika | 611,1 | 401,8 |
| 27 | Malayziya | 606,1 | 289,0 |
| 28 | Filippin | 543,7 | 224,1 |
| 29 | Kolumbiya | 535,0 | 336,3 |
| 30 | Nigeriya | 511,1 | 247,0 |

**Cədvəl 2. 2011-ci il üzrə hər nəfərə düşən ən yüksək və ən aşağı ÜDM-i olan ölkələrin göstəriciləri**

| Ölkələrin sıralanması | Ölkələr | Hər nəfərə düşən ÜDM, ABŞ dolları | |
|---|---|---|---|
| | | AQP üzrə | Valyutaların mübadilə məzənnələri üzrə |
| 1 | Qatar | 146 521 | 97 091 |
| 2 | Makao | 115 441 | 66 063 |
| 3 | Lüksemburq | 88 670 | 111 689 |
| 4 | Küveyt | 84 058 | 52 379 |
| 5 | Bruney-Darüssəlam | 74 397 | 42 432 |
| 6 | Sinqapur | 72 296 | 51 242 |
| 7 | Norveç | 61 879 | 99 035 |
| 8 | Birləşmiş Ərəb Əmirlikləri | 60 886 | 42 182 |
| 9 | Bermud adası | 54 899 | 85 839 |
| 10 | İsveçrə | 51 582 | 83 854 |
| 11 | Çinin xüsusi inzibati rayonu Honkonq | 50 129 | 35 173 |
| 12 | ABŞ | 49 782 | 49 782 |
| 13 | Kayman adası | 49 686 | 39 699 |
| 14 | Səudiyyə Ərəbistanı | 48 163 | 23 594 |
| 15 | Bəhreyn | 43 360 | 24 200 |
| 16 | Syerra-Leone | 1 369 | 490 |
| 17 | Qvineya-Bissau | 1 365 | 637 |
| 18 | Burkina-Faso | 1 343 | 608 |
| 19 | Ruanda | 1 337 | 579 |
| 20 | Toqo | 1 314 | 599 |
| 21 | Qvineya | 1 287 | 490 |
| 22 | Həbəşistan | 1 214 | 353 |
| 23 | Malavi | 973 | 476 |
| 24 | Mozambik | 951 | 524 |
| 25 | Mərkəzi Afrika Respublikası | 897 | 486 |
| 26 | Niger | 852 | 399 |
| 27 | Burundi | 712 | 240 |
| 28 | Konqo Demokratik Respublikası | 655 | 372 |
| 29 | Komor adaları | 610 | 358 |
| 30 | Liberiya | 537 | 278 |
| **Dünya üzrə orta göstərici** | | **13 460** | **10 438** |

**Cədvəl 3. 2011-ci il üzrə MDB regionunda AQP əsasında ÜDM-in beynəlxalq müqayisələrin əsas göstəriciləri**

| Ölkələr | ÜDM, mlrd. ABŞ dolları | | Hər nəfərə düşən ÜDM, ABŞ dolları | | AQP üzrə 1 ABŞ dollarına nisbətdə milli valyutaların dəyəri | 1 ABŞ dollarına nisbətdə milli valyutaların mübadilə məzənnələri | AQP əsasında hər nəfərə düşən ÜDM üzrə ölkələrin sıralanması |
|---|---|---|---|---|---|---|---|
| | AQP üzrə | Valyutaların mübadilə məzənnələri üzrə | AQP üzrə | Valyutaların mübadilə məzənnələri üzrə | | | |
| Azərbaycan | 144,5 | 66,0 | 15 963 | 7 285 | 0,36 | 0,79 | 74 |
| Belarusiya | 157,3 | 53,0 | 16 603 | 5 596 | 1889,31 | 5605,84 | 70 |
| Ermənistan | 20,2 | 10,1 | 6 696 | 3 363 | 187,1 | 372,5 | 120 |
| Qazaxıstan | 343,9 | 188,0 | 20 772 | 11 358 | 80,17 | 146,62 | 60 |
| Qırğızıstan | 16,1 | 6,2 | 3 062 | 1 178 | 17,76 | 46,14 | 142 |
| Moldova | 14,9 | 7,0 | 4 179 | 1 971 | 5,53 | 11,74 | 131 |
| Rusiya | 3216,9 | 1901,0 | 22 502 | 13 298 | 17,35 | 29,35 | 55 |
| Tacikistan | 17,3 | 6,5 | 2 243 | 846 | 1,74 | 4,61 | 150 |
| Ukrayna | 379,1 | 163,4 | 8 295 | 3 575 | 3,43 | 7,97 | 110 |

1-ci cədvəldə verilmiş göstəricilərin təhlili göstərir ki, ÜDM-in istehsal həcminə görə dünyada ilk on yeri tutan ölkələr sırasına ABŞ, Çin, Hindistan, Yaponiya, Almaniya, Rusiya, Braziliya, Fransa, Birləşmiş Krallıq (Böyük Britaniya) və İndoneziya daxildir. MDB regionunda bu göstəriciyə görə ilk yerdə Rusiya, son yerdə Tacikistan, Azərbaycan isə beşinci yerdə qərarlaşmışdır (cədvəl 3).

2-ci cədvəldə verilmiş hər nəfərə düşən ÜDM göstəricisinə görə dünya ölkələri arasında ilk beşlikdə Qatar, Makao, Lüksemburq, Küveyt və Bruney-Darüssəlam yer alır. İlk iki ölkədə hər nəfərə düşən ÜDM 100 min ABŞ dollarından yüksəkdir. Dünyanın ən kasıb ölkələri siyahısına Afrikanın Malavi, Mozambik, Mərkəzi Afrika Respublikası, Niger, Burundi, Konqo Demokratik Respublikası, Komor adaları və Liberiya kimi ölkələr daxildir. Bu ölkələrdə hər nəfərə düşən ÜDM göstəricisinin ən aşağı həddi 537 ABŞ dolları, ən yuxarı həddi isə 973 ABŞ dolları təşkil edir. Hər nəfərə düşən ÜDM göstəricisinə görə MDB regionunda ilk yerdə Rusiya, son yerdə isə Tacikistandır. Azərbaycan bu göstəriciyə görə MDB dövlətləri arasında dördüncü, dünya ölkələri arasında isə yetmiş dördüncü yerdədir (cədvəl 3).

Hər üç cədvəldə təqdim edilmiş göstəricilərin təhlili bir sıra ölkələrin, valyutaların mübadilə məzənnələri ilə ifadə edilmiş göstəricilərinin AQP ilə ifadə edilmiş göstəricilərindən aşağı və ya əksinə yuxarı olmasını göstərir. Bu həmin ölkələrdəki qiymətlərin səviyyəsi ilə bağlıdır. Belə ki, bu ölkələr arasında qiymətlərin səviyyəsi İsveçrə, Norveç, Bermud adaları və Avstraliyada daha yüksək, Misir, Pakistan və Həbəşistanda isə daha aşağıdır.

**Nəticə.** Beynəlxalq təşkilatlar, dünya dövlətləri və elm mərkəzləri tərəfindən Beynəlxalq Müqayisələr Proqramının mühüm ümumdünya statistika işi kimi qəbul edilməsi, keçən əsrin ortalarından başlayaraq, BMP-nin mütəmadi olaraq keçirilməsi və onun nəticələrinin müxtəlif məqsədlər üçün geniş istifadə edilməsi bu cür proqramların həyata keçirilməsinin vacibliyini təsdiq edir. Beynəlxalq müqayisələr proqramı real ÜDM və onun əsas komponentlərinin göstəricilərinin, ayrı-ayrı ölkələrin qiymət məlumatlarının dəqiq və ardıcıl müqayisəsini yerinə yetirməyə, bir sıra ölkələrin milli hesablar və qiymət statistikası sahələri üzrə göstəricilərinin keyfiyyətini artırmağa, həmçinin statistika sistemləri inkişaf etməmiş və ya inkişaf mərhələsində olan ölkələr üçün bu cür statistik göstəricilərin hesablanmasına imkan yaradır. BMP çərçivəsində dünya ölkələrinin statistika orqanları tərəfindən milli hesablar və qiymət statistikası sahələrində beynəlxalq standartların, təsnifatların tətbiq edilməsi və tələblərin yerinə yetirilməsi həyata keçirilir.

**Elman Qasımzadə, Rəşid Vəliyev**

**Valyutaların alıcılıq qabiliyyəti paritetləri**

**Xülasə**

Məqalə valyutaların alıcılıq qabiliyyəti paritetlərindən istifadə etməklə ÜDM-in beynəlxalq müqayisələrinin aparılmasına həsr olunmuşdur. Məqalədə Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Müqayisələr Proqramı və bu proqram çərçivəsində valyutaların alıcılıq qabiliyyəti paritetlərinin hesablanması haqqında geniş məlumat verilir.

**Эльман Гасымзаде, Рашид Велиев**

**Паритеты покупательной способности валют**

**Резюме**

Статья посвящена проведению Международных сопоставлений ВВП на основе паритета покупательной способности валют. В статье дается информация о Программе Международных Сопоставлений Организации Объединенных Наций и исчислении паритета покупательной способности валют проводимых в рамках данной программы.

**Elman Gasimzade, Rashid Valiyev**

**Purchasing power parities of currencies**

**Summary**

The article is devoted to the organization of International Comparison Program of GDP based on purchasing power parities of currencies. The article provides information about International Comparison Program of United Nations and calculation of purchasing power parities conducted within this program.

**Ədəbiyyat**

1. Сергеев С. Методология и организация Программы международных сопоставлений по данным за 2011 год (глобальное сопоставление ВВП на основе паритета покупательной способностивалют).
2. Международные сопоставления ВВП на основе паритета покупательной способности валют по данным за 2011 год: Статистический сборник, Межгосударственный статистический комитет СНГ, 2014.
3. Beynəlxalq müqayisələrin aparılması üçün təmsilçi-istehlak mallarının müşahidəsi və ortaillik qiymətlərin hesablanmasına dair qaydalar. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi 2012-ci il 11 iyun tarixli 33/4 nömrəli qərarı.
4. Handbook of ICP. UN, N.Y., 1992.
5. R.Səlimov, R.Məmmədov, Ümumi Daxili Məhsulun beynəlxalq müqayisəliliyi, Bakı, “İqtisad elmləri”: nəzəriyyə və praktika jurnalı, 1999, №1-2.

# SƏNAYE İSTEHSAL İNDEKSİNİN HESABLANMASINDA İSTİFADƏ EDİLƏN ÇƏKİLƏRİN YENİLƏNMƏSİ MƏSƏLƏLƏRİ

**_Hacıbala Dadaşov_**
*Azərbaycan Respubikası Dövlət Statistika Komitəsinin*
*Sənaye və tikinti statistikası şöbəsinin müdiri*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: hajibalad@azstat.org*

**Açar sözlər:** aqreqasiya, artım, azalma, baza dövrü, çəki, dinamika sıraları, baza indeksi, istehsal, iqtisadi hadisə, mövsümilik amili, müqayisə, silsiləvi indeks, təhlil.
**Ключевые слова:** агрегация, рост, снижение, базовый период, вес, динамические ряды, базисный индекс, производство, экономическое явление, сезонный фактор, сравнение, цепной индекс, анализ.
**Keywords:** aggregation, growth, reduction, the base period, weight, time series, the main index, production, economic events, seasonal factor, comparison, catenary index, analysis.

Statistik təhlilin mühüm və tez-tez istifadə olunan üsullarından biri-indeks üsuludur. Ümumiləşdirici göstəricilər sistemində indekslər özünəməxsus böyük əhəmiyyətə malikdir. Sosial, iqtisadi hadisələrin zaman və məkanda dəyişilməsinin təhlilində, proqnozların yerinə yetirilməsinin qiymətləndirilməsində, hadisələrin dəyişilməsinə ayrı-ayrı amillərin təsirinin tədqiqində, müxtəlif ölkə və iqtisadi rayonların göstəricilərinin müqayisə edilməsində, iqtisadi hadisələrin qarşılıqlı əlaqələrinin tədqiqində indekslərin rolu böyükdür. İqtisadiyyat sahəsində indekslər fəaliyyət aktivliyi dövrünün müxtəlif mərhələlərini müəyyən etməyə və həm qısamüddətli, həm də uzunmüddətli dəyişikliklərin yoxlamasını həyata keçirməyə yardım göstərir. Dinamikanın öyrənilməsi üsulunu indeks sıralarının köməyi ilə nəzərdən keçirək. Təsəvvür edək ki, uzunmüddətli zaman kəsiyində, məsələn, iki ildə istehsalın dinamikasını təhlil etmək lazımdır. Ötən ilin və cari ilin ayları üzrə məlumatlar mövcuddur. İllik artımı asanlıqla hesablamaq (bu ilin istehsal həcmini ötən ilə bölmək yolu ilə) olar. Lakin il daxilində istehsalın dinamikası mövsümilik amilinin təsiri nəticəsində nadir hallarda bərabər səviyyədə olur. Bu, qiymətlərin kəskin artımı və ya əksinə azalması ilə bağlıdır. Belə halda keyfiyyətli planlaşdırma və proqnoz üçün sadəcə olaraq illik artım kifayət etmir, daha ətraflı informasiya tələb olunur. Bunu ümumi illik indeksi aylar üzrə indekslərə bölmək yolu ilə etmək olar ki, bu da istehsalın aylar üzrə nisbi dəyişməsini əks etdirir. Dinamikanın belə təsviri daha aydın və kifayət qədər ətraflı ola bilər.

Əlavə bir misalla bu fikrimizi aydınlaşdıraq. Tutaq ki, istehsal üzrə 10 illik dinamika mövcuddur. Bir indeksin köməyi ilə bütün 10 ildə istehsalın nə qədər artmasını və ya azalmasını öyrənmək olar. Bunun üçün sonuncu ilin göstəricisini birinci ilin müvafiq göstəricisinə bölmək lazımdır. Lakin birinci misalda olduğu kimi dinamika 10 il ərzində, yəqin ki, bərabər səviyyədə olmayacaq. İlk 9 il ərzində ayrı-ayrı illərdə istehsal aşağı düşə (böhran, rəqabət nəticəsində və s.), sonra investisiya cəlb oluna və son bir ildə məhsul istehsalı 3 dəfə arta bilər. Bu baxımdan da dinamikanın daha ətraflı və keyfiyyətli təhlili üçün indeks sıraları lazımdır. Dinamika sıralarını qurmaq üçün müxtəlif uçot dövrlərinə aid olan indeksləri bir-birinə bağlamaq lazımdır. Ümumi uçot dövrü mövcud olduğu halda, indeksləri bilavasitə müqayisə etmək olar.

Beləliklə, indekslər iki dövrün məlumatının müqayisəsi nəticəsində iqtisadi hadisələrin dəyişilməsini ölçməyə imkan verir. Bununla yanaşı, iqtisadi hadisələrin üç və daha çox dövrdə dəyişilməsini müəyyənləşdirmək də tələb olunur. Hadisələr haqqında məlumat üç və daha çox dövr üzrə verildikdə hansı dövrün məlumatının müqayisə üçün əsas olmasından asılı olaraq, indekslər baza və silsiləvi indekslərə ayrılır.

Baza indeksləri – bu indekslərdə baza göstəricisi kimi (məxrəcdə olan göstərici) əvvəlcədən müəyyən olunmuş bir dövrdür. Baza indekslərinin ardıcıllığı göstəricinin bu dövrə nisbətən (adətən, ayın əvvəli, ilin əvvəli) dinamikasını göstərir. Əgər dövrün bölgüsünü aylar üzrə götürsək, bu fevralın yanvara, martın yanvara, aprelin yanvara və s. olacaq [1].

Silsiləvi indekslər – bu indekslərdə baza göstəriciləri kimi (məxrəcdə) əvvəlki dövr (əvvəlcədən müəyyən olunmur, təhlil olunan dövrdən asılı olaraq dəyişilir) çıxış edir. Aylar üzrə bu: fevralın yanvara, martın fevrala, aprelin marta və s. olacaq. Silsiləvi indekslər fasiləsiz sıranın qurulması üçün çəkilərin yenilənməsini və sıranın yeni və köhnə çəkilərlə bağlanmasını əks etdirir. Beləliklə, silsiləvi indekslər uzunmüddətli sıralar üzrə çəkilərin strukturunun dəyişməsini uçota alır[1].

Sənaye istehsal indeksinin hesablanması zamanı indeksin uçot dövrü bir il təşkil etməlidir. Çəkilər ən azı hər 5 ildən bir yenilənməlidir. Silsiləvi indekslərin hesablanması zamanı çəkilər daha tez-tez yenilənir, yəni hər il. Çəkilər nə qədər tez-tez yenilənərsə, yekun sıra bir o qədər əhatəli olur.

Baza indeksləri ilə silsiləvi indekslər arasında qarşılıqlı əlaqə vardır. Belə ki, fərdi silsiləvi indeksləri bir-birinə vurduqda müvafiq dövrün fərdi baza indeksini almaq mümkündür, baza indekslərini bir-birinə böldükdə isə müvafiq silsiləvi indeksi almaq olar. Baza indeksindən silsiləvi indeksə və silsiləvi indeksdən baza indeksinə keçmək bütün fərdi indekslərə xasdır. Bu zaman hesablanan indekslərin sayı, məlumatı götürülmüş dövrlərin sayından bir əskik olacaqdır. Həmçinin silsiləvi və baza indekslərindən asanlıqla aqreqasiya olunmuş ümumi indeks almaq olar. Bununla yanaşı, aqreqasiya olunmuş indeksi əlavə informasiya olmadan daha qısadövrlü indekslərə bölmək mümkün deyil. Yalnız orta indeks hesablamaq olar. Bu orta kəmiyyətin hesablanmasının analoqudur: ilkin məlumatlardan ümumi həcmi saymaq mümkündür, lakin ümumi həcmdən yalnız orta kəmiyyət saymaq olar, hər birinin ayrılıqda sayılması qeyri-mümkündür. Hər iki indeks sıraları eyni dinamikanı əks etdirir. Məqsədlərdən asılı olaraq bu və ya digər indeks növü seçilir [2].

Silsiləvi bağlamanın üç əsas üsulu mövcuddur: illik, rüblük (və ya aylıq) və çoxillik üsul. İndeksləri düzgün əks etdirmədiyindən sonuncu üsuldan istifadə etmək tövsiyə olunmur. Bu üsullarda çəkilər əvvəlki ilin qiymətlərində əks etdirilir. İllik üsulda kəmiyyət əvvəlki ilin orta kəmiyyəti ilə; rüblük (aylıq) üsulda, rüblük (aylıq) kəmiyyət − əvvəlki ilin dördüncü rübü (sonuncu ayı) ilə müqayisə olunur.

Rüblük (aylıq) üsulun sırf riyazi tərəfini nəzərdən keçirək. Bunun üçün hesablama sxemi olan aşağıdakı cədvəli təsvir edək.

**Cədvəl 1. Baza və silsiləvi indekslərin hesablama alqoritmi**

| **Dövr** | **0** | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** | **12** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Göstərici | $y_0$ | $y_1$ | $y_2$ | $y_3$ | $y_4$ | $y_5$ | $y_6$ | $y_7$ | $y_8$ | $y_9$ | $y_{10}$ | $y_{11}$ | $y_{12}$ |
| Baza indeksi | | $\frac{y_1}{y_0}$ | $\frac{y_2}{y_0}$ | $\frac{y_3}{y_0}$ | $\frac{y_4}{y_0}$ | $\frac{y_5}{y_0}$ | $\frac{y_6}{y_0}$ | $\frac{y_7}{y_0}$ | $\frac{y_8}{y_0}$ | $\frac{y_9}{y_0}$ | $\frac{y_{10}}{y_0}$ | $\frac{y_{11}}{y_0}$ | $\frac{y_{12}}{y_0}$ |
| Silsiləvi indeks | | $\frac{y_1}{y_0}$ | $\frac{y_2}{y_1}$ | $\frac{y_3}{y_2}$ | $\frac{y_4}{y_3}$ | $\frac{y_5}{y_4}$ | $\frac{y_6}{y_5}$ | $\frac{y_7}{y_6}$ | $\frac{y_8}{y_7}$ | $\frac{y_9}{y_8}$ | $\frac{y_{10}}{y_9}$ | $\frac{y_{11}}{y_{10}}$ | $\frac{y_{12}}{y_{11}}$ |

Birinci sətirdə müxtəlif dövrlərdə göstəricinin özü (y-dan sağda kiçik rəqəmlər dövrün nömrəsinə uyğundur), ikinci və üçüncü sətirlərdə müvafiq olaraq, baza və silsiləvi indekslər göstərilmişdir.

Göstərilən cədvəldən baza indeksinin silsiləvi indeksdən nə ilə fərqləndiyi aydın görünür. Göründüyü kimi, birinci dövrdə həm baza, həm də silsiləvi indeks eynidir. İkinci və sonrakı dövrlərdə artıq belə deyil. Yuxarıda göstərildiyi kimi, hər iki indeks arasında funksional qarşılıqlı əlaqə mövcuddur. Yəni bir növə malik olduqda asanlıqla digər növə keçmək olar. Misal üçün, ölkə üzrə sənaye istehsal indeksinin 2011-2013-cü illər üzrə dinamikasını götürək [3]. İstehsalın aylar üzrə indeksləri (onlar, eyni zamanda silsiləvi indekslərdir) aşağıdakı cədvəldə verilmişdir:

**Cədvəl 2. Ölkə üzrə sənaye istehsal indeksinin 2011-2013-cü illər üzrə dinamikası**

| Ay | Baza indeksi (dekabr 2010=100) | Silsiləvi indeks (əvvəlki aya nisbətən) |
|---|---|---|
| **2011** | | |
| Yanvar | 109,8 | 109,8 |
| Fevral | 100,5 | 91,5 |
| Mart | 111,4 | 110,8 |
| Aprel | 113,6 | 102,0 |
| May | 114,4 | 100,7 |
| İyun | 105,4 | 92,1 |
| İyul | 107,2 | 101,7 |
| Avqust | 111,7 | 104,2 |
| Sentyabr | 92,7 | 83,0 |
| Oktyabr | 95,1 | 102,6 |
| Noyabr | 89,3 | 93,9 |
| Dekabr | 94,7 | 109,8 |
| **2012** | | |
| Yanvar | 109,8 | 115,9 |
| Fevral | 101,0 | 92,0 |
| Mart | 109,7 | 108,6 |
| Aprel | 103,1 | 94,0 |
| May | 110,1 | 106,8 |
| İyun | 102,2 | 92,8 |
| İyul | 105,5 | 103,2 |
| Avqust | 105,0 | 99,5 |
| Sentyabr | 89,5 | 85,2 |
| Oktyabr | 87,7 | 98,0 |
| Noyabr | 92,2 | 105,1 |
| Dekabr | 102,6 | 111,3 |
| **2013** | | |
| Yanvar | 110,0 | 107,2 |
| Fevral | 100,2 | 91,1 |
| Mart | 104,9 | 104,7 |
| Aprel | 105,7 | 100,8 |
| May | 112,0 | 106,0 |
| İyun | 105,5 | 94,2 |
| İyul | 106,0 | 100,5 |
| Avqust | 106,8 | 100,8 |
| Sentyabr | 93,7 | 87,7 |
| Oktyabr | 94,8 | 101,2 |
| Noyabr | 94,9 | 100,1 |
| Dekabr | 105,5 | 111,2 |

Cədvəldə sənaye istehsal indeksinin baza və silsiləvi indekslərinin dinamikası göstərilmişdir. Əsas fərq birdir və o, hesablama düsturunda baza dövrü arasındakı fərqdir. Silsiləvi indekslər yalnız əvvəlki aya nisbətən dəyişiklikləri əks etdirir və buna görə də onların ölçüsü böyük deyildir. Baza indekslərinin qeyri-bərabər artımı məhz silsiləvi indekslərdə daha yaxşı görünür.

İndi isə silsiləvi və baza indekslərindən bütövlükdə təhlil olunan dövr üzrə göstəricinin dəyişikliklərini göstərən aqreqasiya olunmuş indeksləri hesablayaq. Əgər əlimizdə yalnız silsiləvi indekslər varsa, onda baza indekslərinə bütün əvvəlki indeksləri sonuncu dövrə aid olan silsiləvi indekslərə vurmaq yolu ilə keçmək olar. Bu halda 2011, 2012 və 2013-cü illərin bütün silsiləvi indeksləri eyni bazaya, 2011-ci ilin dekabrına (dekabr 2010=100) gətirilmişdir. 2012-ci ilin sənaye istehsal indeksinin əvvəlki ilə olan aqreqasiya olunmuş göstəricisini almaq üçün 2012-ci ilin bütün

baza indekslərinin (yanvardan dekabradək) cəmini 2011-ci ilin bütün baza indekslərinin cəminə bölmək kifayətdir.

(1218,4 : 1245,8 = 97,8 %)

Silsiləvi indekslərin istənilən bazaya bağlanması anoloji olaraq aparılır, lakin bilmək lazımdır ki, çəkilərin (bazanın) yenilənməsi ilə silsiləvi bağlama zamanı sıralar struktur dəyişikliklərinə uğrayır.

Bağlanmış zaman indeksləri sırasına əsaslanaraq, aşağıdakı indeksləri hesablamaq olar:
- ayın əvvəlki aya nisbətini;
- ayın əvvəlki ilin müvafiq ayına nisbətini;
- ayın əvvəlki ilin dekabrına nisbətini;
- dövrün əvvəlki ilin müvafiq dövrünə nisbətini;
- rübün əvvəlki rübə nisbətini.

Ayın əvvəlki aya nisbətən istehsal indeksi hesabat ayının baza indeksini əvvəlki ayın baza indeksinə bölməklə hesablanır:

$$I^{t}{}_{T}{}^{/(t-1)}{}_{T} = \frac{i^{tT/b}}{i^{(t-1)T/b}} x100 \qquad (1)$$

burada, $i^{tT/b}$ – əvvəlki ayın baza indeksini;
$i^{(t-1)T/b}$– növbəti ayın baza indeksini;
**i** – iqtisadi fəaliyyət növünü;
**t** – müvafiq ayı;
**t-1** – növbəti ayı göstərir.

Ayın əvvəlki aya nisbətən istehsal indeksi ilə bağlı cədvəl 2-də verilmiş baza indekslərindən istifadə etməklə 2011-2013-cü illər üzrə hesablanmış istehsal indeksləri üzrə məlumatlar cədvəl 3-də əks etdirilmişdir:

**Cədvəl 3. Əvvəlki aya nisbətən istehsal indeksləri**

| **Aylar** | **İllər** | | |
|---|---|---|---|
| | **2011** | **2012** | **2013** |
| Yanvar | 109,8 | 115,9 | 107,2 |
| Fevral | 91,5 | 92,0 | 91,1 |
| Mart | 110,8 | 108,6 | 104,7 |
| Aprel | 102,0 | 94,0 | 100,8 |
| May | 100,7 | 106,8 | 106,0 |
| İyun | 92,1 | 92,8 | 94,2 |
| İyul | 101,7 | 103,2 | 100,5 |
| Avqust | 104,2 | 99,5 | 100,8 |
| Sentyabr | 83,0 | 85,2 | 87,7 |
| Oktyabr | 102,6 | 98,0 | 101,2 |
| Noyabr | 93,9 | 105,1 | 100,1 |
| Dekabr | 106,0 | 111,3 | 111,2 |

Ayın əvvəlki ilin müvafiq ayına nisbətən istehsal indeksi hesabat ilinin müqayisə olunan ayının baza indeksinin əvvəlki ilin eyni ayın baza indeksinə bölmək yolu ilə hesablanır:

$$I^{t}{}_{T}{}^{/t}{}_{T-1} = \frac{i^{tT/b}}{i^{tT-1/b}} x100 \qquad (2)$$

burada, $i^{tT/b}$ – əvvəlki ilin ilk ayının baza indeksini;
$i^{(t-1)T/b}$ – növbəti ilin ilk ayının baza indeksini;
**i** – iqtisadi fəaliyyət növünü;
**t** – əvvəlki ili;
**t-1** – növbəti ili göstərir.

Əvvəlki ilin müvafiq ayına nisbətən istehsal indeksi ilə bağlı cədvəl 2-də verilmiş baza indekslərindən istifadə etməklə 2011-2013-cü illər üzrə hesablanmış istehsal indeksləri üzrə məlumatlar cədvəl 4-də əks etdirilmişdir:

**Cədvəl 4. Əvvəlki ilin müvafiq ayına nisbətən istehsal indeksləri**

| Aylar | İllər | |
|---|---|---|
| | 2012 / 2011 | 2013 / 2012 |
| Yanvar | 100,0 | 100,2 |
| Fevral | 100,5 | 99,2 |
| Mart | 98,5 | 95,6 |
| Aprel | 90,8 | 102,5 |
| May | 96,2 | 101,7 |
| İyun | 97,0 | 103,2 |
| İyul | 98,4 | 100,5 |
| Avqust | 94,0 | 101,7 |
| Sentyabr | 96,5 | 104,7 |
| Oktyabr | 92,2 | 108,1 |
| Noyabr | 103,2 | 102,9 |
| Dekabr | 108,3 | 102,8 |

Əvvəlki ilin dekabrına nisbətən aylıq istehsal indeksi müvafiq ayların baza indekslərini əvvəlki ilin dekabr ayının baza indeksinə bölmək yolu ilə hesablanır:

$$I^{t}{}_{T}{}^{/d}{}_{T\text{-}1} = \frac{i^{tT/b}}{i^{dT-1/b}} x100 \qquad (3)$$

burada, $i^{tT/b}$ – baza ilinin dekabr ayı üzrə baza indeksini;

$i^{(t-1)T/b}$ – növbəti illərin ayları üzrə baza indekslərini;

**i** – iqtisadi fəaliyyət növünü;

**t** – baza ilini;

**t-1** – növbəti illəri göstərir.

Əvvəlki ilin dekabrına nisbətən aylıq istehsal indeksi ilə bağlı cədvəl 2-də verilmiş baza indekslərindən istifadə etməklə 2011-2013-cü illər üzrə hesablanmış istehsal indeksləri üzrə məlumatlar cədvəl 5-də əks etdirilmişdir:

**Cədvəl 5. Əvvəlki ilin dekabrına nisbətən aylıq istehsal indeksləri**

| Aylar | İllər | | |
|---|---|---|---|
| | 2011 | 2012 | 2013 |
| Yanvar | 109,8 | 115,9 | 107,2 |
| Fevral | 100,5 | 106,6 | 97,7 |
| Mart | 111,4 | 115,8 | 102,2 |
| Aprel | 113,6 | 108,8 | 103,0 |
| May | 114,4 | 116,2 | 109,2 |
| İyun | 105,4 | 107,9 | 102,8 |
| İyul | 107,2 | 111,4 | 103,3 |
| Avqust | 111,7 | 110,8 | 104,1 |
| Sentyabr | 92,7 | 94,5 | 91,3 |
| Oktyabr | 95,1 | 92,6 | 92,4 |
| Noyabr | 89,3 | 97,3 | 92,5 |
| Dekabr | 94,7 | 108,3 | 102,8 |

Əvvəlki ilin müvafiq dövrünə nisbətən istehsal indeksi hesabat ilinin müqayisə olunan dövrünün baza indekslərinin cəminin əvvəlki ilin baza indekslərinin cəminə bölmək yolu ilə hesablanır:

$$I^{nep_T / nep_{T-1}} = \frac{i^{tT/b} + i^{(t+1)T/b} + \dots + i^{(t+n)T/b}}{i^{tT-1/b} + i^{(t+1)T-1/b} + \dots + i^{(t+n)T-1/b}} x100 \qquad (4)$$

burada, $i^{tT/b}$ – əvvəlki ilin müvafiq dövrünün ayları üzrə baza indekslərini;

$i^{(t-1)T/b}$ – növbəti ilin müvafiq dövrünün ayları üzrə baza indekslərini;

**i** – iqtisadi fəaliyyət növünü;

**t** – əvvəlki ilin müvafiq dövrünün aylarını;

**t-1** – növbəti ilin müvafiq dövrünün aylarını göstərir.

Əvvəlki ilin müvafiq dövrünə nisbətən istehsal indeksi ilə bağlı cədvəl 2-də verilmiş baza indekslərindən istifadə etməklə 2011-2013-cü illər üzrə hesablanmış istehsal indeksləri üzrə məlumatlar cədvəl 6-da əks etdirilmişdir:

**Cədvəl 6. Əvvəlki ilin müvafiq dövrünə nisbətən istehsal indeksləri**

| **Aylar** | **İllər** | |
|---|---|---|
| | **2012 / 2011** | **2013 / 2012** |
| Yanvar | 100,0 | 100,2 |
| Fevral | 100,2 | 99,7 |
| Mart | 99,6 | 98,3 |
| Aprel | 97,3 | 111,8 |
| May | 97,1 | 100,0 |
| İyun | 97,1 | 100,4 |
| İyul | 97,3 | 100,4 |
| Avqust | 96,8 | 100,6 |
| Sentyabr | 96,8 | 101,0 |
| Oktyabr | 96,4 | 101,6 |
| Noyabr | 96,9 | 101,7 |
| Dekabr | 97,8 | 101,8 |

Əvvəlki rübə nisbətən rüblük istehsal indeksi müvafiq rübün 3 ayının baza indekslərinin cəminin əvvəlki rübün baza indekslərinin cəminə bölmək yolu ilə hesablanır:

$$I^{II\kappa\textit{в}_T / I\kappa\textit{в}_T} = \frac{i^{(t+4)T/b} + i^{(t+5)T/b} + i^{(t+6)T/b}}{i^{tT-1/b} + i^{(t+1)T/b} + i^{(t+3)T/b}} x100 \qquad (5)$$

burada, $i^{tT/b}$ – müvafiq rübün ayları üzrə baza indekslərini;

$i^{(t-1)T/b}$ – növbəti rübün ayları üzrə baza indekslərini;

**i** – iqtisadi fəaliyyət növünü;

**t** –müvafiq rübün aylarını;

**t-1** – növbəti rübün aylarını göstərir.

Əvvəlki rübə nisbətən rüblük istehsal indeksi ilə bağlı cədvəl 2-də verilmiş baza indekslərindən istifadə etməklə 2011-2013-cü illər üzrə hesablanmış istehsal indeksləri üzrə məlumatlar cədvəl 7-də əks etdirilmişdir:

**Cədvəl 7. Əvvəlki rübə nisbətən rüblük istehsal indeksləri**

| Aylar | İllər | | |
|---|---|---|---|
| | **2011** | **2012** | **2013** |
| Yanvar | | | |
| Fevral | | | |
| Mart | | 114,8 | 111,6 |
| Aprel | | | |
| May | | | |
| İyun | 103,6 | 98,4 | 102,7 |
| İyul | | | |
| Avqust | | | |
| Sentyabr | 93,4 | 95,1 | 94,9 |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | 89,5 | 94,1 | 96,3 |

Bir baza dövrünə hesablanan indekslər (aylıq və artan yekunla) özündə sənaye istehsalının dinamikasının hərtərəfli təhlilini aparmağa imkan verən vahid sistemi əks etdirməlidir. Bağlanmış zaman indeksləri sırasına əsaslanaraq, sənaye istehsal indekslərinin hesablanması aşağıdakı cədvəldə verilmişdir:

**Nəticə.** Beləliklə, sənaye istehsalı indekslərinin timsalında aparılmış hesablamaların nəticələri göstərir ki, baza və silsiləvi indekslər arasında olan qarşılıqlı əlaqədən istifadə etməklə asanlıqla müxtəlif dövrləri müqayisə etmək mümkündür. Sənaye istehsalı üzrə hesablanmış baza indeksləri vasitəsilə ölkə sənayesində müxtəlif dövrlərdə baş verən dəyişiklikləri ölçməklə bu sahədə keyfiyyətli proqnozların verilməsi mümkündür. Qeyd etmək lazımdır ki, beynəlxalq miqyasda müxtəlif ölkələr tərəfindən hesablanan sənaye istehsal indeksləri arasında müqayisəliliyə nail olunması üçün indekslərin bağlanması zamanı 2013-cü ilə qədər baza dövrü kimi 2005-ci il, 2014-cü ildən başlayaraq isə 2010-cu il götürülür.


**Hacıbala Dadaşov**

**Sənaye istehsal indeksinin hesablanmasında istifadə edilən çəkilərin yenilənməsi məsələləri**

**Xülasə**

Məqalədə indekslərin yeni sırasının köhnə sıraya bağlanmasında istifadə olunan müxtəlif üsulların şərhi verilmiş, baza və silsiləvi hesablama üsullarına dair nümunələr göstərilmiş, 2011-2013-cü illər üzrə sənaye istehsal indekslərinə dair faktiki məlumatlar əsasında yeni sıranın köhnə sıraya bağlanması üçün hesablamalar aparılaraq müvafiq indekslər alınmışdır. Alınmış bütün yekun nəticələr cədvəllərdə əks etdirilmişdir.



**Гаджибала Дадашов**

**Вопросы обновления весов для рассчета индекса промышленного производства**

**Резюме**

В статье рассматриваются разные методы сцепления новых динамических рядов со старыми и приводятся примеры увязывания индексов, рассчитанных базисным и цепными методами, которые были получены на основе фактических данных индексов промышленного производства за 2011-2013 гг. Все результаты полученные приведены в таблицах.

**Hajibala Dadashov**

**Issues of updating the weights applied for calculation of industrial production indices**

**Summary**

Article includes comments on several methods applied for linking new dynamics of the indices with the old one and reflects examples of basic and chain calculation methods; the corresponding indices are derived by the calculations for linking the new dynamics with the old one on the base of actual information on industrial production indices for 2011-2013. All obtained final results are reflected in the tables.

## Ədəbiyyat

1. «Международные рекомендации по индексу промышленного производства» ООН, 2010 год
2. "Statistikanın ümumi nəzəriyyəsi" – S.M.Hacıyev. Bakı-2005
3. www.stat.gov.az

# ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ ПОДХОДЫ К УПРАВЛЕНЧЕСКОМУ АНАЛИЗУ ЭФФЕКТИВНОСТИ ЗАТРАТ НА ПЕРСОНАЛ

***Севиндж Аббасова***
*Кандидат экономических наук, доцент кафедры*
*«Бухгалтерский учёт и аудит»*
*Азербайджанского Государственного Экономического Университета*
*AZ 1001, г.Баку, ул.Истиглалият 6*
*E-mail: sevinj.abbasova@yandex.ru*

**Açar sözlər:** işçi personalına çəkilən xərclər, idarəetmə təhlilinin növlərinin təsnifatı, personala çəkilən xərclərin göstəricilər sistemi, əməyin ödənilməsinə çəkilən xərclərin SWOT-təhlili.
**Ключевые слова***:* затраты на персонал, классификация видов управленческого анализа, система показателей затрат на персонал, SWOT-анализ затрат на оплату труда.
**Keywords:** personnel costs, classification of types of management analysis, scorecards for personnel costs, SWOT-analysis of labour costs.

*Цель исследования:* выработка конкретных методических рекомендаций, направленных на усовершенствование применяемых на практике видов и методов управленческого анализа затрат на персонал.

*Методология исследования:* системный, комплексный подход, детализация, обобщение, использование сравнения, аналитических группировок, индукции и дедукции, абстрактно-логического метода, SWOT-анализа.

*Научная новизна исследования*: представлен авторский теоретико-методический подход к оценке и анализу ключевых показателей эффективности затрат на оплату труда, что позволяет определить управленческий анализ как процесс комплексного анализа внутренних ресурсов и возможностей предприятия, его сильных и слабых сторон, выявления стратегических проблем

*Практическая значимость исследования:* Научно обоснована необходимость организации и проведения на предприятиях различных видов управленческого анализа затрат на персонал с использованием предложенных автором методов и групп показателей управленческого анализа, что направлено на повышение эффективности этих затрат и принимаемых управленческих решений. Результаты исследования будут полезны экономистам кадровых служб для формирования эффективной системы оплаты труда персонала.

## 1. Введение

В управлении предприятием огромное экономическое и социальное значение имеет формирование научно обоснованной и достоверной информации о затратах на персонал организации, от качества и эффективности использования которого во многом зависят конечные результаты деятельности предприятия.

Соотношение результатов и затрат показывает уровень эффективности расходов на содержание персонала. при этом «предприятия стремятся к максимизации своей прибыли, а работники максимизируют индивидуальную полезность. Столкновение этих целей эффективно регулируется рыночным механизмом на основе формирования эффективной заработной платы. Если предприятие устанавливает для своих работников эффективную заработную плату, то труд данных работников так же будет эффективным» [6, с.59].

В Азербайджанской Республике для ведения учёта и анализа затрат на оплату труда в коммерческих организациях предусмотрены Гражданский и Налоговый Кодексы, а также Национальный Стандарт бухгалтерского учёта № 37 «О вознаграждении работников», который определяет правила учёта и раскрытие информации о вознаграждении персонала[8].

Однако отметим, что уровень и состояние изученности вопросов управленческого анализа затрат на персонал в отечественной теории и практике невысокий, научных исследований по данной проблеме мало, что подтверждает актуальность темы и необходимость дальнейших исследований в этой области.

## 2. Использование различных видов управленческого анализа затрат на персонал

Рассмотрим состав расходов на персонал в международной классификации. Перечень статей затрат на рабочую силу утвержден МОТ в Резолюции XI Международной конференции статистиков по труду, в соответствии с которой к основным статьям затрат на рабочую силу относятся: прямая заработная плата и оклады; оплата неотработанного времени; премиальное и денежное вознаграждение; оплата в натуральных измерителях; стоимость жилья для работников; затраты работодателей на социальное обеспечение; затраты работодателей на обучение; затраты на культурно-бытовое обслуживание; прочие затраты; налоги [5].

Как видно из приведённого перечня, затраты на оплату труда (вознаграждения) занимают большую часть затрат на персонал. Изучение специальной литературы по учету и анализу показало, что в общей сумме затрат по экономическим элементам затратам на оплату труда принадлежит второе место после материальных затрат в себестоимости продукции. Так, В.Б.Ивашкевич справедливо считает, что расходы на оплату труда представляют собой существенный элемент себестоимости продукции, достигая в некоторых отраслях одной трети всех издержек производства [4, с.318]. В этой связи, следует подчеркнуть особую роль управленческого экономического анализа затрат на персонал в поиске резервов повышения эффективности затрат на персонал, в том числе и затрат на оплату его труда. Вместе с тем, отметим, что управленческий учёт и управленческий анализ затрат на персонал являются одними из самых важных и сложных участков учётно - аналитической работы на предприятии.

Рассмотрим основные виды управленческого анализа затрат на оплату труда персонала (см. рис.1):




**Рис.1. Классификационные признаки видов управленческого анализа затрат на персонал**

*По методам изучения объекта* различают:

а) Комплексный анализ затрат на оплату труда – осуществляется в несколько последовательных этапов. На первом этапе анализа рассматривается состав и структура затрат на оплату труда персонала, их динамика при изменении объемов производства. На следующем этапе анализа рассчитывается удельный вес затрат на оплату труда в себестоимости продукции. Одновременно анализируется эффективность произведенных затрат на оплату труда путем расчёта ряда показателей. Далее исследуются факторы, оказывающие прямое и косвенное влияние на величину затрат на оплату труда. В заключение анализа рассматривается зависимость затрат на оплату труда от других

экономических показателей, а также определяется и проверяется теснота связи между ними. При проведении анализа могут использоваться различные методы, в том числе и математико-статистические;

б) Сравнительный анализ, как правило, ограничивается сравнением отчетных показателей затрат на персонал с показателями плана текущего года, прошлых лет, конкурентов;

в) Диагностический анализ – устанавливает характер отклонений от нормального хода экономических процессов на основе характерных только для данного отклонения признаков. Знание этих признаков даёт возможность оперативно установить характер нарушений без дополнительных измерений. Например, при снижении эффективности производства одной из причин может быть опережение темпов роста средней заработной платы персонала над темпами роста их производительности труда. Важность проведения анализа заключается в том, что заработная плата должна возрастать в такой степени, чтобы обеспечить максимальный и опережающий рост производительности труда, для сохранения своего стимулирующего влияния на его динамику. В противном случае это приводит к перерасходу фонда заработной платы и, как следствие, к удорожанию себестоимости продукции (работ, услуг) и снижению её рентабельности;

г) Факторный анализ - выявляет величину влияния факторов внешней и внутренней среды на прирост и уровень обобщающих трудовых показателей;

д) Экономико-математический анализ позволяет выбрать наиболее оптимальный вариант решения конкретной экономической задачи (например, предполагает использование модели для перспективной оценки расходов на вознаграждения сотрудников с целью выявления тенденции их изменения), выявить резервы повышения эффективности трудовых затрат.

*По характеру принимаемых решений (или временному признаку*) различают текущий, оперативный и перспективный управленческий анализ.

Основной задачей оперативного (экспресс-и ситуационного анализа) управленческого анализа расходов на оплату труда (вознаграждения) работников является быстрое выявление и количественная оценка факторов, влияющих на отклонения от плановых (бюджетных) расходов. Главное, вовремя обнаружить все изменения, для вмешательства, в случае необходимости, в производственный процесс, определить характер этих изменений (положительный или отрицательный) и в последующем либо содействовать, либо препятствовать их развитию. Особенностью методического подхода, связанного с проведением оперативного управленческого анализа расходов на вознаграждения работников, на наш взгляд, является то, что для решения его задач целесообразно применение статистических методов, используемых в рамках управленческого анализа, так как многие процессы и явления, оказывающие влияние на расходы, находятся в постоянном движении и варьировании.

Самым полным и наиболее распространенным видом анализа расходов на содержание персонала является текущий (ретроспективный) анализ, в процессе которого даётся квалифицированная аналитическая оценка использования персонала предприятия, рабочего времени, определяется влияние факторов на его потери и изыскиваются пути их устранения, исследуется система показателей производительности труда персонала предприятия, анализируется фонд оплаты труда и влияющих на изменение его величины факторов и др. Всё это способствует рациональному управлению персоналом, снижению затрат на него и принятию менеджментом эффективных управленческих решений.

Однако для того, чтобы принять стратегические управленческие решения, необходимо провести перспективный анализ, так как «информация, формируемая в рамках оперативного и текущего анализа, является необходимой для перспективного анализа, но недостаточной» [2, с.28]. Так как процесс управления предполагает принятие как краткосрочных, так и долгосрочных стратегических решений, выделяют краткосрочный и стратегический виды перспективного анализа. Для краткосрочного перспективного анализа, с целью установления тенденции их изменения, по нашему мнению, целесообразно

построение моделей временных рядов, так как с их помощью выявляется взаимообусловленность факторных переменных и результативного показателя и устанавливаются элементы ряда расходов на оплату труда, определяющие их уровень. Результаты стратегического анализа оказывают существенное влияние на состояние организации в обозримой перспективе. В процессе такого анализа учитываться факторы, обусловленные состоянием внешней среды (уровень инфляции, конъюнктура рынков товаров и услуг, процентные ставки и котировки валют, конкуренты и др.).

В ряде случаев, при проведении стратегического анализа, для определения эффективности затрат на оплату труда целесообразным является проведение SWOT-анализа, так как эффективность зачастую может выражаться и степенью достижения поставленной цели. Согласимся с мнением Д.В.Бурякова, считающим целью SWOT-анализа формирование, исследование и прогнозирование общей картины и положения дел на уровне организации в целом в проекции на внешнее окружение [1, с.52].

Составляющими SWOT-анализа затрат на оплату труда являются внешние и внутренние факторы. В свою очередь, внешние факторы включают в себя возможности предприятия и угрозы, а внутренние – сильные и слабые стороны (см. таблицу 1).

Как видно из таблицы 1, для предприятия благоприятен рост сильных сторон и возможностей и требуется устранение слабых сторон и угроз. Без анализа всех слагаемых этих групп невозможно дать объективную оценку влияния внутренних и внешних факторов на эффективность затрат на персонал предприятия для использования этой информации в стратегических решениях менеджмента. При этом, с нашей точки зрения, необходим такой методический подход, который позволяет определить степень влияния каждого фактора на эффективность затрат. В этой связи предлагаем при проведении SWOT-анализа затрат на оплату труда использовать эвристические методы управленческого анализа, в частности, экспертный метод, метод «коллективного блокнота», «мозгового штурма», с участием менеджмента и наиболее компетентных специалистов из всех структурных подразделений. Проанализировав подробно их ответы на поставленные вопросы, в первую очередь, следует выделить возможности и угрозы, а затем составить перечень мероприятий, способных нейтрализовать угрозы и использовать открывающиеся перспективы и возможности.

**Таблица 1. SWOT-анализ затрат на оплату труда**

| **Текущий (отчетный) период** | | **Перспектива (будущее)** | |
|---|---|---|---|
| *Силы* | *Слабости* | *Возможности* | *Угрозы* |
| Внутренние факторы | | Внешние факторы | |
| Темпы роста затрат на оплату труда не превышают темпы роста производительности труда | Уровень фактических затрат на оплату труда превышает плановое значение. Высокие тарифы на энергию, топлива, услуги инфраструктуры | Снижение удельного веса затрат на оплату труда в себестоимости за счет модернизации производства | Рост затрат на оплату труда в свыязи с повышением ее минимального размера, увеличением ставок отчислений в социальные фонды |
| Наличие позитивного имиджа; низкая текучесть кадров; увеличение числа рационализаторских предложений на одного работника; увеличение скорости поступления информации и количества сотрудников, которые могут получать информацию из сети одновременно | Недостаточно разработанная эффективная концепция управления персоналом, противоречия в решении внутипроизводственных проблем. Нехватка квалифицированного персонала. Относительно низкое количество принятых работников по отношению к количеству претендентов | Снижение удельного веса затрат на оплату труда за счет возможности использования передовых технологий и инноваций, а также повышение надежности и удобства инфраструктурных систем | Рост затрат на оплдату труда из-за политической неопределенности и инфляционных процессов в экономике |

Как видим, все три вида анализа объединены в рамках управленческого анализа затрат на персонал, но каждый из них имеет свое назначение, содержание и задачи.

*По организации проведения* различают внутренний и внешний анализ средств на оплату труда. Внутренний анализ проводится руководством предприятия (менеджментом) или его собственниками. Результаты такого анализа являются, в большинстве случаев, коммерческой тайной предприятия.

Внешний анализ трудовых затрат осуществляют аудиторы для проверки правильности их отражения в учёте и отчётности, страховые компании, налоговые органы и т.п.

*По глубине аналитического исследования* выделяют:

а) Экспресс-анализ трудовых затрат, проводимый на основе стандартных алгоритмов расчета основных аналитических показателей деятельности предприятия.

б) Детальный анализ трудовых затрат, который включает факторное исследование показателей затрат на персонал и рентабельности этих затрат.

*По охвату изучаемых объектов* выделяют:

а) Полный анализ затрат на персонал - проводится с целью изучения всех аспектов и направлений трудовых затрат в комплексе.

б) Тематический анализ трудовых затрат, предметом которого могут являться отдельные стороны их возникновения или изменения (анализ движения персонала, стабильности и текучести кадров, анализ использования средств на оплату труда персонала и др.); изучение влияния проводимой предприятием учетной политики, налоговой политики на формирование затрат, доходов персонала и прибыли; оценка эффективности средств на оплату труда и др.

## 3. Показатели, рекомендуемые для использования при проведении управленческого анализа затрат на персонал

Для анализа формирования и использования средств на оплату труда работников и принятия стратегических управленческих решений на предприятии необходимо также определить систему показателей.

Изучение специальной экономической литературы и практического положения дел на предприятиях показало, что наличие большого количества существующих показателей, сложность алгоритма расчета снижает их информативность, не позволяя полностью определять причины возникающих проблем и проводить своевременный анализ влияния факторов на деятельность предприятия, что, в свою очередь, затрудняет принятие конкретных управленческих решений. В этой связи предлагаем при проведении управленческого анализе затрат на персонал выделять следующие группы показателей (см. табл.2).

Расчёт аналитических коэффициентов, характеризующих соотношения отдельных видов расходов на персонал, по предприятию в динамике, позволит оценить соответствие уровня отдельных расходов принципу их целесообразности по отношению к расходам, направляемым на заработную плату, профессиональный и карьерный рост. При этом количество показателей в каждой группе может быть уменьшено или увеличено в зависимости от таких факторов как: поставленные цели и задачи; отраслевая принадлежность и организационно-правовая форма предприятия; применяемые системы учета затрат; стадии жизненного цикла продукции; компетентность специалистов, умеющих применить данную систему показателей и др.

**Таблица 2. Показатели, рекомендуемые для использования при проведении управленческого анализа затрат на персонал**

| *Наименование группы* | *Наименование показателей группы* |
|---|---|
| 1. Показатели общих трудовых затрат предприятия | Удельный вес затрат на персонал в добавленной стоимости; в объеме производства; среднемесячные затраты на одного работника (по категориям); затраты на один производительный час; соотношение затрат на содержание производственного и управленческого персонала. |
| 2. Показатели затрат на оплату труда (вознаграждения) | Удельный вес затрат на оплату труда в общих затратах на персонал; в объеме производства и реализации; удельный вес затрат на оплату труда работников разных категорий и профессий в полной себестоимости, в т. ч: удельный вес затрат на оплату труда в переменных затратах и в постоянных затратах; среднемесячная заработная плата одного работника (по категориям); затраты на оплату труда в расчете на 1 час. |
| 3. Показатели, характери-зующие эффективность затрат на оплату труда | Зарплатоотдача, зарплатоемкость, коэффициент эффективности затрат на оплату труда в результате инноваций |
| 4. Показатели производительности труда | Объем производства и реализации продукции (работ, услуг) на одного работника, добавленная стоимость на 1 у.е. затрат на персонал, на 1 у.е. заработной платы, на одного работника; произведенная за час производительного труда продукция; число производительных часов на производство единицы продукции. |
| 5. Показатели, отражающие взаимосвязь средств на оплату труда и конечные результаты деятельности | Сумма прибыли, приходящаяся на рубль фонда заработной платы [3, с. 13] Сумма прибыли, приходящаяся на рубль фонда заработной платы в переменной части и в постоянной части. |

## 4. Результаты

В результате проведенного исследования установлено, что:

1. Проведение в комплексе рассмотренных в работе видов управленческого анализа расходов на оплату труда (вознаграждения) персонала, необходимо, по нашему мнению, для принятия менеджментом обоснованных управленческих решений, а также прогнозирования направлений повышения эффективности системы расходов на оплату труда (вознаграждения) персонала в перспективе.
2. Считаем, что предложенная нами система показателей затрат на персонал обладает рядом достоинств:
   - с её помощью можно оценить соотношения и динамику изменения коэффициентов, особенно в течение длительного периода времени, а также контролировать достигнутые результаты;
   - полученные данные могут быть сопоставлены с данными Международной организации труда, государственной статистики, конкурентов по отрасли для сравнения результатов – как положительных так и отрицательных;
   - посредством используемой системы показателей затрат на персонал и производительности труда организация получит комплексную информацию для управления затратами и принятия управленческих решений.

**Sevinc Abbasova**
**Personala çəkilən xərclərin səmərəliliyinin təhlilinə nəzəri-metodiki yanaşmalar**
**Xülasə**

Məqalədə personala çəkilən xərclərin idarəetmə təhlilinin növləri və metodları tədqiq olunub, əmək haqqı xərclərinin səmərəliliyinin qiymətləndirilməsi üzrə formalaşan əsas göstəricilərə müəllif yanaşması təqdim olunub. Təcrübədə istifadə olunan idarəetmə təhlilinin metodlarının təkmilləşdirilməsinə dair konkret praktiki tövsiyələr irəli sürülüb. Aparılan tədqiqatlar personala xərclərin müəllif tərəfindən təklif olunan üsul və göstəricilərdən istifadə etməklə idarəetmə təhlilinin müxtəlif növlərinin tətbiqinin vacibliyi və zəruriliyinin əsaslandırılmasını şərtləndirir ki, bu da personala xərclərin və idarəetmə qərarlarının səmərəliliyinin artırılmasına imkan yaradacaq. Tədqiqatın nəticələri personalın əməyinin ödənilməsinin formalaşdırılmasında kadr xidmətinin iqtisadçıları üçün faydalı olacaq.

**Севиндж Аббасова**
**Теоретико-методические подходы к управленческому анализу эффективности затрат на персонал**
**Резюме**

В статье исследованы виды и методы управленческого анализа затрат на персонал, сформирован авторский подход к оценке ключевых показателей эффективности затрат на оплату труда. Выработаны конкретные методические рекомендации, направленные на усовершенствование применяемых на практике методов управленческого анализа. Проведённые исследования способствуют обоснованию необходимости организации и проведения на предприятиях различных видов управленческого анализа затрат на персонал с использованием предложенных автором методов и групп показателей управленческого анализа, что позволит повысить эффективность этих затрат и принимаемых управленческих решений. Результаты исследования будут полезны экономистам кадровых служб для формирования эффективной системы оплаты труда персонала.

**Sevinj Abbasova**
**Theoretical and methodical approaches to the management of economic analysis of personnel expenses**
**Summary**

The article examines the types and methods of efficiency analysis of personnel costs, and discusses the author's approach to the assessment of key performance efficiency indicators of labor costs. The specific guidelines aimed at improving the methods used in practice management analysis are developed. These investigations contribute to the justification of the necessity of organizing and conducting various types of enterprise management analysis of personnel costs with the use of the methods proposed by the author and group of indicators as a result of management analysis that will improve the cost efficiency and decision making. The study results will be useful for economists in personnel services for the development of an efficient way of personnel expenses management.

## Литература

1. Буряков Д.В. Методология управленческого анализа внутренней среды на примере торговых предприятий рынка информационных технологий / Д.В. Буряков // Управленческий учет. – 2007. № 6. 52 с.

2. Вахрушина М.А. Управленческий анализ [Текст] / М.А. Вахрушина. – М.: Омега- Л, 2010. 399 с.
3. Гиляровская Л.Т. О факторном анализе использования фонда заработной платы [Текст] /Л.Т. Гиляровская // Бухгалтерский учет. – 1992. № 11. с. 11–14. ].
4. Ивашкевич В.Б. Бухгалтерский управленческий учет. – М.: Экономистъ, 2004. 618 с.
5. Конвенция Международной организации труда. Принята Международной конференцией труда № 95 от 1949 года «Об охране заработной платы», Т. 2: Международное бюро труда. Женева, 1990
6. Мачин К.А. Экономический анализ модели эффективной заработной платы в условиях профессиональной мобильности, Журнал «Экономический анализ: теория и практика» 3(402) - январь 2015, с.59-66
7. Петров А.Н. Стратегический менеджмент: Учебник для вузов – СПб.: Питер, 2005– 496 с.
8. "İşçilərin mükafatlandırılması üzrə" kommersiya təşkilatları üçün 37 №-li milli mühasibat uçotu standartı. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2009-cu il "13" yanvar tarixli İ-04 nömrəli əmri ilə təsdiq edilmişdir.

# ÇOXÖLÇÜLÜ STATİSTİK TƏHLİL ƏSASINDA YOXSULLUĞUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

***Yaşar Paşa***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Həyat keyfiyyətinin statistikası şöbəsinin müdiri*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: yashar@azstat.org*

**Açar sözlər:** yoxsulluğun statistik göstəriciləri, yoxsulluğa təsir göstərən amillər, çoxamilli yoxsulluq indeksi, ev təsərrüfatı, indeks.
**Ключевые слова:** статистические показатели бедности, факторы, влияющие на бедность, многомерный индекс бедности, домашные хозяйства, индекс.
**Keywords:** statistical indicators of poverty, factors affecting poverty, multidimensional poverty index, households, index.

Ən mühüm sosial problemlərdən biri olan yoxsulluq istənilən iqtisadi sistem üçün xarakterikdir. Onun miqyası ÜDM-in həcmindən, onun bölüşdürülməsi üsullarından, ölkənin istehsal potensialından, əhalinin həyat səviyyəsindən asılı olaraq fərqlənir. Yoxsulluq ölkənin iqtisadi inkişafına mənfi təsir göstərir, əmək bazarında struktur uyğunsuzluğunun bərqərar olmasına səbəb olur, iqtisadi və sosial əlaqələri pozur, əhalinin əmanətlərinin həcmini azaldır, alıcılıq qabiliyyətinin aşağı olması səbəbindən məcmu tələbin azalması ilə nəticələnir.

Yoxsulluğun statistik göstəricilərini sosial-ekoloji və sosial-iqtisadi göstəricilərə bölmək olar. Sosial-ekoloji göstəricilərə yoxsulluğun demoqrafik və humanitar göstəriciləri; ev təsərrüfatlarının demoqrafik xarakteristikası; ev təsərrüfatlarında əməkqabiliyyətlilərin xüsusi çəkisi; əhalinin sağlamlığı; uşaqların inkişafı; səhiyyə, təhsil və sosial rifah üçün cari xərclər; əhalinin iqtisadi fəallığı; əhalinin yaş qrupları üzrə paylanması və s. göstəricilər aiddir. Sosial-iqtisadi göstəricilərə adambaşına Ümumi Daxili Məhsul; inflyasiya səviyyəsi; milli valyutanın alıcılıq qabiliyyəti; gəlirin paylanması, istehlakın səviyyəsi və bərabərsizlik; ev təsərrüfatları xərclərinin strukturu; təbii ehtiyatların ixracı və idxalının ÜDM-də xüsusi çəkisi; xarici valyutanın nominal və real mübadilə məzənnəsi; adambaşına xərc və gəlirlərin paylanması; adambaşına xərclər və gəlirlərin xüsusi çəkisi; sənaye işçiləri üzrə gəlirin paylanması; dövlət büdcəsinin xərcləri və kəsiri; dövlətin əsaslı (kapitalı) və cari xərcləri; sosial sektor üzrə dövlət xərcləri (təhsil, səhiyyə, sosial müdafiə); əmək haqqının xərclərdə xüsusi çəkisi; gəlirlərin əmələgəlmə mənbələrinə görə bölgüsü; xərc maddələrinə görə bölgü (ərzaq, qeyri-ərzaq xərcləri) və s. göstəricilər aiddir

Yoxsulluğun statistik təhlili göstərir ki, ona əhalinin məşğulluğu, təhsil səviyyəsi, ailənin strukturu və təbii (ekoloji) şərait və s. amillər təsir göstərir. Bu amillərin hansı səviyyədə təsir göstərdiyini müəyyən etmək üçün bir neçə amilin yoxsulluq göstəriciləri arasında korrelyasiya əlaqəsi tədqiq edilir. Lakin belə təhlil zamanı regionun, ev təsərrüfatlarının, yaşayış məntəqələrinin xarakteristikaları, eyni zamanda yoxsulluğun əsas determinantı olan ölkənin və regionun sosial-ekoloji və sosial-iqtisadi inkişaf səviyyəsi nəzərə alınmır. Korrelyasiya əmsalları keyfiyyət göstəriciləri ilə ifadə oluna bilmir və adətən, binar göstəricilərdən istifadə edilir. Statistik təhlil zamanı əmsalların qiyməti və işarəsi deyil, statistik əhəmiyyəti nəzərə alınır.

Çoxamilli statistik təhlil üçün yoxsulluqla korrelyasiyası olan dəyişənlərdən istifadə edilir. Bu amillər ölkələr üzrə müxtəlif olur. Onları aşağıdakı 4 qrupa bölmək olar [1]:

- regionun xarakteristikaları;
- icma (yaşayış məntəqəsi) xarakteristikaları;
- ev təsərrüfatlarının xarakteristikaları;
- fərdin xarakteristikaları.

Regionun xarakteristikalarına aşağıdakılar aid edilir:

- təcridolunma və ya uzaqda yerləşmə (infrastruktur az inkişaf etmişdir, bazara çıxış çətindir, xidmətlərdən istifadə aşağı səviyyədədir və s.);

− resurs bazası (təbii resurslar, torpağın keyfiyyəti və s.);
− yağıntının miqdarı, iqlim və ekoloji vəziyyət (quraqlıq, daşqınlar, zəlzələ və s.);
− regional hakimiyyət və idarəetmə orqanları;
− bərabərsizlik.

İcmanın və ya yaşayış məntəqəsinin xarakteristikalarına aşağıdakılar daxildir:

− infrastrukturun inkişaf səviyyəsi;
− torpağın paylanması;
− ictimai rifah və xidmətdən istifadə dərəcəsi;
− sosial infrastruktur /sosial kapital.

Ev təsərrüfatlarının xarakteristikalarına aşağıdakılar daxildir:

− ev təsərrüfatlarının ölçüsü;
− ev təsərrüfatlarının strukturu (bir işçiyə düşən demoqrafik yük, himayə yükü);
− ev təsərrüfatı başçısının cinsi;
− əmlak, torpaq və istehsal vasitələri (alətlər, traktor, nəqliyyat və s.), mənzil;
− məşğulluğun strukturu və gəlirlər;
− sağlamlıq vəziyyəti və təhsil səviyyəsi.

Fərdi xarakteristikalara aşağıdakılar daxildir:

− yaş;
− təhsil səviyyəsi;
− məşğulluq;
− gəlir;
− sağlamlıq vəziyyəti;
− etnik mənsubiyyət.

Təcrübədə yoxsulluğun çoxamilli statistik təhlili üçün reqressiya (yaxud desillər üzrə reqressiya) modelindən istifadə edilir. Çoxamilli reqressiya modelinin sol tərəfində istehlak və ya xərclər, sağ tərəfində isə ekzogen (xarici) dəyişənlər (xərcdən asılı olmayan müxtəlif xarakteristikalar) durur. Bu reqressiya modeli vasitəsi ilə xərclər arası xüsusi korrelyasiya əmsalı qiymətləndirilir (digər amillər sabit saxlanılır). Reqressiya modelinin tərtibi zamanı göstəricilərin müqayisəliliyini təmin etmək üçün (məsələn, müxtəlif regionlar üzrə) xərclər loqarifmlənir (bəzi hallarda xərclər yoxsulluq həddinə bölünür). Modelin ümumi forması aşağıdakı kimidir [1]:

$$\text{Log}\,(Exp_j/pl_j) = \alpha X_j^1 + \beta X_j^{2} + \eta X_j^3 + \delta X_j^4 + \ldots \qquad (1)$$

Burada, $Exp_j$ – j-cu ev təsərrüfatının xərclərini göstərən dəyişənlər;
$pl_j$ – j-cu ev təsərrüfatı üçün yoxsulluq həddi;
$X_j^1$, $X_j^2$ – j-cu ev təsərrüfatı üçün təsiredici (amil) dəyişənlərdir.

Göstəricilərin loqarifmik forması paylanmanın loqnormal olmasını, həmçinin təsiredici dəyişənlər arası multiplikativ təsirin mövcudluğunu göstərir. Son nəticənin hesablanmasının fərdlər üzrə aparılmasını və müşahidə vahidinin ev təsərrüfatının olacağını nəzərə alsaq, onda belə bir nəticəyə gəlmək olar ki, ayrı-ayrı fərdlər üzrə çəkilər tətbiq olunmalıdır.

Çoxamilli reqressiya modelinin istifadəsi zamanı bir sıra problemlər meydana çıxır. Onlardan biri kateqoriyalı dəyişənlər, digəri isə struktur fərqin olmasıdır. Yoxsulluğun ölçülməsi üçün metodologiya mühüm rol oynadığından bir çox ölkələrdə onun ölçülmə metodologiyası dəyişdirilmişdir. Yuxarıda göstərilən, ancaq kəmiyyət göstəriciləri ilə, yəni gəlir və ya istehlak səviyyəsi ilə müəyyən edilən yoxsulluq biramilli hesab edilir. Yoxsul əhali üçün keyfiyyət göstəriciləri: təhsil, səhiyyə, mənzil, məşğulluq, şəxsi təhlükəsizlik, imkan və hüquqların genişləndirilməsi və sair göstəricilər xarakterikdir. Eyni zamanda statistik təhlil göstərir ki, gəlir və xərc göstəricilərinin digər keyfiyyət göstəriciləri (məsələn, uşaq ölümü, ibtidai təhsil, aşağı səviyyədə qidalanma) ilə korrelyasiyası aşağıdır. Ola bilər ki, ailə və yaxud fərd gəlirə (bir amilə) görə yoxsul olsun, lakin keyfiyyət göstəricilərinə (çox amilə) görə yoxsul olmasın. Bu səbədən son zamanlar yoxsulluğun ölçülməsində çoxamilli metodun tətbiqi dünyanın 130-a yaxın ölkəsində (Çində, Meksikada, Braziliyada və s.) geniş yayılmışdır. Bu metodun tətbiqi üçün ev

təsərrüfatlarının tədqiqatında lazım olan məlumatların toplanmasına xüsusi əhəmiyyət verilir. Yoxsulluğun çoxamilli metodla müəyyən edilməsinin əsası insanların məhrumolma (*deprivation*) göstəriciləri hesab olunur.

2007-ci ildə Oksford Universitetinin Yoxsulluq və İnsan Təşəbbüsü (OPHİ) Mərkəzinin direktoru Sabina Alkire və professor Ceyms Foster yoxsulluğun ölçülməsi üçün yeni (çoxamilli) metod hazırlamışdılar [2]. Bu metod məhrumolma səviyyəsinə görə yoxsulların sayının müəyyən edilməsində istifadə edilir, onun vasitəsi ilə yoxsulluğun regional səviyyədə və qruplar üzrə müəyyən edilməsi mümkündür. Eyni zamanda bu metod intuitiv şəkildə mümkündür və hesablama üsulu asandır. İstifadə olunan göstəricilərin çəkiləri eyni və müxtəlif ola bilər. Hesablama adi alqoritm üzrə aparılır:

$$MPİ = H*A \qquad (2)$$

Yəni məhrumolma üzrə xüsusi çəkisi yüksək olanlar (H) yoxsulluq intensivliyi adlanan orta kəmiyyətə (A) vurulmaqla tapılır. Bu göstərici çoxölçülü yoxsulluq indeksi (ÇYİ *multidimensional poverty index-MPİ*) adlanır. Yuxarıda qeyd edildiyi kimi, keyfiyyət göstəriciləri kateqoriyalı və dərəcəli dəyişənlər olduğu üçün bu metod daha geniş tətbiq edilir. Bu üsul vasitəsi ilə 2 amilə görə məhrumolma, 3 amilə görə məhrumolma, 4 və daha çox amilə görə məhrumolmanın orta kəmiyyətini hesablamaq mümkündür. Bunlar yoxsulluğun intensivliyini göstərir.

Belə yanaşma müxtəlif vəziyyətlərdə müxtəlif amillərin (məsələn, təhsil göstəricilərinin), məhdudiyyətlərin (məsələn, beş ildən aşağı təhsili olan məhrumolma kateqoriyasına aiddir), çəkilərin (məsələn, təhsil və sağlamlıq eyni çəkiyə malikdir), yoxsulluqdan qurtarmağın (məsələn, insan amillərin 1/3–dən məhrumdur, yaxud xüsusi çəkisi böyük amildən məhrumdur) nəzərə alınmasına imkan verir. Çoxamilli yoxsulluğun bu metodu ilə coğrafi zonalar, etnik qruplar, regionlar, cinslər və başqa sosial təbəqələr üzrə yoxsulluğu müəyyən etmək olar. Eyni zamanda kəmiyyət göstəricilərinin (məsələn, yoxsulların gəliri, ÜDM-də bərabərsizlik və s.) istifadəsi mümkündür.

Bu metodun alqoritmi 12 addımdan ibarətdir. İlk 6 addım çoxamilli yoxsulluq metodu üçün ümumidir, qalan addımlar isə çoxölçülü yoxsulluq indeksinin (AF metodu üzrə) hesablanmasında istifadə edilir. Addımlar aşağıdakılardır:

- institusional çərçivənin müəyyən edilməsi və məqsədin seçilməsi;
- təhlil vahidinin seçilməsi (məsələn, fərd, ev təsərrüfatı və ya icma);
- amillərin sayının seçilməsi (məsələn, təhsil, səhiyyə, mənzil, məşğulluq, həyat səviyyəsi);
- hər bir amil üçün göstəricilərin seçilməsi (məsələn, təhsilin növü, bədənin kütlə indeksi);
- hər bir göstərici üzrə məhrumolma dərəcəsinin müəyyən edilməsi;
- hər bir göstərici üzrə çəkilərin müəyyən edilməsi;
- hər bir adama görə məhrumolma amili üzrə çəkinin hesablanması;
- yoxsulluğun mövcudluğunun müəyyən edilməsi (yəni göstəricinin çəkisinin hesablanması və yoxsul hesab edilməsi);
- yoxsul hesab edilən adamların faizinin hesablanması (əhalinin ümumi sayına nisbəti, yəni yoxsul əhalini ümumi əhalinin sayına bölməklə);
- yoxsulluq intensivliyinin hesablanması (yoxsullar üçün məhrumolma üzrə çəkinin hesablanması);
- əhalinin sayı üzrə M 0, yaxud ÇYİ =H*A indeksinin hesablanması;
- digər indekslərin hesablanması: hər amil üzrə əmsalların, hər bir göstəricinin təsir dərəcəsinin hesablanması.

Alkire-Foster metodologiyası üzrə hesablamanın nümunəsi aşağıdakı kimidir:

Tutaq ki, 4 adam 4 amil (sağlamlıq, təhsil, mənzil və qidalanma) üzrə qiymətləndirilir. Bu misalda amillərin (amillərdən məhrumolma *D-(deprived)*, əksi isə məhrumolmama – *ND* ‑ (*Non deprived)* hərfləri ilə işarə edilmişdir) hamısı eyni çəkiyə malikdir və amillərdən məhrumolma və məhrumolmama aşağıdakı cədvəldə verilmişdir:

**Cədvəl 1. Dörd amil üzrə məhrumiyyətin müəyyənləşməsi**

| | Sağlamlıq | Təhsil | Mənzil | Qidalanma | Adları |
|---|---|---|---|---|---|
| Y= | ND | ND | ND | ND | Səbinə |
| | D | ND | ND | D | Eldar |
| | D | D | D | D | Əli |
| | ND | D | ND | ND | Vəli |

Məhrumolma dərəcəsinin səviyyəsi müəyyən olunur.

**Cədvəl 2. Məhrumolma dərəcəsinin səviyyəsinin hesablanması**

| | Sağlamlıq | Təhsil | Mənzil | Qidalanma | C |
|---|---|---|---|---|---|
| Y= | ND | ND | ND | ND | 0 |
| | D | ND | ND | D | 2 |
| | D | D | D | D | 4 |
| | ND | D | ND | ND | 1 |

İki və daha artıq amildən məhrum olanlar xüsusi işarələnərək çoxamilli yoxsul olanların xüsusi çəkisi tapılır: (H) = 2/4. Yəni 4 nəfərdən 50% yoxsul hesab edilir.

Yoxsullar arasında məhrumolma səviyyəsinin intensivliyi (A) = (2/4+4/4)/2 = 3/4, yəni amillərə görə bu göstərici 75% təşkil edir. Amillər üzrə məhrumolmanın orta qiyməti (*Average deprived*) aşağıdakı cədvəldəki kimidir.

**Cədvəl 3. Amillər üzrə məhrumolmanın orta qiymətinin hesablanması**

| | **Sağlamlıq** | **Təhsil** | **Mənzil** | **Qidalanma** | **C** | **Məhrumolmanın orta qiyməti** |
|---|---|---|---|---|---|---|
| Y= | ND | ND | ND | ND | 0 | |
| | D | ND | ND | D | 2 | 2/4 |
| | D | D | D | D | 4 | 4/4 |
| | ND | D | ND | ND | 1 | |

Hesablanmış iki göstəricidən, a) çoxamilli yoxsulların xüsusi çəkisi (H) və yoxsullar arası məhrumolma intensivliyindən (A) istifadə edərək çoxamilli yoxsulluq indeksini aşağıdakı kimi hesablamaq olar:

$$ÇYİ = H*A = (2/4) * (3/4) = 6/16 = 0.375$$

10 komponentli 3 amildən asılı çoxölçülü yoxsulluq indeksinin (ÇYİ) hesablanması metodologiyası misalda [3] göstərilmişdir. Çoxölçülü yoxsulluq indeksi fərdi şəkildə təhsil, sağlamlıq və həyat səviyyəsi sahəsində məhrumiyyətin çoxsaylı növlərini əks etdirir. Bu üç indikator (ölçü) 10 komponentdən ibarətdir. Bunların hər biri üzrə ev təsərrüfatının məruz qaldığı məhrumiyyətin növündən asılı olaraq, hər bir şəxsə müəyyən məhrumiyyət indeksi mənimsədilir. İndeksin maksimum qiyməti 100-ə bərabərdir. Təhsil, sağlamlıq və həyat səviyyəsi indikatorlarının bərabər çəkisi 33,3% təşkil edir. Bunlardan təhsil və sağlamlıq iki göstəricidən ibarət olduğuna görə hər birinin çəkisi 5/3-ə (yaxud 16,7%-ə) bərabər götürülür. Həyat səviyyəsi indikatoru isə 6 komponentdən ibarət olduğundan, onların hər biri 5/9 çəkisinə (yaxud 5,6%-ə) malik olur. Meyarlar aşağıdakı kimi müəyyən edilmişdir:

- təhsil: ev təsərrüfatında başa çatmış beşillik təhsili olan üzv mövcud deyil; ailədə minimum bir nəfər məktəb yaşında (səkkizinci sinfə qədər) təhsil almayan uşaq mövcuddur;
- sağlamlıq: ev təsərrüfatının minimum bir üzvü aşağı miqdarda (kifayət etməyən) ərzaq qəbul edir; bir, yaxud daha çox uşaq ölümü baş vermişdir;
- həyat tərzi: elektrik təchizatının mövcud olmaması; təmiz içməli suyun yoxluğu;
- normal kanalizasiyanın olmaması; qidanın hazırlanması üçün «çirkli» yanacaqdan istifadə olunması (peyin, odun, yaxud odun kömürü, daş kömür); döşəmənin torpaqdan

olması; minik, yük avtomobilinin, yaxud analoji motorlu nəqliyyat vasitəsinin yoxluğu və ya aşağıdakı texniki vasitələrindən (velosiped, motosiklet, radioqəbuledici, soyuducu, telefon, yaxud televizor) maksimum birinin mövcud olması.

Çoxölçülü yoxsulluğu aşkarlamaq üçün hər bir ev təsərrüfatı üzrə məhrumiyyət indeksləri cəmlənir, nəticə etibarilə müəyyən *c* nömrəli ev təsərrüfatı üzrə ümumi məhrumiyyət indeksi müəyyənləşir. Yoxsulluğu təyin etmək üçün qəbul edilən 33,3% (hüdudu) çəkili indikatorların üçdəbiri deməkdir. Məhrumiyyət indeksi 20%-lə 33,3% arasında dəyişərsə, ev təsərrüfatı aztəminatlı hesab olunur, yaxud çoxamilli yoxsulluğun sərhədindədir. Məhrumiyyət indeksi 50%, yaxud ondan çoxdursa, ev təsərrüfatı ağır çoxamilli yoxsulluq vəziyyətindədir. Çoxölçülü yoxsulluq indeksi iki hesablamanın nəticəsi vasitəsilə müəyyənləşir: çoxamilli yoxsulluq əmsalı və yoxsulluğun intensivlik əmsalı (yaxud miqyası).

Yoxsulluq əmsalı çoxamilli yoxsulların əhali üzrə xüsusi çəkisini əks etdirir:

$$H = \frac{q}{n}, \qquad (3)$$

burada $q$ - çoxamilli yoxsulların sayı;
$n$ - əhalinin ümumi sayıdır.

Yoxsulluğun intensivliyi ($A$) yoxsulların məruz qaldığı məhrumiyyətlər üzrə indikatorların çəkili komponentlərinin nisbətini ifadə edir. Yalnız yoxsul ev təsərrüfatları üzrə məhrumiyyət indeksləri cəmlənir və yoxsul əhalinin ümumi sayına bölünür:

$$A = \frac{\sum_{1}^{q} c}{q}, \qquad (4)$$

Burada, $c$ - yoxsulların məruz qaldığı məhrumiyyət indeksidir. Birinci ev təsərrüfatı üzrə məhrumiyyət növünün çəkili cəmi aşağıdakı kimi olmalıdır:

$\left(1*\frac{5}{3}\right)+\left(1*\frac{5}{9}\right)=2{,}22$ bu isə məhrumiyyət indeksi 2,22/10=0,222, yaxud 22,2%-ə ekvivalentdir.

Yoxsulluq əmsalı

$$H = \frac{7+5+4}{4+7+5+4} = 0{,}8$$

(80% əhali yoxsul ev təsərrüfatlarında yaşayır).

**Cədvəl 4. Şərti məlumatlardan istifadə etməklə məhrumiyyət indekslərinin hesablaması və yoxsul ev təsərrüfatlarının müəyyən olunması**

| **İndikatorlar** | **Ev təsərrüfatları** | | | | **Çəkilər** |
|---|---|---|---|---|---|
| | **1** | **2** | **3** | **4** | |
| Ev təsərrüfatının ölçüsü, nəfər | 4 | 7 | 5 | 4 | |
| **Təhsil** | | | | | |
| Ev təsərrüfatında heç kimin başa çatmış altıillik təhsili yoxdur | 0 | 1 | 0 | 1 | 5/3=16.7% |
| Ən azı bir nəfər məktəb yaşda uşaq təhsil almır | 0 | 1 | 0 | 0 | 5/3=16.7% |
| **Sağlamlıq** | | | | | |
| Ev təsərrüfatının ən azı bir üzvü aşağı miqdarda (kifayət etməyən) ərzaq qəbul edir | 0 | 0 | 1 | 0 | 5/3=16.7% |
| Bir, yaxud daha çox uşaq ölümü baş vermişdir | 1 | 1 | 0 | 1 | 5/3=16.7% |
| **Həyat şəraiti** | | | | | |
| Elektrik təchizatının mövcudluğu | 0 | 1 | 1 | 1 | 5/9=5.6% |
| Təmiz içməli suyun mövcudluğu | 0 | 0 | 1 | 0 | 5/9=5.6% |

| İndikatorlar | Ev təsərrüfatları | | | | Çəkilər |
|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | |
| Normal kanalizasiyanın mövcudluğu | 0 | 1 | 1 | 0 | 5/9=5,6% |
| Evdə çirkli döşəmənin mövcudluğu | 0 | 0 | 0 | 0 | 5/9=5,6% |
| Qidanın hazırlanması üçün «çirkli» yanacaqdan istifadə (peyin, odun, yaxud odun kömürü) | 1 | 1 | 1 | 1 | 5/9=5,6% |
| Minik, yük avtomobilinin, yaxud motorlu nəqliyyat vasitəsinin yoxluğu və ya aşağıdakı texniki vasitələrdən (velosiped, motosiklet, radioqəbuledici, soyuducu, telefon, yaxud televizor) maksimum birinin mövcud olması | 0 | 1 | 0 | 1 | 5/9=5,6% |
| **Nəticələr** | | | | | |
| Məhrumiyyət göstəricisi | 22,2% | 72,2% | 38,9% | 50% | |
| Ev təsərrüfatının yoxsul sayılması (c>33,3%) | Xeyr | Bəli | Bəli | Bəli | |

Qeyd: 1 - mövcud göstərici üzrə məhrumiyyətin olmasını; 0 - məhrumiyyətin olmadığını göstərir.

İntensivliyin qiyməti aşağıdakı kimi olacaq:

$$A = \frac{(7,22/10*7)+(3,89/10*5)+(5,00/10*4)}{(7+5+4)} = 0,5625$$

Bu isə o deməkdir ki, orta yoxsul çəkili indikatorlar üzrə 56% məhrumiyyətə məruz qalmışdır.

Çoxölçülü yoxsulluq indeksi aşağıdakı kimi hesablanır:

*ÇYİ=H*A=0.45*

Nəticəni əldə etmək üçün ev təsərrüfatı sorğusundan əldə olunmuş mikroməlumatlardan istifadə olunur. Belə ki, indeksi hesablamaq üçün tələb olunan bütün göstəricilər bir tədqiqatdan götürülməlidir.

Təbii və insan kapitalı, istehlak səviyyəsi amilləri üzrə əhalinin rifahı (U) aşağıdakı düsturla hesablanır [4]:

$$U = \sum_{i=1}^{N} u(c_i) + \sum_{i=1}^{N} v(h_i; R) \qquad (5)$$

burada, $c_i$ – ***i*** fərdi üzrə istehlak (aralıq və son);
$h_i$ – ***i*** fərdi üzrə insan kapitalı;
*R* – təbii (ekoloji) kapital (aqreqat halında);
*u, v* – müvafiq əmsallar;
*N* – əhalinin sayıdır.

Düsturdan göründüyü kimi, ***R*** – təbii kapitalı cəmiyyətin rifah mənbəyidir, ona görə də təbii (ekoloji) kapitalın əhali arasında paylanması xüsusi əhəmiyyət kəsb etməsə də, onun mövcudluğu ölkənin potensialını göstərir.

Əhalinin artması ilə ***u(•)*** və ***v(•)*** artır, onların arqumentləri zamana görə kəskin dəyişir və nəticədə *R* – təbii kapitalı tədricən azalır, deməli, əhalinin həyat şəraitinin pisləşməsi, əhalinin təbii və insan kapitalına görə yoxsullaşması mütləqdir. Bunun qarşısının alınması üçün iki mühüm amilə: a) təbii ehtiyatlara qənaət; b) insan kapitalına–sağlamlıq, təhsil, məşğulluq, məskunlaşma və s. xüsusi əhəmiyyət vermək, yəni təbii və insan kapitalının inkişafına yönəldilmiş investisiyanı yüksəltmək lazımdır. Yoxsulluğun təhlili aşağıdakı məsələlərin həlli üçün lazımdır:

- yoxsulluğun aşkar edilməsi;
- müqayisəliliyin aparılması;
- yoxsulluğun determinantlarının aşkar edilməsi;
- tədbirlərin hazırlanmasında iştirak;
- həyata keçirilmiş tədbirlərin səmərəliliyinin qiymətləndirilməsi.

**Nəticə.** Mövcud elmi-təcrübi materialların təhlili və ümumiləşdirilməsi əsasında bu qənaətə gəlmək olar ki, yoxsulluq bir-biri ilə qarşılıqlı əlaqədə olan müxtəlif amillərin birgə təsiri nəticəsində yaranır. Bu amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- iqtisadi (işsizlik, gəlirlərin, o cümlədən əmək haqqının aşağı olması, əmək məhsuldarlığının aşağı olması, məhsulun rəqabətqabiliyyətli olmaması və s.);
- sosial-tibbi (əlillik, ahıllıq, müəyyən sosial qruplara münasibətdə ayrıseçkilik, xəstələnmə səviyyəsinin yüksək olması və s.);
- demoqrafik (ev təsərrüfatlarının bir sıra səbəblər (boşanma, ölüm, əmək miqrasiyası və s.) üzündən başsız qalması, himayədə olanların sayının çox olması);
- sosial-iqtisadi (sosial təminatların aşağı səviyyədə olması, gəlir bərabərsizliyi və s.);
- təhsil-ixtisas (təhsilin səviyyəsinin və keyfiyyətinin aşağı olması, peşə hazırlığının yetərli olmaması);
- siyasi (hərbi münaqişələr, məcburi miqrasiya və s.);
- regional-coğrafi (regionların qeyri-bərabər inkişafı).

Çoxölçülü yoxsulluğun statistik təhlili onun yaranma səbəblərini araşdırmağa, müxtəlif amillərin yoxsulluğa təsir dərəcəsini müəyyən etməyə imkan verir, regionlarda vəziyyəti tədqiq etməyə şərait yaradır. Yoxsulluğa təsir edən amillərin kompleks şəkildə düzgün tədqiq olunması bu problemin həll olunmasında dövlətin yeritdiyi siyasətə böyük dəstək ola bilər. Bu məqsədlə müvafiq müayinənin aparılması və alınmış nəticələrin geniş təhlili önəmli hesab edilir.


**Yaşar Paşa**

**Çoxölçülü statistik təhlil əsasında yoxsulluğun müəyyənləşdirilməsi**

**Xülasə**

Bu məqalədə yoxsulluğun statistik ölçülməsi haqqında ümumi məlumat verilmiş, yoxsulluğun statistik göstəriciləri təsvir olunmuş, yoxsulluğa təsir edən amillərdən bəhs edilmişdir. Burada yoxsulluğun çoxamilli təhlilində reqressiya modelinin əhəmiyyəti qeyd olunmuşdur. Məqalədə təhsil, səhiyyə və həyat səviyyəsi üzrə məhrumolma səviyyəsinə görə yoxsulluğun ölçülməsi üçün tətbiq olunan metodun alqoritmi verilməklə yanaşı, onun praktiki tətbiqi də öz əksini tapmışdır. Çoxölçülü yoxsulluq indeksinin hesablanma metodologiyası konkret misal vasitəsilə təqdim olunmuşdur.



**Яшар Паша**

**Определение бедности на основе многомерного статистического анализа**

**Резюме**

В данной статье дана общая информация о статистическом измерении бедности, описываются показатели бедности, анализируются факторы, влияющие на бедность. Здесь отмечена важность модели регрессии в многомерном анализе бедности. В статье показан также алгоритм метода, применяемый для измерения бедности по уровню депривации в области образования, здоровья и уровня жизни на индивидуальном уровне, и его практическое применение. Методология расчета многомерного индекса бедности представлена на конкретном примере.



**Yashar Pasha**

**The estimation of poverty based on the multivariate statistical analysis**

**Summary**

The article provides general information on poverty indicators described poverty statistics, presented the factors affecting poverty. It was noted the importance of the regression model in the analysis of multidimensional poverty. The article also reflects the algorithm method used for

measuring the poverty level deprivation in education, health and living standards at the individual level, together with practical application. The methodology for calculating multidimensional poverty index presented by way of example.

## Ədəbiyyat


1. Научно-практический семинар, «Измерение и диагностика бедности в странах Европы и центральной Азии, разрабатывающих ДССБ», 16-26 апреля 2002 г. Москва, Российская Федерация.
2. Multidimensional poverty and the Alkire-Foster method for measurements, University of Oxford, Adriana Conconi (OPHI), Workshop on measuring povertymay and vulnerability, Geneva, 4 May 2015.http://www.unece.org/fileadmin/DAM/stats/documents/ece/ces/ge.20/2015/July/1_OPHI_EN_TRANSLATION.pdf
3. Доклад о человеческом развитии 2011. Устойчивое развитие и равенство возможностей: лучшее будущее для всех. / Пер. с англ.; ПРООН. – М., Издательство «Весь Мир», 2011. – 188 с. ISBN 978-5-7777-0172-5.
4. Качество роста. 2000/В.Томас и др. /Пер. с англ. - М: Издательство «Весь Мир», 2001.

# AZƏRBAYCANDA DÖVLƏT PROQRAMLAŞDIRMASININ XÜSUSİYYƏTLƏRİ

**Əsgər Əliyev**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*İqtisadiyyat və idarəetmə kafedrasının dosenti, i.ü.f.d*
*AZ 1130, Bakı şəhəri, Azadlıq pr. 181*
*e-poçt: if@aesma.edu.az*

**Sevda Məmmədova**
*Azərbaycan Əmək Və Sosial Münasibətlər Akademiyası*
*İqtisadiyyat və idarəetmə kafedrasının dosenti, i.ü.f.d.,*
*AZ 1130, Bakı şəhəri, Azadlıq pr. 181*
*e-poçt: if@aesma.edu.az*

**Açar sözlər:** Dövlət Proqramı, proqramlaşdırma, özünütənzimləmə, region, maliyyə resursları, davamlı inkişaf, strategiya.
**Ключевые слава:** Государственная Программа, программирование, саморегулирование, регион, финансовые ресурсы, устойчивое развитие, стратегия.
**Keywords:** state program, programming, self-regulating, region, finance resources, sustainable development, strategy.

Müasir şəraitdə Azərbaycan iqtisadiyyatının dinamik inkişafında və yüksək uğurların qazanılmasında regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair qəbul edilmiş Dövlət Proqramları çox mühüm rola malikdir.

Bu sahədə 2004-cü ildə qəbul edilmiş I Dövlət Proqramının yerinə yetirilməsi nəticəsində regionlarda böyük dönüş yaranmışdır. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının 2009-2013-cü illəri əhatə edən II Dövlət Proqramının başa çatması nəticəsində regionların inkişafında, daha doğrusu, ölkəmizin iqtisadi potensialının gücləndirilməsi istiqamətində böyük uğurlar əldə edilmişdir.

Son dövrlərdə Azərbaycan iqtisadiyyatının belə sürətlə inkişaf etdirilməsinin başlıca səbəbi − ölkədə aparılan müvəffəqiyyətli iqtisadi islahatlar, hökm sürən siyasi sabitlik və ictimai asayişin yüksək səviyyədə təmin edilməsi ilə əlaqədardır.

Bazar münasibətləri şəraitində milli iqtisadi modelin formalaşması və inkişafı dövlətin iqtisadiyyata müdaxiləsi nəticəsində baş verir. İqtisadi sistemlərin transformasiyası şəraitində bu proses daha da fəallaşır, dövlət yerləşdiyi ərazidə bütün vətəndaşların iradə və maraqlarını əks etdirərək, iqtisadi həyatın ahəngdar gedişatının təminatçısı kimi fəaliyyət göstərir. Dövlətin fəaliyyət dairəsi isə onun yerinə yetirdiyi funksiyalarla müəyyən olunur. Bu funksiyaların əlaqələndirilmiş şəkildə icrası öz-özlüyündə müxtəlif dövlət proqramlaşdırılması, planlaşdırılması və proqnozlaşdırılması vasitəsilə həyata keçirilir.

Proqramlaşdırma hər hansı məqsədə nail olmaq üçün tərtib olunan fəaliyyət qaydası və planı olub, əsasən, dövlət tərəfindən həyata keçirilir və onun mənafeyinə xidmət edir. Onun vasitəsilə dövlət iqtisadiyyatın inkişafını fasiləsiz olaraq tənzimləyir. Belə ki, məqsədli proqram, ümumiyyətlə, iqtisadiyyatın bütövlükdə mikroiqtisadi səviyyədə tənzimlənməsini həyata keçirir.

Dövlət proqramlaşdırması cəmiyyətin məhsuldar qüvvələrinin geniş inkişafına səbəb olur. Ölkənin mövcud resurslarından daha səmərəli istifadə olunması məhz müxtəlif səviyyələrdə proqramların tərtibi və qəbulu ilə bilavasitə əlaqədardır.

Hazırda inkişaf etmiş dünya ölkələrində ayrı-ayrılıqda və yaxud da qrup şəklində iqtisadiyyatın dövlət proqramlaşdırması həyata keçirilir. Bazar iqtisadiyyatı şəraitində dövlət bölməsi ilə yanaşı, özəl (xüsusi) bölmənin də proqramlaşdırmaya cəlb olunması məqsədəuyğundur.

Dövlətin iqtisadi siyasəti proqramlaşdırmanın təşkilati və metodoloji əsasını təşkil edir. Proqramlaşdırma metodları iqtisadi fikir tarixində böyük təkamül yolu keçmişdir və təkmilləşərək hazırkı dövrə qədər öz əhəmiyyətini itirməmişdir. Belə ki, bu proses Keynes nəzəriyyəsi tipli makromodellərdən daha detallaşdırılmış modellərə və ən müasir proqramlara qədər inkişaf etmişdir. Bunlar təkrar istehsala birbaşa yox, dolayı yollarla təsir göstərir.

Ümumiyyətlə, iqtisadi inkişafın klassik dövründən başlayaraq, müasir qloballaşma şəraitinə qədər elə bir elmi cərəyan mövcud olmamışdır ki, orada iqtisadiyyata dövlət müdaxiləsindən imtina olunsun. Həmin elmi mövqelər əsaslı şəkildə yalnız dövlətin iqtisadiyyata müdaxiləsinin həddi barədə, məsələn, mülkiyyətə görə, tutduğu paya görə, ÜDM-in əldə olunması səviyyəsinə (iştiraka) görə və s. fərqləndirməni təklif edirlər.

İqtisadi inkişaf proqramlarının tərtibi və təsdiqi iqtisadiyyatın müxtəlif sahələrinə fərqli təsir mexanizminin formalaşmasında müşahidə olunur:

- dövlət mülkiyyətinin və resurslarının tənzimlənməsi və planlaşdırılması;
- dövlət müəssisələrinin maliyyə fəaliyyətinə nəzarət edilməsi;
- dövlət məhsullarına qiymət və tariflərin qoyulması;
- dövlət investisiyalarının alınması və istifadəsinə nəzarət;
- dolayı təsir mexanizminin formalaşmasının sərbəstliyi, yəni müxtəlif subyektlərə və dövlət proqramlarına uyğun hərəkət olunması və yaxud da daha münasib fəaliyyət mexanizminin seçilməsi.

Proqramların tərtibi daimi fəaliyyət göstərən mexanizmdir və Ümumi Milli Məhsul (ÜMM) milli iqtisadiyyatın inkişafına yüksək təkan verir.

Hər bir ölkənin müvazinətli inkişafı, mövcud ədalət - mənəvi və dini prinsiplərin iqtisadi artımla əlaqələndirilməsindən asılıdır. Çünki bazar mexanizmi yalnız gəlir əldə etmək naminə iqtisadi münasibətlərə girmir, o, eyni zamanda iqtisadi subyektlərin fəaliyyətinə təminat verir. Məlumdur ki, hər bir cəmiyyətdə onlardan fərqli mövcud olan təqaüdçülər, əlillər, tələbələr, uşaqlar, işsizlər və s. də mövcuddur.

Fikrimizcə, hər hansı bir problemlə bağlı strateji istiqamətlər müəyyən olunarkən bir qayda olaraq, kəmiyyət göstəricilərindən istifadə edilməsi məqsədəuyğun hesab edilə bilməz. Burada hər şeydən əvvəl modernləşdirmənin funksional istiqamətləri və başlıca vasitələri, dövlət tənzimləmə mexanizmləri və ümumi daxili mexanizmlər arasındakı əlaqələr nəzərdə tutulur. Bunların hər birindən ayrı-ayrılıqda deyil, hamısının kompleks şəkildə və qarşılıqlı əlaqə şəraitində istifadə olunması daha məqsədəuyğundur.

Ümumiyyətlə, mövcud dövr və konkret şəraitdə ölkə iqtisadiyyatının inkişafının bütün istiqamətlərində iqtisadi proqramlaşdırmanın həyata keçirilməsi dövlətin iqtisadi siyasətinin müəyyənləşdirilməsində çox mühüm rol oynayır. Belə ki, iqtisadi siyasət ayrı-ayrı dövrlərdə dövlətin sərəncamında olan bütün resursların iqtisadiyyatın idarə edilməsi üçün istifadə etdiyi tədbirlər sistemidir.

Son dövrlərdə dünyada baş vermiş maliyyə böhranları milli iqtisadiyyatlarda ciddi tərəddüdlərin baş verməsinə səbəb olmuşdur. İstehsal səviyyəsinin aşağı düşməsi dünyada enerji daşıyıcılarına, xammal və materiallara olan tələbin sürətlə azalmasına gətirib çıxarmışdır. Demək olar ki, dünyanın əksər dövlətləri yalnız Çin, Hindistan və Braziliya istisna olmaqla dünya maliyyə böhranının fəsadları ilə üzləşmişdir. Neftin qiymətindəki aşağı düşmələr və bəzi xarici iqtisadi mülahizələr Azərbaycan iqtisadiyyatına az da olsa, öz təsirini göstərmişdir. Respublikada aparılan məqsədyönlü iqtisadi siyasət ölkə iqtisadiyyatının artım tempinin aşağı düşməsinin qarşısını müəyyən dərəcədə almışdır. Hazırkı şəraitdə iqtisadiyyatın davamlı və dinamik inkişafı dövlətin qəbul etdiyi və həyata keçirdiyi iqtisadi inkişaf proqramlarından, pul-kredit və maliyyə siyasətindən birbaşa asılıdır.

Son dövrlərdə onların həlli üçün çox səmərəli dövlət proqramları tərtib və təsdiq edilmişdir. Sosial-iqtisadi sahələrin inkişafı və əhalinin həyat səviyyəsinin yüksədilməsi ilə əlaqədar ölkə prezidenti tərəfindən bir sıra qanunlar və Dövlət Proqamları təsdiq edilmiş və bu hüquqi sənədlər əsasında iqtisadiyyatın bütün sahələrində inkişaf baş vermiş, əhalinin həyat tərzi yaxşılaşmışdır. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair I və II Dövlət Proqramları və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf" proqramları bu qəbildəndir.

Regionların inkişafına dair 2004-cü ildə qəbul edilmiş I Proqram böyük dönüş yarada bilmişdir. Ondan sonra 2009-2013-cü illəri əhatə edən II Proqram qəbul edildi və müvəffəqiyyətlə başa çatdırıldı. Demək olar ki, regionların inkişafında, ümumiyyətlə, Azərbaycanın iqtisadi potensialının gücləndirilməsində bu proqramların çox böyük rolu və əhəmiyyəti olmuşdur. Belə ki, hər iki proqramın icrası nəticəsində Azərbaycan dünyada ən sürətli templərlə inkişaf etmişdir. Sənaye istehsalı 2,7 dəfə, ümumiyyətlə, iqtisadiyyat 3,4 dəfə, kənd təsərrüfatı 1,5 dəfə artmışdır. Həmçinin ölkəmizdə bir milyon 200 min iş yeri açılmışdır ki, onun da 900 mini daimi iş yeridir. Yoxsulluq təqribən 44,7%-dən 5,3%-ə düşmüşdür. İşsizlik 5% təşkil edir. Ölkənin xarici dövlət borcu 8% təşkil edir. Bu göstəricilərə görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdən birini tutur.

Son 10 il ərzində ölkəmizə 160 milyard dollar investisiya cəlb edilmişdir ki, bu da Azərbaycan iqtisadiyyatının inkişafına böyük təkan vermişdir.

2013-cü ildə Azərbaycan iqtisadiyyatına rekord səviyyədə, yəni 28 milyard dollar həcmində sərmayə qoyulmuşdur. Qeyd etmək lazımdır ki, artıq bizdə daxili sərmayə qoyuluşu xarici sərmayələri üstələyir. Daxili sərmayələrin tərkibində hələlik dövlət investisiya xərcləri demək olar ki, üstünlük təşkil edir. Bu isə onunla əlaqədardır ki, infrastruktur layihələri və ölkə iqtisadiyyatı üçün lazım olan digər proqramlar vaxtlı-vaxtında icra edilir. Həmçinin özəl sektor da öz-özlüyündə Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşunu gündən-günə artırır. Çünki ölkəmizdə yaradılan investisiya iqlimi çox müsbətdir. Adambaşına düşən birbaşa xarici sərmayələrin qoyuluşuna görə Azərbaycan MDB məkanında ön sıralardadır. Bu illərdə, xüsusilə sahibkarların ölkə iqtisadiyyatına sərmayə qoyuluşunu təmin etmək üçün dövlət tərəfindən konkret proqramlar həyata keçirilmiş və maliyyə resursları cəlb edilmişdir. Sahibkarlara güzəştli şərtlərlə kreditlər verilməsi davam etdirilir. Sahibkarlığın inkişafı üçün xüsusi tövsiyə planları da tərtib edilmişdir. Ölkə iqtisadiyyatında ən çox zəruri olan sahələri lazımi səviyyədə inkişaf etdirmək üçün ölkəmizdə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kreditlər ayrılır.

Qeyd etmək lazımdır ki, ümumilikdə hər iki Dövlət Proqramının həyata keçirilməsinə müxtəlif mənbələr hesabına 50,7 milyard, o cümlədən birinci proqramın icrasına 16 milyard, ikinci proqramın icrasına isə 34,7 milyard manat vəsait yönəldilmişdir.

Nəticədə regionların inkişafının mühüm amillərindən olan infrastruktur təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.

Rabitə xidmətinin keyfiyyətinin daha da yüksədilməsi məqsədilə regionlarda telefon stansiyaları və poçt binaları istifadəyə verilmiş, bütün rayon mərkəzlərində liber-optik kabel çəkilmişdir. Bu gün regionlarda hər 100 nəfərdən 60-ı internet, 48-i isə geniş zolaqlı internet istifadəçisidir.

"ASAN" xidmətin regionlarda fəaliyyətə başlaması göstərilən xidmətlərin keyfiyyətini, şəffaflığını və operativliyini artırmış və əhalinin gündəlik həyatını asanlaşdırmışdır. Proqramlar çərçivəsində əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması üçün 400 mindən çox əhalisi olan 222 yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır. Həmçinin 2708 məktəb, regionlarda 38 mərkəzi xəstəxana olmaqla 500-dən çox səhiyyə, 700-ə yaxın mədəniyyət, 250-dən çox idman və gənclər obyekti tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Hər iki proqramların icrası zamanı görülən işlərin təhlili bir daha onların iqtisadiyyatın diversifikasiyasının sürətlənməsinə, qeyri-neft sektorunun inkişafına və ixracının artırılmasına, ərzaq və enerji təhlükəsizliyinin möhkəmlənməsinə mühüm töhfə vermişdir. Son 10 il ərzində regionlarda 500-dən çox sənaye müəssisəsi, o cümlədən Sumqayıtda texnologiyalar və tekstil parkları, Naxçıvanda sement, mərmər və avtomobil, Qazaxda sement, Gəncədə alüminium, Goranboyda gips və gips məhsulları, Mingəçevirdə polietilen borular, elektron avadanlıqları, Sumqayıtda kağız emalı,

günəş panelləri, Masallıda və Abşeronda kərpic, Hacıqabulda seramik plitələr, Gədəbəy və Daşkəsəndə qızıl emalı, Oğuzda qarğıdalı və qlükoza, İmişlidə şəkər, bitki yağları və qarışıq yem zavodları, Masallıda mebel fabriki, yüzlərlə digər tikinti materialı, mebel emalı, çörək və digər müəssisələr fəaliyyətə başlamışdır.

Dövlət Proqramlarının icrası müddətində güzəştli kreditlər hesabına ümumi dəyəri 730 milyon manat olan 104 sənaye layihəsinin maliyyələşdirilməsi nəticəsində həmin layihələr üzrə 80 müəssisə istifadəyə verilmiş və 24-ü üzrə işlər hazırkı şəraitdə davam etdirilir.

Onu da qeyd edək ki, güzəştli kreditlərin son 10 il müddətində 64%-i kənd təsərrüfatı məhsullarının istehsalı və emalı layihələrinin həyata keçirilməsinə yönəldilmişdir. Bu isə öz növbəsində respublikamızın ərzaq və bir sıra istehlak məhsulları ilə təchizatında idxaldan asılılığı xeyli azaltmışdır. Məsələn, illik istehsal gücü 55 min ton quş əti, 84 milyon damazlıq və 164 milyon əmtəəlik yumurta olan 39 quşçuluq müəssisəsinə 100 milyon manat kredit verilməsi nəticəsində sənaye quşçuluğunun istehsal gücü 100 min tona çatdırılmış, quş əti istehsalı 51% artaraq 97 min ton, o cümlədən sənaye üsulu ilə 2,6 dəfə artaraq 55 min ton olmuşdur. Görülmüş tədbirlər nəticəsində quş əti idxalı 73% azalmışdır.

Ümumiyyətlə, kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanması və satışı üzrə ümumi tutumu 203 min ton olan 40 logistik mərkəzin və ümumi tutumu 342 min ton olan 21 taxıl anbarı kompleksinin yaradılması əhalinin il boyu keyfiyyətli yerli məhsullarla təminatında istehsal olunan meyvə, tərəvəz və taxılın tədarükündə, həmçinin ixracın artmasında və qiymətlərin sabitliyinin təmin edilməsində mühüm rol oynayır.

Regionların sosial-iqtisadi inkişafının I və II Dövlət Proqramlarının icrası dövründə respublikamızda qeyri-neft sektorunun məhsullarının ixracı 4,7 dəfə, o cümlədən meyvə-tərəvəz məhsullarının ixracı 5,1 dəfə, ixrac olunan qeyri-neft məhsullarının çeşidi 1,7 dəfə, ixrac ölkələrinin sayı isə 23 vahid artmışdır. Bu müddətdə respublikamızda 14 beşulduzlu hotel də daxil olmaqla regionlarda turizm komplekslərinin, istirahət mərkəzlərinin istifadəyə verilməsi turizmin inkişafına geniş imkanlar yaratmışdır.

Beləliklə, regionların inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəinki bölgələrin, eləcə də ümumilikdə ölkənin inkişafında bir dönüş nöqtəsi olmuş, aparılmış müvəffəqiyyətli quruculuq və abadlıq işləri bütün şəhər, rayon və kəndlərin simasını əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Bununla yanaşı, yeni iş yerləri yaradılmış və əhalinin rifahı xeyli yüksəlmişdir.

Son bir neçə il müddətində ölkənin avtomobil yollarında 3017 kilometr, o cümlədən 1103 kilometr respublika əhəmiyyətli yol çəkilmiş, yenidən qurulmuş və təmir olunmuşdur. Bu yollarda 164 yeni körpü və yol ötürücüsü tikilmiş, 47 körpü isə əsaslı təmir olunmuşdur.

Ümumilikdə yol-nəqliyyat kompleksi üzrə tədbirlərin yerinə yetirilməsinə müxtəlif mənbələrdən 8,2 milyard manat vəsait sərf olunmuşdur. Belə ki, iki Dövlət Proqramı və əlavə tədbirlər nəticəsində 8332 kilometr, o cümlədən 2622 kilometr respublika əhəmiyyətli, 5710 km yerli əhəmiyyətli avtomobil yolları çəkilmiş və təmir olunmuş, ümumi uzunluğu 10087 metr təşkil edən 222 körpü və yol ötürücüsü tikilmiş və 85 körpü əsaslı təmir olunmuşdur. 400 km-dən çox dəmiryolu əsaslı təmir olunmuş, regionlarda 4 hava limanı tikilmiş, 2 liman tam yenidən qurularaq istismara verilmiş, yeni hava gəmiləri alınmışdır. Bu müddət ərzində 16 avtovağzal tikilmiş, 9 avtovağzal yenidən qurulmuş, iri və orta tutumlu 2760 yeni avtobus, 1800 taksi əhalinin istifadəsinə verilmişdir.

Deməli, Azərbaycanda uğurla həyata keçirilən davamlı inkişaf strategiyasının mühüm həlqələrindən biri olan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları ölkənin sosial-iqtisadi həyatının bütün sahələrində ciddi inkişaf dinamikasına və keyfiyyət dəyişiklikliyinə səbəb olan və ona təkan verən strateji sənədlərdir. Bu sənədlərin (proqramların) başlıca istiqaməti, göründüyü kimi, qeyri-neft sahələrinin sürətli və dinamik inkişaf etdirilməsinə nail olmaqdır.

Bu baxımdan əhalini ərzaqla, sənayeni xammalla təmin edən mühüm istehsal sahələrindən biri kimi kənd təsərrüfatının inkişafının stimullaşdırılması məsələsi də daim diqqət mərkəzində duran məsələlərdən biridir. Qeyd etdiyimiz inkişaf proqramlarında bu sahənin inkişafına da dövlət tərəfindən xüsusi diqqət yetirilmişdir. Belə ki, son 10 ildə torpaqların istifadə vəziyyətinin statistik təhlili göstərir ki, 2004-cü ildə mövcud olan 1 milyon 635 min hektar əkin yerinin 79,2 faizində əkin aparıldığı halda, 2013-cü ildə 1 milyon 695 min hektar əkin sahəsinin 99,4 faizində əkin

aparılmışdır. Bu isə öz növbəsində əkin sahəsinin demək olar ki, tam həcmdə dövriyyəyə cəlb olunduğunu göstərir.

Heyvandarlıqda həyata keçirilən islahatlar nəticəsində mal-qaranın baş sayının sabit templə artımına nail olunmuşdur. Son 10 il ərzində iribuynuzlu mal-qaranın baş sayı 14,3% artaraq 2 milyon 708 minə, qoyun və keçilərin baş sayı 13,2% artaraq 8 milyon 677 minə, quşların sayı isə 44,8% artaraq 27,6 milyona çatmışdır. Bununla yanaşı, intensiv inkişaf, yəni onların cins tərkibinin dəyişdirilib, daha məhsuldar cinslərlə əvəz edilməsi həmin dövrdə ət istehsalının 50,8%, süd istehsalının 53,7%, yumurta istehsalının isə 77,6% artımına səbəb olmuşdur. Burada "Aqrolizinq" ASC-nin fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

2006-2013-cü illər ərzində 2004-cü ildə yaradılmış "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə dövlət büdcəsi və ehtiyat fondları hesabına 458 milyon manat vəsait ayrılmış, təkrar istifadədən qaytarılan 179 milyon manat və eləcə də müxtəlif mənbələrdən ayrılan 13 milyon manat da daxil olmaqla onun investisiya portfeli 650 milyon manat təşkil etmişdir. Bu vəsaitlər hesabına həmin dövrdə 1200-dən çox yeni kombayn, 4914 traktor, 184 ədəd ekskavator və digər kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlar alınaraq 6591 nəfər müxtəlif hüquqi və fiziki şəxslərə lizinq verilmiş və ya lizinq yolu ilə satılmışdır. Bundan başqa torpaqların münbitliyini artırmaq və yüksək məhsuldarlığa nail olmaq məqsədilə 121 milyon manat dəyərində 400 min ton müxtəlif növ mineral gübrələr alınmışdır. Həmçinin 2009-cu ildən başlayaraq 9548 baş ətlik və südlük istiqamətində iribuynuzlu damazlıq heyvanlar, 5947 baş yüksək məhsuldarlıqlı cins qoyun və keçi alınaraq güzəştli şərtlərlə ölkə fermerlərinə lizinqə verilmişdir.

Ümumiyyətlə, inkişaf proqramının hər bir sahədə yüksək nəticələr əldə olunmasına səbəb olduğu aydın görünür.

Belə ki, son 10 ildə ölkəmizdə sıçrayışlı sosial-iqtisadi inkişaf və yüksəliş əldə olunmuşdur. Respublikamızın ərzaq və enerji təhlükəsizliyi tam təmin olunmuş, idxaldan asılılığın kəskin surətdə azalması nəticəsində Azərbaycan hazırda qaz idxal edən ölkədən qaz ixrac edən ölkəyə çevrilmişdir. Gələcəkdə bu imkanların daha da genişləndiriləcəyi çox mühüm bir məsələ kimi qarşıda durur.

2013-cü ildə 13,3 milyard kub metr qaz respublikanın qaz nəql sisteminə təhvil verilmişdir. İki böyük yatağın "Ümid" və "Abşeron" qaz yataqlarının kəşf edilməsi Azərbaycanın zəngin potensialının səmərəli istifadəsi üçün geniş perspektivlər açmışdır. Belə ki, 2004-cü ildə ölkəmizin yalnız 49 şəhəri, rayon mərkəzi və bu mərkəzlərə yaxın kənd və qəsəbəsi təbii qazla təmin olunurdu, yəni ölkə üzrə qazlaşma səviyyəsi cəmi 39,8% təşkil edirdi. Lakin 2013-cü ildə qazlaşma səviyyəsi 87,2%-ə, o cümlədən Bakı şəhəri üzrə 98,4%-ə, regionlar üzrə 82,4%-ə çatdırılmışdır. Ölkə üzrə real qaz abunəçilərinin sayı 2004-cü ildəki 700 mindən aşağı olduğu halda, bu gün 1 milyon 600 mindən artıqdır.

I və II Dövlət Proqramları çərçivəsində son 10 il əzində Azərbaycanın elektrik enerjisi sistemində 17 yeni elektrik stansiyası istismara verilmiş, 10 min km-dən çox elektrik ötürücü xətləri və 1500-dən çox yarımstansiya inşa edilmiş və yenidən qurulmuşdur.

Həmçinin elektrik stansiyaları və sistem əhəmiyyətli yarımstansiyalar arasında 1000 km-dən artıq liber-optik kabellər çəkilmişdir. Bu müasir texnologiyaların tətbiqi enerji istehsalı və ötürülməsi obyektlərindən məlumatların onlayn rejimində yeni yaradılmış mərkəzi SCADA sisteminə ötürülməsini təmin edir.

Regionların inkişafı ilə bağlı dövlət proqramları çərçivəsində "Azərsu" ASC tərəfindən regionlarda 3430 km içməli su xətti, 1225 km kanalizasiya kollektorları və şəbəkəsi, 96 ədəd su anbarı, 39 ədəd su və kanalizasiya-nasos stansiyaları tikilmişdir. Proqramlarda nəzərdə tutulmuş tədbirlər çərçivəsində Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən 8, Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Agentliyi tərəfindən 6 rayon mərkəzində su və kanalizasiya layihələri icra olunmuşdur. Bu rayonlarda görülmüş işlər də nəzərə alınmaqla regionlarda 540 min nəfərin su təminatı yaxşılaşdırılmışdır. Dövlət proqramlarının icrasından əvvəl ölkə üzrə xidmət göstərilən əhalinin cəmi 26%-i fasiləsiz içməli su alırdısa, hazırda bu rəqəm 55%-ə çatdırılmışdır.

Dövlət proqramında qeyd olunan istiqamətlərdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında əsas və həlledici mərhələ olmaqla ölkə regionlarının davamlı inkişafında və "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası

çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olunmasında, həmçinin ölkə əhalisinin maddi rifah halının daha da yaxşılaşdırılmasına gətirib çıxaracaqdır.

Ümumiyyətlə, regionların inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəinki bölgələrin, eyni zamanda bütövlükdə ölkə iqtisadiyyatının inkişafında bir dönüş nöqtəsi olmuş, aparılmış möhtəşəm quruculuq və abadlıq işləri bütün şəhər, rayon və kəndlərin simasını tanınmaz dərəcədə dəyişərək regionlarda əhalinin həyat səviyyəsinin daha da yaxşılaşmasına lazımi şərait yaratmışdır və gələcəkdə bu istiqamətdə görüləcək məqsədyönlü tədbirlər öz töhfəsini verəcəkdir.

**Nəticə.** Sonda belə bir nəticəyə gəlmək olar ki, ölkəmizdə həyata keçirilən regionların sosial-iqtisadi inkişaf proqramları əhalinin işgüzar fəallığının artmasına, ayrı-ayrı regionlarda kiçik və orta sahibkarlığın daha da genişlənməsinə, beynəlxalq standartlara cavab verən məhsullar istehsal edən yeni və müasir tipli sənaye xarakterli müəssisələrin yaradılmasına imkan vermişdir. Bununla yanaşı, ölkənin aqrar sahəsinin inkişafına diqqətin daha da artırılması tələb olunur.

Qeyd olunanları nəzərə alaraq, perspektivdə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncam və fərmanlarına əsaslanaraq, qeyri-neft sektorunun inkişafı istiqamətində zəruri tədbirlər işləyib həyata keçirmək daha məqsədəuyğun olardı.


**Əsgər Əliyev, Sevda Məmmədova**
**Azərbaycanda dövlət proqramlaşdırmasının xüsusiyyətləri**
**Xülasə**

Məqalədə proqramlaşdırmanın müasir iqtisadi inkişaf sistemində rolu və əhəmiyyəti əsaslı şəkildə xarakterizə olunmuşdur. Bununla yanaşı, ölkə iqtisadiyyatının müasir tələblər səviyyəsində inkişaf etdirilməsi üçün Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair I və II Dövlət Proqramlarında qarşıya qoyulan məsələlər müasir tələblər nöqteyi-nəzərindən müəyyənləşdirilmiş və iqtisadiyyatın inkişafı istiqamətində baş verən dəyişikliklər nəzərdən keçirilmişdir.



**Аскер Алиев, Севда Мамедова**
**Особенности применения государственного програмирования в Азербайджане**
**Резюме**

В статье обоснованно характеризуется роль и значение программирования в системе современного экономического развития. Наряду с этим, подробно анализируются задачи, сформулированные в I и II Государственных Программах Азербайджанской Республики о социально-экономическом развитии регионов с целью достижения развития экономики страны в соответствии с современными требованиями.



**Asger Aliyev, Sevda Mammadova**
**Spesifications of the state programming in the Azerbaijan**
**Summary**

The article characterizes the role and importance of programming in the system of modern economic development in detail. At the same time the problems forthcoming in the I and II State Programs about socio-economic development of the regions of the Republic of Azerbaijan in the level of modern reguirements of the country economy are analyzed in detail and the changes in the direction of economic development are studied.


## Ədəbiyyat

1. “2004-2008-ci illər üzrə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı” Dövlət Proqramı.
2. “2009-2013-cü illər üzrə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı” Dövlət Proqramı.
3. Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı (2008/2015-ci illər) Bakı-2008.
4. H.B.Allahverdiyev “Bazar iqtisadiyyatına keçid şəraitində ərzaq təhlükəsizliyi və onun tənzimlənməsi problemləri”. Nəzəriyyə və praktika jurnalı №3-4, Bakı-2000.
5. Z.Məmmədov “Regional iqtisadi inkişaf problemləri”. Bakı-2007
6. Azərbaycanın statistik göstəriciləri 2014. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı-2014.

# AZƏRBAYCANDA SƏNAYE SİYASƏTİNİN PRİORİTETLƏRİ

***Əli Hacıyev***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*"Müəssisənin iqtisadiyyatı" kafedrasının müdiri, i.e.n., dosent*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: ali.haciyev@unec.edu.az*

**Açar sözlər:** sənaye siyasəti, qeyri-neft sənayesi, rəqabət qabiliyyəti, investisiya potensialı, regional innovasiya proqramı.
**Ключевые слова:** политика промышленности, ненефтянная промышленность, конкурентоспособность, инвестиционный потенциал, региональная инновационная программа.
**Keywords:** industrial policy, non-oil industry, purchasing power, investment potential, regional innovation program.

Hazırda dünya iqtisadiyyatında mənfi meyillər davam edir, iqtisadi fəallığın zəifləməsi baş verir. Bu proses xammal və mineral resurslara əsaslanan ölkələrdə daha kəskin formada özünü göstərir. Bu baxımdan baş verən mənfi meyillərin Azərbaycana da böyük təsiri olmuşdur. Ölkədə son 2 ildə ÜDM-in artım tempi azalmış, mühüm makroiqtisadi göstəricilər aşağı düşmüşdür. Buna baxmayaraq, aparılan iqtisadi siyasət mənfi meyillərin iqtisadiyyata təsirini zəiflətməyə imkan vermişdir. Bunun nəticəsidir ki, 2015-ci ildə iqtisadiyyatın əsas göstəricisi olan ÜDM-in dəyəri real ifadədə 1,1% artmışdır. Diqqəti çəkən müsbət məqamlardan biri də odur ki, qeyri-neft sənayesində artım 10% təşkil etmişdir. Əsas kapitala yönəldilən 16 milyard manat vəsaitin 55%-dən çoxu qeyri-neft sektorunun payına düşmüşdür. Lakin neftin qiymətinin 3 dəfədən çox aşağı düşməsi və bu səbəbdən ölkəyə valyuta daxilolmalarının azalması ilə əlaqədar makroiqtisadi tarazlığın gözlənilməsi və iqtisadiyyatın rəqabət potensialının artırılması zərurəti manatın devalvasiyasını qaçılmaz etmişdir.

İqtisadiyyatın mövcud durumunda baş verən proseslər "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan təbii resursların ixracından iqtisadi artımın innovasiya modelinə keçidi daha kəskinliklə qarşıya qoymuşdur [3]. Bütövlükdə sənayeləşmə prosesində dinamizmin artırılmasına, emal sənayesinin diversifikasiyası və inkişafına, elmtutumlu və innovativ istehsalın genişləndirilməsinə, ixracyönümlü və rəqabətqabiliyyətli istehsalın artırılmasına və s. zərurət yaranmışdır.

Təhlil göstərir ki, Azərbaycanda sənaye siyasəti, o cümlədən qeyri-neft sektorunun inkişafı potensialının tam reallaşmasına yönəlmiş tədbirlərin kompleks şəkildə həyata keçirilməsi ixracyönümlü və idxalı əvəzetmə inkişaf strategiyalarının effektiv sintezinə imkan verən müvafiq iqtisadi mexanizmlərin işlənilməsi və reallaşdırılması əsasında mümkündür.

Öncə qeyd etmək lazımdır ki, bütövlükdə sənaye siyasəti özündə daxili və xarici bazarlarda milli istehsalçıların əmtəə və xidmətlərinin rəqabət qabiliyyətinin yüksəldilməsi və iqtisadi təhlükəsizliyə təhdidlərin aradan qaldırılması üçün dövlətin həyata keçirdiyi müvafiq tədbirlər sistemini birləşdirir.

İqtisadi inkişafın müasir mərhələsində dövlətlər sənaye inkişafını dörd əsas istiqamət üzrə təşviq edirlər:

- tarifləri, fiksal imtiyazlar və ya subsidiyalar vasitəsi ilə tənzimləyici qismində;
- kredit bazarına təsir göstərməklə dövlət və özəl resursları sənaye layihələrinə yönəldən maliyyə tənzimləyicisi qismində;
- iqtisadi aktivlikdə birbaşa iştirak edən istehsal qismində (dövlət müəssisələri vasitəsilə);

- hökümət satınalmaları vasitəsilə strateji sənaye sahələrinə bazarı təmin edən istehlakçı qismində [3, səh.26].

XX əsrin ikinci yarısında inkişaf etməkdə olan ölkələrdə sənayenin inkişafı siyasəti iki modelə əsaslanmışdır. Bunlar xarici bazarlara yönəlmiş Asiya və idxal əvəzləyici Latın Amerikası modelləridir. İxrac modelinə əsaslanan bir sıra Asiya ölkələrində yüksək iqtisadi artım müşahidə olunmuş, qısa müddət ərzində şaxələnmiş sənaye infrastrukturu qurulmuşdur.

Ölkədə hazırda sənaye yeni inkişaf mərhələsinə qədəm qoymuş, bu mərhələnin başlanğıcı olaraq, 2014-cü il Azərbaycanda "Sənaye ili" elan edilmişdir. Sənayeləşmənin yeni mərhələsində mövcud potensialdan daha səmərəli istifadə etməklə Azərbaycanın regionun güclü sənaye mərkəzinə çevrilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində ölkənin əsas inkişaf istiqamətləri müəyyən edilmiş və bunların arasında neft-qaz sektoru və neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi və digər prioritet istiqamətlər müəyyən edilmişdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən edilmiş prioritet sənaye istiqamətlərinin inkişaf etdirilməsi nəzərə alınmaqla Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2014-cü il tarixli 212 nömrəli Sərəncamına əsasən "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmiş və onun həyata keçirilməsinə başlanılmışdır.

Dövlət Proqramının əsas məqsədi: sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi; qeyri-neft sənayesinin ixrac potensialının artırılması; enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi; elmtutumlu və innovativ istehsalın genişləndirilməsindən ibarətdir.

Dövlət Proqramındakı vəzifələrin yerinə yetirilməsi üçün aşağıdakı istiqamətlərdə məqsədyönümlü tədbirlərin həyata keçirilməsi zəruridir: sənayenin rəqabətqabiliyyətliliyinin artırılması və potensialının gücləndirilməsi, sənaye müəssisələrinin fəaliyyətinin dəstəklənməsi, sənaye zonaları və klasterlərinin yaradılması, təşviqi və inkişafı [3, səh.8].

Dövlət Proqramının həyata keçirilməsi sənayenin inkişafında son 10 ildə baş verən müsbət meyillərin davam etdirilməsinə imkan verəcəkdir. Qeyri-neft sənayesinin modernləşdirilməsi, şaxələndirilməsi nəticəsində bu sahənin iqtisadi artımın əsas mənbəyinə çevrilməsinə, ixracda əsas rol oynamasına, sənaye istehsalında regionların payının yüksəlməsinə, sənaye müəssisələrinin sənaye zonalarında təmərküzləşməsinə səbəb olacaqdır. Başqa sözlə, gələcəkdə də Azərbaycan Respublikasında həm neft sənayesinə, həm də qeyri-neft sənayesinə məxsus dinamik inkişaf davam etdiriləcəkdir.

Təhlil göstərir ki, ölkədə ümumi sənaye məhsulu (işlərin və xidmətlərin) istehsalının həcmi 2002-2012-ci illər arasında 8,8 dəfə artmışdır. Belə ki, 2012-ci ildə sənayedə 34,6 milyard manatlıq məhsul istehsal edilmiş və 27 milyard manat əlavə dəyər yaradılmışdır.

2013-2014-cü illər də ölkəmiz üçün uğurlu olmuşdur. Bir neçə il bundan əvvəl dünyanı bürümüş iqtisadi və maliyyə böhranı, eyni zamanda bölgədə baş verən xoşagəlməz hadisələr, toqquşmalar Azərbaycanın uğurlu inkişafına təsir edə bilməmişdir.

2015-ci ildə də Azərbaycan iqtisadiyyatı artmışdır. ÜDM 1%-dən çox, sənaye istehsalı 2,4%, qeyri-neft sənayesi isə 8,4% artmışdır. Ölkə iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulmuşdur. Bunun yarısı xarici sərmayədir. Bu, o deməkdir ki, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə olaraq qalır.

Keçən il 230-dan çox yeni sənaye müəssisəsi yaradılmış və mövcud sənaye müəssisələrinin istehsal gücləri genişləndirilmişdir. Son illərdə sənayenin inkişafı nəticəsində bir sıra məhsullar, o cümlədən sement, gips, hörgü blokları, metal konstruksiya, boya və sair məhsullar üzrə istehsal gücləri daxili tələbatı ödəməyə imkan verir.

"Azərbaycan Polad İstehsalı Kompleksi" Səhmdar Cəmiyyəti formalaşdırılmış, "Daşkəsən filiz-saflaşdırma" müəssisəsinin fasiləsiz fəaliyyəti təmin edilmişdir.

Sənayenin inkişafının yeni mərhələsi kimi qiymətləndirilən Sumqayıt Kimya Sənaye Parkında xarici və daxili infrastrukturun yaradılması işləri davam etdirilir. Artıq Parkda polad və

polietilen boruların istehsalına başlanmış, hidrotexniki avadanlıqların, polipropilen və yüksək sıxlıqlı polietilen vərəq, şüşə istehsalının təşkili işləri aparılır.

Sənayeləşmə siyasəti çərçivəsində müvafiq Dövlət Proqramına uyğun olaraq, 2015-ci ildə müasir sənaye müəssisələrinin yaradılmasının dəstəklənməsi, sənaye parklarının və məhəllələrinin təşkili işləri davam etdirilmişdir. Balaxanı Sənaye Parkında xarici infrastrukturun qurulması, əsasən, başa çatdırılmışdır və 4 rezident tərəfindən 10 milyon manatdan çox investisiyanın yatırılması nəzərdə tutulur. Qaradağ Sənaye Parkının yaradılması istiqamətində işlər davam etdirilir. Neftçala Sənaye məhəlləsinin yaradılması üçün tikinti işlərinə başlanılmışdır. Bununla əlaqədar sahibkarlar tərəfindən 18 layihə Azərbaycan İnvestisiya Şirkətinə təqdim edilmişdir. İlkin mərhələdə məhəllədə 7 layihə üzrə 15 milyon manatdan çox investisiya qoyulacağı və bunun nəticəsində 380 iş yerinin açılacağı planlaşdırılır.

Sumqayıtda "Azərikimya" İstehsalat Birliyinin etilen-polietilen zavodunda yeni qurğuların işə salınması həyata keçirilmişdir. SOCAR şirkətinə məxsus polimer zavodunun təməli qoyulmuşdur.

"Norm" sement zavodu istifadəyə verilmişdir ki, orada sementin istehsalı 2 milyon tona bərabərdir. Bu zavodun istifadəyə verilməsi ilə ölkəmizin idxaldan asılılığı tamamilə aradan götürülmüş və ixrac imkanları artırılmışdır.

Beləliklə, həyata keçirilən sosial-iqtisadi strategiya dünya iqtisadiyyatında cərəyan edən proseslərin ölkəmizə təsirini azaltmağa imkan verib. Bütün problemlərə baxmayaraq, Azərbaycan iqtisadiyyatı dayanıqlığını qoruyub saxlayıb. 2016-cı ilin büdcə zərfinin sənədləri göstərir ki, növbəti ildə də real iqtisadi artım baş verəcəkdir.

Son illərdə olduğu kimi 2016-cı ildə də iqtisadi artım qeyri-neft sektorunun hesabına təmin ediləcək.

Qarşıdakı illərdə qeyri-neft sektorunun inkişafında, bu sahədə istehsal və ixrac potensialının artırılmasında qeyri-neft sənayesi əhəmiyyətli rol oynayacaq.

Növbəti illərdə sənayenin inkişafına dövlət dəstəyi tədbirləri daha da gücləndiriləcək, yeni istehsal sahələrinin yaranması və rəqabətqabiliyyətli məhsul istehsalının artırılması diqqət mərkəzində saxlanılacaq. Bütövlükdə qeyri-neft sənayesi üzrə 2016-2019-cu illər üzrə orta hesabla 9,2 % artıma nail olunacağı proqnozlaşdırılır.

Növbəti üç ildə investisiyaların 47,3 milyard manat, o cümlədən xarici investisiyaların 15,4 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır.

Beləliklə, mövcud rəqəmlər və proqnoz göstəriciləri belə qənaətə gəlməyə imkan verir ki, Azərbaycanda sənaye siyasətinin həyata keçirilməsi ölkənin neft amilindən asılılığının aradan qaldırılması, istehsalın texnoloji quruluşunun təzələnməsi və bunun əsasında daxili və xarici bazarlarda əmtəələrin və xidmətlərin rəqabətqabiliyyətliliyinin artırılması, bu siyasətin institusional və makroiqtisadi aspektlərinə diqqətin artırılması, mövcud bazar institutlarının möhkəmləndirilməsi və real sektorda onların aktivliyinin yüksəldilməsi, regional innovasiya proqramlarının işlənilməsi və təsdiqi, habelə ölkədə əlverişli investisiya və sahibkarlıq mühitinin yaradılması istiqamətində baş verməlidir.

Dünya təcrübəsi göstərir ki, sənaye siyasətinin aparılmasının bazis vektorları, birincisi, istehsalın səmərəliliyinin maksimumlaşdırılması və onun həcm-struktur parametrlərinin ictimai tələbə uyğunluğunun əldə olunması üçün iqtisadiyyatda sahibkarlığın və rəqabət mühitinin inkişafına hərtərəfli təsir göstərilməsi, ikincisi, real sektorun tənzimlənməsi üzrə dövlətin dəqiq qərarlarının ardıcıl olaraq reallaşdırılmasıdır [1, səh.4]. Bu və ya digər istiqamətdə istənilən əyinti sənaye siyasətinin təsirini nəinki zəiflədə bilir, eləcə də iqtisadiyyatın bazara transformasiyasını dağıdıcı prosesə çevirə bilir və ya tarixən özünü tükətmiş modellərə qayıdılmasına gətirib çıxarır.

Hazırda cəmiyyət özünün inkişafının elə bir mərhələsinə çatmışdır ki, Azərbaycanın sənayecə inkişafının stimullaşdırılmasının inzibati və sahibkarlıq yanaşmalarının optimal əlaqələndirilməsi zərurətə çevrilmişdir.

Doğrudur, ölkə sahibkarlığının siması və rolunun qiymətləndirilməsində müxtəlif baxışlar mövcuddur. Lakin bir həqiqəti görməmək olmur ki, sahibkarlar tərəfindən özlərinin ölkə iqtisadiyyatının real sektorunun stabilləşdirilməsi və daha da inkişaf etdirilməsinin təşkilatçıları və icraçıları kimi yeni sosial rollarının sürətlə dərk edilməsi baş verir. Müasir Azərbaycan sahibkarlığı

kifayət qədər unikal hadisədir. Onların təmsil etdiyi özəl sektor real istehsalın 80%-dən çoxunu təşkil edir. Bununla belə, Azərbaycan biznesinin aparılmasının özəl xüsusiyyətlərini qeyd etmək lazımdır.

Amerikada və Avropanın inkişaf etmiş ölkələrində sahibkarları narahat edən başlıca məsələlər sırf sahibkarlıq xarakterlidir, o cümlədən mənfəət əldə olunması biznesin artımının idarə edilməsi və qorunması, pul gəlirlərinin (xərclərinin) idarə olunması, yeni texnologiyaların tətbiqi və s. Azərbaycan sahibkarlarını narahat edən əsas problemlər isə bir qayda olaraq, biznes çərçivəsindən nisbətən kənarda olan: dövlətin vergi siyasəti, qanunçuluqda bir sıra boşluqların olması, kapital əldə etmək çətinliyi, bank sisteminin qeyri-stabilliyi, dövlət strukturlarında korrupsiya və s. kimi məsələlərdir.

Etiraf etmək lazımdır ki, Azərbaycan sənayesinin potensialının müasir vəziyyəti haqqında inventarizasiyaya əsaslanan səhih məlumat bu gün dövlət orqanlarında belə yoxdur. Müəssisələrin əksəriyyətinin statistik balansı, onların borclarının quruluşu və investisiya risklərini artıra biləcək məsələlər haqqında həqiqi və "şəffaf" informasiyanı əldə etmək çətindir. Bir sıra maliyyə-sənaye qruplarının böhrandan sonrakı fəaliyyətində baş verən geriləmələrlə əlaqədar kapitalın qeyri-mərkəzləşmə prosesinin miqyası aydın deyildir. Eləcə də iqtisadi təmərküzləşmənin, o cümlədən müəssisələrin müflisləşməsi nəticəsində genişmiqyaslı proseslər izlənilmir. Hərçənd sirr deyil ki, bir sıra hallarda təmərküzləşmə gizli xarakter daşıyır, təsərrüfat subyektlərinin və "təyin olunmuş" şəxslərin mürəkkəb əlaqələri vasitəsilə həyata keçirilir.

Fikrimizcə, iri büdcə yaradıcı sahələrdə və müxtəlif təşkilati-hüquqi statusa malik bütün mülkiyyət formalarına aid müəssisələrdə statistik uçotun operativ bərpası lazımdır. Ölkənin hərbi-sənaye kompleksinin maddi bazasının statistik aydınlaşdırılması da mühüm əhəmiyyətlidir. Çünki daha qabaqcıl innovasiya işləmələrinin və layihələrin məhz burada toplanması müşahidə olunur. Fikrimizcə, inventarizasiyanın son nəticəsi hər şeydən əvvəl real sektorun müəssisələrinin "yaşaya bilmək", artım perspektivi, rəqabət üstünlüklərinin mövcudluğu, investisiya cəlbediciliyi baxımından yeni qaydada diferensiasiyasına imkan verir. Onun nəticəsi olaraq, bu və ya digər müəssisələrin dövlət tərəfindən müdafiə olunmasının və əmtəə bazarlarında bərabər imkanların təmin edilməsinin müsabiqə prinsiplərinin inkişafı və obyektiv qərarların qəbul edilməsinin etibarlı əsası meydana gəlir. Bundan başqa iqtisadiyyatın daha da inhisarlaşmasına yol verilməməsinin daha ardıcıl fəaliyyəti, sənayedə əldə olunmuş mülkiyyətdən istifadə üzərində səmərəli nəzarətin təşkili üçün zəruri şərtlər yaranır.

Sənaye siyasətinin institusional və makroiqtisadi aspektlərinə vurğunu gücləndirmək, artıq mövcud olan bazar institutlarının gücləndirilməsi və real sektorda onların fəallığının artırılması lazımdır. Sənaye siyasətini o şərtlər daxilində səmərəli həyata keçirmək mümkündür ki, o müvafiq mexanizmlərə söykənsin. Buna görə də ölkənin sənaye kompleksinin inkişafının stimullaşdırılmasına yönəlmiş qanunlar paketinin təcili qəbul edilməsinə ehtiyac vardır. Fikrimizcə, bu paketdə ilk növbədə qəbul edilməsi tələb olunan aşağıdakı ümumi sistemli və sahə qanunlarını qeyd etmək olar. Doğrudur, bir çox qanunlar, o cümlədən sahibkarlıq fəaliyyəti, istehlakçıların hüquqlarının müdafiəsi, haqsız rəqabət, təbii inhisar, xarici investisiyaların qorunması və s. qəbul olunmuşdur. Lakin hazırda "Sənaye siyasəti haqqında", "Əmtəə bazarında rəqabət və inhisar fəaliyyətinin məhdudlaşdırılması", "Rəqabət məcəlləsi", "İstehlakçıların müflis elan edilməsi" haqqında qanunların qəbul edilməsinə böyük zərurət vardır. Eyni zamanda sənaye müəssisələrinin fəaliyyətini tənzimləyən normativ bazanın və sənaye standartlarının təkmilləşdirilməsi zəruridir. Ölkədə himayəçiliyin, xüsusilə də sənaye sahələrində artırılmasına ehtiyac duyulur. Bunun üçün yalnız tarif qanunlarının verilməsi deyil, göndərilən əmtəələrin keyfiyyətinə və texniki səviyyəsinə onların sanitar vəziyyətinə və ekoloji təhlükəsizliyinə, göndərilmə şərtlərinə dəqiq və kəskin tələblərin təsiri ilə qeyri-tarif tədbirlər yığınının genişləndirilməsi lazımdır. Bununla Azərbaycan bazarına daxil olan və ilbəil çoxalan, bir sıra hallarda vətəndaşlarımızın həyat və sağlamlığına birbaşa təhlükə yaradan keyfiyyətsiz və aşağı çeşidli malların daxilolmasına etibarlı maneə qoyulardı.

Sənaye siyasətinin bütün proqramlarında və planlarında prioritet yüksək texnoloji və elmtutumlu istehsalların inkişafına verilir. Buna görə də yaxın gələcəkdə elmi-texniki tərəqqinin stimullaşdırılmasına dövlət xərclərinin mərhələ-mərhələ artırılması zəruridir. Bu zaman dövlətin

diqqəti emal sənayesinin rəqabət üstünlüklərinə malik, dünya bazarlarını ələ keçirməyə qadir olan iqtisadi strukturların yaradılmasına imkan verən sahələrə cəmləşməlidir. İlk növbədə sənaye parkları, zonaları və klasterləri, texnologiya parkları yaradılmasına, regionlarda sənaye potensialının gücləndirilməsində sənaye məhəllələrinin yaradılması və onların fəaliyyətinin təşkilinə üstünlük verilməlidir.

Dövlət stimullaşdırılmasının tərkib hissəsi köhnə, işlənmiş avadanlıqların deyil, yeni texnologiyaların idxalının artırılmasına səbəb olan vergi, gömrük, investisiya tədbirləri sisteminin tətbiq edilməsidir. Sənayecə inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq, yüksək texnologiyanın hərbi-sənaye kompleksindən vətəndaş sektoruna transferinin təsirli mexanizmi qurulmalı və geniş istifadə olunmalıdır.

Eyni zamanda mövcud vergidən azadolmalar və güzəştlər sisteminə yenidən baxılmalıdır. Belə ki, yeni müəssisələrin yaradılması və xaricdən gətirilən avadanlıqların quraşdırılması üçün tətbiq edilən bu sistem daha çox ixracyönümlü qeyri-neft sektorunun vergi vasitəsilə stimullaşdırılmasına xidmət etməlidir.

Azərbaycan müəssisələrində keyfiyyətin beynəlxalq səviyyəli sertifikatlaşma sisteminin tətbiqinin xüsusi əhəmiyyəti vardır.

Hazırda regional innovasiya proqramlarının işlənilməsi və təsdiq olunması mühüm zərurətə çevrilmişdir. Sənaye məhəllələrinin müsbət təcrübəsi bunu bir daha sübut edir. Ölkədə Neftçala rayonun və Mingəçevir şəhərinin timsalında başlanğıc mərhələsində olan bu prosesin daha geniş vüsət alması zəruridir.

Son illərin təcrübəsi göstərir ki, bu vaxta qədər kiçik biznesin malik olduğu böyük yaradıcı potensialdan sənaye siyasətinin reallaşdırılmasında yetərincə istifadə olunmamışdır.

İndi kiçik biznesin durumunda mövcud olan kritik vəziyyətin köklərini iqtisadiyyatın real sektorundakı vəziyyətdə axtarmaq lazımdır.

Məlumdur ki, yanacaq-energetika və xammal kompleksləri digər sahələrə nisbətən kiçik bizneslə kooperasiya əlaqələrinə və onun dayaqlarına daha az dərəcədə ehtiyac duyur. Buna görə də təsadüfi deyildir ki, ölkədə fəaliyyət göstərən mövcud kiçik müəssisələrin yarısına qədəri nisbətən dar sfera olan ticarət-vasitəçilik xidmətində cəmlənmişdir. 2013-cü ilin statistik məlumatlarına görə Azərbaycan sənayesində cəmi kiçik müəssisələrin 12,5%-i, tikintidə 7%-i, informasiya və rabitə xidmətində 2,5%-i toplanmışdır. Bununla belə, kiçik biznesin nümayəndələri arasında onun inkişafının prioritetləri və üstünlükləri haqqında sorğu göstərir ki, perspektivdə iqtisadiyyatın məhz bu sektorun quruluşu iqtisadiyyatın real sektoruna daha yaxın olmaqla yüksək səmərəliliyə malik olması üçün bütün şanslara (imkanlara) malikdir.

Xarici təcrübə göstərir ki, normal fəaliyyət göstərən bazar iqtisadiyyatında kiçik firmaların əksəriyyət hissəsi olmasa da, böyük bir hissəsi bu və ya digər qaydada iri müəssisələrin maraq dairəsində yerləşirlər. Bununla əlaqədar olaraq, fikrimizcə, bütövlükdə sahibkarlıq mühitinin magistral inkişafı üçün Azərbaycanda kiçik sahibkarlığın dövlət himayəçiliyi, kiçik və iri firmaların, bankların və sənaye-maliyyə qruplarının kooperasiyasının və əməkdaşlığının möhkəmləndirilməsinə yönəldilməlidir.

Mühüm olan məsələlərdən biri də dövlət siyasətinin kiçik biznesin işgüzar fəallığı yolunda daim artan inzibati maneələr qarşısında etibarlı sədd çəkməsidir. Ölkə prezidentinin qeyd etdiyi kimi, sahibkarlar qarşısında əsassız tələblər qoyulmamalıdır. İnkişafa mane olan bütün əngəllər, süni maneələr aradan götürülməlidir [2, səh.3]. Bir çox hallarda bu süni əngəllər yenə də korrupsiya və rüşvətxorluqla bağlıdır. Başqa sözlə, məhz korrupsiya və rüşvətxorluq iqtisadiyyatın, eləcə də sənayenin inkişafının böyük əngəli, maneəsidir. Deməli, biznes mühitinin yaxşılaşdırılması prioritet bir məsələ olaraq qalmaqdadır.

Kiçik biznesin həyat təminatı sisteminin özündə funksiyaların yenidən bölüşdürülməsi problemi də həllini tələb edir. Fikrimizcə, kiçik biznesin qeydiyyatı, lisenziyalaşdırılması və nəzarəti sahəsində bu gün dərin kök salmış dövlət strukturları inhisarına son qoyulmalı, bu işlərə sahibkarların ictimai təşkilatlarının geniş cəlb edilməsi zəruridir. Bu baxımdan ölkədə “ASAN xidmət”in təcrübəsi geniş tətbiq edilməlidir. Sahibkarlıq fəaliyyəti üçün lisenziyaların sayı kəskin şəkildə azaldılmalıdır.

Azərbaycan liberal iqtisadiyyat, bazar iqtisadiyyatı modelini seçmiş və bu istiqamətdə hərəkət edərək böyük uğurlar qazanmışdır. Lakin hələ də iqtisadiyyatda inhisarçılıq kimi neqativ meyil qalmaqdadır.

Buna görə də həm istehsal, həm də idxalda mövcud olan inhisarçılığın aradan qaldırılması üçün tədbirlər həyata keçirilməlidir. İndi Azərbaycanda idxalla bağlı inhisarçılıq hamı tərəfindən qəbul olunur. Buna görə də idxalda olan inhisarçılığın aradan qaldırılması ilə yanaşı, sahibkarların xarici bazarlara çıxa bilməsinə şərait yaradan ixrac potensialının genişləndirilməsi, ixracın stimullaşdırılması böyük əhəmiyyət kəsb edir. İlk növbədə idxal və ixrac prosesində məmur inhisarçılığına son qoyulmalıdır. Antiinhisar fəaliyyəti haqqında qanunun tələblərinin tam dolğunluğu ilə icrasına şərait yaradılmalıdır. İqtisadiyyatın real sektorunun inkişafına daxili bazarın genişlənməsi, ölkə məhsullarına olan tədiyəqabiliyyətli tələbin artması olmadan mümkün deyildir. Lakin reallıq ondan ibarətdir ki, daxili bazar “daralmaqda” davam edir. Əhali isə hələ idxaldan asılı bir durumdadır. Ölkənin ərzaq təminatının təxminən 65-70%-i idxal hesabına reallaşdırılır. Buna görə də ixracı stimullaşdırmaq üçün daxili bazarın tələbatı yerli məhsullar hesabına ödənilməlidir ki, xarici bazarlara çıxmaq üçün şərait yaransın. Digər tərəfdən bu xarici bazarlarda bütün inkişaf etmiş ölkələrdə olduğu kimi dövlət hakimiyyəti ölkə biznesinin marağını qorumalı və müdafiə etməlidir. Biznes və dövlətin qarşılıqlı münasibətlərində müəyyən klanlara, oliqarx qruplara aydın üstünlük verilməsi, sahibkarların əsas kütləsinə isə vergitutma bazasının genişləndirilməsi obyekti kimi baxılması aradan qaldırılmalıdır.

Ölkədə sənaye siyasətinin uğuru üçün real sektorda maliyyə tənzimlənməsinə xüsusi diqqət yetirilməsi zəruridir. Bu məsələ son 2 ildə büdcənin yerinə yetirilməsində mövcud olan gərginliklə daha da kəskinləşmişdir. 2016-ci il üçün dövlət büdcəsinin gəlirləri Ümumi Daxili Məhsulun 25,2% həcmində olmaqla, mütləq ifadədə 14 milyard 586 milyon manat nəzərdə tutulur. Bu 2015-ci illə müqayisədə 4 milyard 872 milyon manat və yaxud 25,1% az, gözlənilən icrası ilə müqayisədə isə 2 milyard 514 milyon manat və yaxud 14,7% azdır.

Beləliklə, real sektorda iqtisadi artımın və sahibkarlığın inkişafının mühüm şərtlərindən biri bütövlükdə vergi siyasətinin düzgün həyata keçirilməsi, vergi yüklərinin azaldılması ilə onun bazasının genişləndirilməsi, vergi və gömrük orqanlarının fəaliyyətində şəffaflığın və səmərəliliyin artırılmasıdır. Eyni zamanda ölkədə vergiödəmə mədəniyyətinin formalaşmasına və sahibkarlar qarşısında əsassız tələblərin aradan qaldırılmasına xüsusi diqqət yetirilməlidir. Mövcud vergidən azadolmalar və güzəştlər sisteminə də yenidən baxılmalıdır. Belə ki, bu sistem daha çox ixracyönümlü qeyri-neft sektorunun inkişafı ilə bağlanmalıdır. İxracyönümlü sənaye istehsalları vergi mexanizmlərinin köməyi ilə daha geniş miqyasda stimullaşdırılmalıdır. Eyni zamanda mənfəətdən verginin həddinin nə qədər azaldılması əvəzinə onun renta məzmunlu vergilərlə, aksizlərlə, gömrük yığımları və ya qəti olaraq müəssisənin istehsal güclərinin uçotuna yönəlmiş müvəqqəti vergilərlə əvəz edilməsi haqqında ciddi qərarlar qəbul edilməlidir.

Bu qərarlar iqtisadiyyatın modernləşdirilməsi üçün kifayətedici məbləğdə iri investisiyaların büdcəyə cəlb edilməsinə imkan verə bilər. Büdcənin gəlir hissəsini artıran bir sıra amillər dövlətin investisiya potensialının yüksəldilməsinə səbəb ola bilər.

Bunun üçün birincisi, maliyyə nizam-intizamı gücləndirilməlidir. İsrafçılığa, izafi xərclərə yol verilməməlidir, o cümlədən prioritet təşkil etməyən layihələrə vəsaitin ayrılması dayandırılmalıdır. İkincisi, büdcə xərclərinin strukturuna yenidən baxılmalıdır və büdcə vəsaiti qənaətlə xərclənməlidir. Üçüncüsü, dövlət öz mülkiyyətini səmərəli idarəetməyi öyrənməlidir. Belə ki, iri səhmdar cəmiyyətlərin nəzarət səhm paketinin sahibi olsa da, dövlətin bölüşdürülən mənfəətin cüzi bir hissəsinə sahib olması, bu müəssisələrin büdcəyə divident köçürməmələri normal hal deyildir. Görünür, bir sıra xarici ölkələrdə olduğu kimi belə müəssisələrin idarə olunmasının muzdlu menecerlərə həvalə edilməsi təcrübəsinə keçmək lazımdır. Bu zaman həmin menecerlərə bəlli güzəştlərin (xüsusilə də mülkiyyət özəlləşdirilərkən) verilməsi məqsədəuyğundur. Dördüncüsü, ayrı-ayrı dövlət idarələri (strukturları) tərəfindən şişirdilmiş idarəetmə aparatının saxlanılmasına və ofislərin tikintisinə xərclənən vəsaitlərin istehsalın təzələnməsinə yönəldilməsi zəruridir. Beşincisi, ölkədən kapital axınına maneə olacaq mexanizmlər işlənilməlidir. Bu zaman inzibati məhdudiyyətlər və dövlət nəzarətinin gücləndirilməsi kapital ixracının onun ölkə daxilində investisiyası ilə müqayisədə az xeyirli olması iqtisadi və hüquqi şərtlərlə əlaqələndirilməlidir. Başqa sözlə, kapital

axını probleminin köklü həlli o zaman mümkün ola bilər ki, dünya kapital bazarında mövcud olan şərtlərə uyğun şərait yaradılsın. İnzibati və güc tətbiqinə əsaslanan qərarlar qısamüddətli perspektivdə ölkədən çıxarılan valyutanın kiçik bir hissəsini təşkil edən "qara" kapitalın axınının qarşısını ala bilər. Hazırda bu məqsədlə qeyri-bank kanalları ilə pul köçürülməsinə nəzarət gücləndirilib. Bu üsulun məqsədi qeyri-leqal pulların ölkədən çıxarılması və rüsumdan yayınmaların aradan qaldırılmasıdır. Lakin dünya təcrübəsi göstərir ki, ölkədə maliyyə böhranının yarandığı və getdikcə dərinləşdiyi şəraitdə inzibati yolların tətbiqi məsələnin köklü həllini təmin etmir.

Real sektorun, o cümlədən də sənayenin inkişafı üçün ölkədə bank sisteminin və fond bazarının fəaliyyətinin keyfiyyətcə canlandırılmasının böyük əhəmiyyəti vardır. Başqa sözlə, mövcud bankların ayrı-ayrılıqda sənayenin yüksəlişi üçün zəruri olan miqdarda kapitalı yoxdur. Ölkədə bankların sayı 40-dan çox olsa da, onların məcmu kapitalının məbləği orta səviyyəli bir amerikan bankının kapitalından azdır. Çoxsaylı bankların mövcudluğu bu sektordakı rəqabət mühitinin varlığının göstəricisi deyildir.

Baxmayaraq ki, 2014-cü ildə Azərbaycan bank sektorunun sabitliyi və dayanıqlığı təmin olunmuş, sektor aktiv olaraq iqtisadi artım və şaxələnmə proseslərini dəstəkləmişdir. Azərbaycan maliyyə sisteminin 90%-ni təşkil edən bank sektorunda risklərə qarşı maliyyə immunitetini daha da gücləndirilmiş, bankların kapitalizasiyası davam etdirilmiş, bank sektorunun aktivləri 21%, bank kreditləri 18%, o cümlədən uzunmüddətli kreditlər 19% artmış, biznes kreditləşməsinin genişlənməsi davam etmişdir. Biznes kreditləri 18%, o cümlədən sənaye 36% artmışdır.

2014-cü ildə faiz dərəcələrinin azalması prosesi davam etmişdir. Son illərdə kreditlər üzrə faiz dərəcələri 18 %-dən hazırda 14%-ə düşmüşdür. Lakin təcrübə göstərir ki, bütün bunlar kifayət deyildir.

Azərbaycan fond bazarının bərpa edilməsi və şaxələndirilməsinin dəqiq proqramının işlənilməsi və reallaşdırılması zəruridir ki, o real sektora sənayeləşmə ilə əlaqədar investisiyaların səmərəli bələdçisinə çevrilsin.

Bu gün fond bazarının tam dəyərli vasitələr toplusu yoxdur, investor üçün cazibədar olan dövlət və korporativ qiymətli kağızların siyahısı böyük deyildir. Azərbaycan şirkətlərinin böyük əksəriyyətinin səhmləri əlahiddə risk aktivləridir. Fond bazarı özündə hələ olmayan, lakin çox mühüm əhəmiyyətli bir mexanizm-investisiya fondlarını birləşdirməlidir. İnkişaf etmiş ölkələrdə ailələrin 40%-ə qədəri belə fondların əmanətçiləridir. Bu bir tərəfdən bankların faiz dərəcələrinə görə daha yüksək gəlirlər əldə etməyə, digər tərəfdən qiymətli kağızların idarəolunması ilə əlaqədar riskləri azaltmağa imkan verir.

Sənaye siyasətinin səmərəliliyinin artırılması üçün Azərbaycan bazarında innovasiya (vençur) investisiyalaşdırılmasının da özünün layiqli yerini tutması gərəkdir. Vençur fondlarına institusional beynəlxalq investorların, dünya bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, eləcə də artıq ticarət və sənaye kapitalına malik ölkə şirkətlərinin vəsaitləri cəlb oluna bilər.

Şübhəsiz, yüksək texnoloji layihələrin uzunmüddətli maliyyələşdirilməsinə öz aktivlərini yerləşdirməkdə və artırmaqda marağı olan təqaüd fondları, eləcə də sığorta şirkətləri də iştirak edə bilərlər.

Fikrimizcə, yeni sənayeləşmə siyasətinin tələblərinə uyğun olaraq, idarəetmə kadrlarının yenidən hazırlanması proqramının miqyasını əhəmiyyətli dərəcədə genişləndirmək, tədris planlarında mühüm dəyişikliklər edilməlidir. Görünür, bizə yalnız qərb idarəetmə bilikləri və vərdişlərinə malik menecerlər deyil, qeyri-tənzimlənən iqtisadiyyat şəraitində yüksək ixtisaslı menecmenti həyata keçirməyə qadir olan böhran əleyhinə idarəetmə üzrə mütəxəssislər lazımdır. Dünya təcrübəsi göstərir ki, yüksək ixtisaslı menecer kadrlarının kəskin çatışmazlığı şəraitində heç olmazsa, dövlət müəssisələri üçün aktivlərin səmərəli idarə edilməsini həyata keçirə biləcək xüsusi idarəetmə şirkətinin yaradılması məqsədəuyğundur.

Hazırda sənayenin diversifikasiyası bir sıra ənənəvi istehsal sahələri ilə yanaşı, ənənəvi olmayan yeni istehsal sahələrinin qurulmasını tələb edir.

İlk növbədə yerli xammala əsaslanan rəqabətqabiliyyətli ağır sənaye istehsalının genişlənməsi zəruridir. Metallurgiya, neft-qaz emalı, neft-kimya və kimya sahələrində müasir tələblərə uyğun yeni istehsal güclərinin qurulması vacibdir. Neft-kimya sahələrində baza məhsullarının istehsalı son məhsul istehsal edən çoxlu sayda müəssisələrin yaradılmasına təkan

verəcəkdir. Bununla yanaşı, metallurgiyanın inkişafı yeni qurulmuş gəmi istehsalı sahəsinin xammal təchizatını yaxşılaşdıracaq, rəqabət qabiliyyətini yüksəldəcək, maşınqayırmanın inkişafı üçün sağlam zəmin yaradacaqdır. Son illər ölkədə, əsasən, yeyinti sənayesi, yüngül sənaye, mebel sənayesi, tikinti materiallarının istehsalı sahələrində qabaqcıl texnologiyaların tətbiqi ilə rəqabətqabiliyyətli çoxlu sayda müəssisələr qurulmuşdur. Bu sahələrdə istehsal həcmlərinin genişləndirilməsi ilə yanaşı, digər sahələrdə, o cümlədən kimya, metallurgiya, maşın və avadanlıq istehsalı, alternativ enerji qurğu və avadanlıqlarının istehsalı, müdafiə sənayesi sahələrində müəssisələrin yaradılması tədbirləri davam etdirilməlidir.

Yaxın gələcəkdə yüksək texnologiyaların tətbiqi ilə yeni istehsal sahələrinin fəaliyyətə başlaması da prioritetlər sırasındadır. Bu baxımdan elektron avadanlıqların istehsalının genişləndirilməsi və əczaçılıq məhsullarının istehsalının qurulması imkanları nəzərdən keçirilməlidir. Yüksək texnologiyalı istehsal böyük həcmdə araşdırma və inkişafetdirmə fəaliyyəti tələb etdiyi üçün bu sahədə prioritetlərin bir neçə konkret sahə ilə məhdudlaşdırılması məqsədəuyğundur.

**Nəticə.** Sənaye siyasətinin prioritetlərindən biri də sənayenin rəqabət qabiliyyətinin artırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsindən ibarətdir. Bunun üçün sənayeyə investisiyaların cəlb edilməsi üçün imkanlar genişləndirilməli, sənayeyə yönləndirilən dövlətin güzəştli kreditlərindən istifadə və lizinq imkanları artırılmalı, qeyri-neft sənayesinə investisiyaların təşviqi mexanizmi yaradılmalıdır. Sənaye müəssisələrinin quruluş xərclərinin azaldılması, sənaye zonalarından (xüsusi iqtisadi zona, sənaye parkı və sənaye məhəllələri) kənarda yerləşən sənaye layihələrinin müəssisədən kənar infrastruktur təminatının yaxşılaşdırılması, bu məqsədlə dövlət vəsaiti hesabına həyata keçirilən infrastruktur layihələrinin özəl sektorun investisiyaları ilə əlaqələndirilməsi mexanizmi qurulmalıdır. Eyni zamanda bir sıra qabaqcıl ölkələrin təcrübəsindən istifadə edərək dövlət-özəl tərəfdaşlıq modellərinin tətbiqinin genişləndirilməsinə xüsusi diqqət yetirilməlidir.

Sənaye müəssisələrinin fəaliyyətinin dəstəklənməsi, onlara informasiya, marketinq və markalanma dəstəyi, standartların və sertifikatların tətbiqində dəstək, treninq dəstəyi göstərilməli və xüsusən sənaye müəssisələrinin araşdırma və inkişafetdirmə fəaliyyəti dəstəklənməlidir.

Dövlət Proqramının icra olunacağı müddətdə mövcud sənaye və texnologiya parklarının fəaliyyətinin gücləndirilməsi, yeni sənaye parklarının və sənaye məhəllələrinin yaradılması, xüsusi iqtisadi zonaların fəaliyyətə başlaması və regionların sənaye potensialının artırılması istiqamətləri diqqət mərkəzində saxlanılmalıdır.


**Əli Hacıyev**

**Azərbaycan sənaye siyasətinin prioritetləri**

**Xülasə**

Tədqiqatda sənaye siyasətinin xüsusiyyətləri, mexanizmləri və müasir dövrdə prioritetləri araşdırılmışdır. Sənaye inkişafının Dövlət Proqramının tələblərinə uyğun sənayeləşdirmənin reallaşdırılmasında mövcud olan problemlər və vəzifələrə baxılmışdır.

Sənaye siyasətinin institusional və makroiqtisadi aspektləri, əlverişli investisiya və sahibkarlıq mühitinin formalaşdırılması, yüksək texnoloji və elmtutumlu istehsalların inkişafı ilə əlaqədar təkliflər verilmişdir, onun prioritetləri araşdırılmışdır.

**Али Гаджиев**

**Приоритеты промышленной политики Азербайджана**

**Резюме**

В статье исследованы особенности, механизмы и приоритеты промышленной политики на современном этапе. На основании требований Государственной Программы развития промышленности были рассмотрены проблемы и задачи реализации индустриализации.

Были даны предложения по институциональным и макроэкономическим аспектам промышленной политики, формированию благоприятной среды для инвестиций и

предпринимательства, развития высокотехнологичных и наукоемких производств, анализированы его приоритеты.

**Ali Hajiyev**

**The priorities of industrial policy of Azerbaijan**

**Summary**

The article there were studied features, mechanisms, and the priorities of industrial policy in the modern period. The problems and aims of the implementation industrializion according to the State Programme were considered.

The recomendations with regard to institutional and macroeconomic aspects of the industrial policy, the development of the investment environment and entrepreneurship as well as the development of technologically advanced and science industry were indicated, its priorities were analized.

## Ədəbiyyat

1. С.Смирнов Промышленная политика проблемы и перспективы «Вопросы экономики» № 9,
2. Xalq Qəzeti 13.10.2015
3. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 964 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”
4. Промышленная политика: выбор пути развития на ближайшие два года «Вопросы экономики» № 11, 2007
5. Состоится ли новая модель экономического роста в России «Вопросы экономики» № 5, 2013

# STATISTICAL EVALUATION OF THE ROLE OF AGRICULTURE IN THE ECONOMY OF AZERBAIJAN

***Ilkin Shahvaladov***
*Leading consultant of the Department of Agriculture Statistics of the*
*State Statistical Committee of the Republic of Azerbaijan*
*AZ1136, Baku, Inshaatchilar Avenue 81*
*E-mail: ilkinsh@azstat.org*

**Açar sözlər:** ÜDM, qeyri-neft sektoru, texnoloji innovasiyalar, dövlət proqramı, məhsuldarlıq, iqtisadi artım, kənd təsərrüfatının ÜDM-də payı, işçi qüvvəsi.
**Ключевые слова:** ВВП, ненефтяной сектор, технологические инновации, государственная программа, производительность, экономический рост, доля сельского хозяйства в ВВП, рабочая сила.
**Keywords:** GDP, non-oil sector, technological innovations, state program, productivity, economic growth, share of agriculture in GDP, labour force.

The development of non-oil sector in Azerbaijan is considered one of the important goals of the government. The development of non-oil sector in the country reduces dependence of the state revenues on oil and gas factors, which is very vital for our economy. In this regard as a leading part of the non-oil sector agriculture plays a crucial role in providing our food security. So, for further development of the agrarian reforms in the country President of the Republic of Azerbaijan declared 2015 the Year of Agriculture.

Taking into consideration that 37% of employed population work in agriculture sector (Source: State Statistical Committee of the Republic of Azerbaijan, 2014) and it has great influence on providing food security of our country, it is important to investigate the share of agriculture in GDP and to reveal opportunities in this field.

Azerbaijan has 4,8 million hectares of agricultural land, which comprises over 50% of its total territory, of which 39,6% is arable. Crop production accounts for around 46,9% of agricultural production with livestock farming making up the remaining 53,1%. Meanwhile, the food-processing sector constitutes an important component of the national economy and accounts for over 38% of total manufacturing industry. Furthermore, Azerbaijan trades intensively in agricultural and food products. Traditionally the main destination and the largest consumer of agricultural and food exports has been market of the Commonwealth of Independent States (CIS), but in recent years this market has expanded to include many other countries in Europe, Asia and the Americas. The main export products are fresh vegetables and fruits, vegetable and animal oils, sugar products, tea, processed vegetables and fruits, beverages, tobacco products, cotton and others. The years of fast economic growth in the national economy have led to a rapid growth in consumption and changes in consumer tastes in the food and beverages sector [8].

Though 37% of employed population work in agriculture sector and 47% of the total population live in rural areas, the share of agriculture in the total GDP has steadily declined to a level of around 5% over the last decade. First of all, there is a rapid industrial development during this period and structural changes in other sectors of the economy. This phenomenon (the decline in the share of agriculture in GDP) is generally expected in the normal development of an economy. But the role of agriculture sector remains critical as it accounts for 37% of employment in the economy of our country.

Generally, the economy of Azerbaijan, simultaneously, agriculture of Azerbaijan can be divided into two main periods. First, a period of economic chaos and recession covering the years 1991-1995 and second the period after 1996 is known as a period of macroeconomic stability and

dynamic economic development. Today it is one of the primary aims of the Azerbaijan to eliminate its dependence on oil revenues and to achieve spreading of the economic development in rural areas. At the same time, this area has significant impact on poverty reduction in the rural areas. After 1996, implementation of agrarian reforms established market relations in this area.

Giving attention the importance of agriculture in our economy I analysis the share of agriculture in GDP of Azerbaijan from the year 2000 to 2014 by using the data which presented in table 1.

**Table 1. Share of agriculture in the total GDP of Azerbaijan, with actual prices**

| Years | Total | *including* | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Industry | Agriculture, forestry and fishing | Construc-tion | Transport and communi-cation | Net taxes | Other sectors |
| **million manats** | | | | | | | |
| **2000** | 4718,1 | 1699,0 | 758,9 | 308,0 | 567,1 | 291,2 | 1093,9 |
| **2001** | 5315,6 | 1999,6 | 788,7 | 310,7 | 538,9 | 418,3 | 1259,4 |
| **2002** | 6062,5 | 2270,1 | 846,0 | 528,0 | 597,1 | 486,2 | 1335,1 |
| **2003** | 7146,5 | 2666,9 | 888,0 | 802,0 | 713,8 | 549,8 | 1526,0 |
| **2004** | 8530,2 | 3268,6 | 937,3 | 1062,1 | 812,4 | 615,7 | 1834,1 |
| **2005** | 12522,5 | 6201,9 | 1137,9 | 1126,8 | 917,2 | 946,5 | 2192,2 |
| **2006** | 18746,2 | 10768,3 | 1329,4 | 1445,5 | 1242,9 | 1024,4 | 2935,7 |
| **2007** | 28360,5 | 16926,9 | 1901,0 | 1825,4 | 2074,9 | 1870,2 | 3762,1 |
| **2008** | 40137,2 | 23574,0 | 2246,0 | 2800,3 | 2681,7 | 2688,6 | 6146,6 |
| **2009** | 35601,5 | 17510,2 | 2179,5 | 2554,3 | 3072,0 | 2810,0 | 7475,5 |
| **2010** | 42465,0 | 21942,2 | 2344,6 | 3439,7 | 3160,3 | 2876,5 | 8701,7 |
| **2011** | 52082,0 | 28010,7 | 2643,5 | 4141,0 | 3487,7 | 3056,0 | 10743,1 |
| **2012** | 54743,7 | 27040,4 | 2813,7 | 5507,9 | 3638,7 | 3392,0 | 12351,0 |
| **2013** | 58182,0 | 26441,7 | 3122,2 | 6753,7 | 3580,8 | 3878,0 | 14405,6 |
| **2014** | 59014,1 | 24169,3 | 3139,2 | 7454,4 | 3726,8 | 4413,0 | 16111,3 |
| **per cent** | | | | | | | |
| **2000** | 100 | 36,0 | 16,1 | 6,5 | 12,0 | 6,2 | 23,2 |
| **2001** | 100 | 37,6 | 14,8 | 5,8 | 10,1 | 7,9 | 23,8 |
| **2002** | 100 | 37,4 | 14,0 | 8,7 | 9,8 | 8,0 | 22,1 |
| **2003** | 100 | 37,3 | 12,4 | 11,2 | 10,0 | 7,7 | 21,4 |
| **2004** | 100 | 38,3 | 11,0 | 12,5 | 9,5 | 7,2 | 21,5 |
| **2005** | 100 | 49,5 | 9,1 | 9,0 | 7,3 | 7,6 | 17,5 |
| **2006** | 100 | 57,4 | 7,1 | 7,7 | 6,6 | 5,5 | 15,7 |
| **2007** | 100 | 59,7 | 6,7 | 6,4 | 7,3 | 6,6 | 13,3 |
| **2008** | 100 | 58,7 | 5,6 | 7,0 | 6,7 | 6,7 | 15,3 |
| **2009** | 100 | 49,2 | 6,1 | 7,2 | 8,6 | 7,9 | 21,0 |
| **2010** | 100 | 51,7 | 5,5 | 8,1 | 7,4 | 6,8 | 20,5 |
| **2011** | 100 | 53,8 | 5,1 | 8,0 | 6,7 | 5,9 | 20,5 |
| **2012** | 100 | 49,5 | 5,1 | 10,1 | 6,6 | 6,2 | 22,5 |
| **2013** | 100 | 45,4 | 5,4 | 11,6 | 6,1 | 6,7 | 24,8 |
| **2014** | 100 | 41,0 | 5,3 | 12,6 | 6,3 | 7,5 | 27,3 |

**Source**: State Statistical Committee of the Republic of Azerbaijan, **"The agriculture of Azerbaijan 2015"** page 51, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/indexen.php

The analysis of GDP table shows that as other sectors of economy agriculture sector increased dynamically during 2000-2014. If the amount of agriculture in total GDP was 758,9 million manats in 2000, whereas during 5 years from 2000 to 2005 it increased for 50%, in the result

agriculture share in GDP was 1137,9 million manats in 2005 with actual prices. The table describes that growth rate of agriculture was more rapidly from 2005 in parallel with dynamic GDP growth.

The development of the agrarian sector has been growing dynamically during last decade and only in 2009 it can be observed that there is a decline in total GDP, simultaneously agrarian sector declined 3% due to diminishing average oil prices per barrel from $96,5 in 2008 to $62 in 2009 as well as global financial crisis in these years. After 2009 the growth in the share of agriculture continued again.

So after independence Azerbaijani government carried out many state programs to ensure economic development (especially development of the non-oil sector), to achieve success in reducing poverty, to satisfy food security of the population and improve living standards in the country. The current state programs and the state programs implemented on agricultural sector can be listed as the followings:

- "State Program on socio-economic development of regions of the Republic of Azerbaijan for 2014-2018 years"
- “State Program on Reliable Provision of the Population with Food in the Republic of Azerbaijan for 2008-2015”
- "State Program on development of viticulture of the Republic of Azerbaijan in 2012-2020"
- “State Program on Poverty Reduction and Sustainable Development in the Republic of Azerbaijan for 2008-2015” [10]

As well as, on the Development Concept "Azerbaijan 2020: a Look into the Future" which approved by the Decree of the President dated 29 December 2012, № 800 there are many medium and long-term priorities in order to stimulate the intensive and effective development of the agrarian sector. So, in the 4,2 section of the Development Concept Government especially takes into consideration - to increase productivity in agriculture, to improve mechanism of insuring agriculture and to apply international experience in rural areas.

On the base of these state programs and other agrarian reforms our government made large investments in rural areas. At the same time, in Azerbaijan agricultural producers and farmers are exempted from all taxes, except land ownership tax. All of that is increasing attention of the government to the agricultural sector in the last several years.

In spite of the fact that government implements a system of agricultural subsidies and programmes, labor productivity is lower compared to developed countries in agriculture sphere. As we noted above, though 37% of employed population work in agriculture sector and 47% of the total population live in rural areas, the share of agriculture in the total GDP is just 5% (approximately 4 billion dollar).

The high agricultural yield of the Netherlands is a good example even for some European Union countries. So, even though 8,8% of labour force in Netherlands participate in agrifood and horticultural sector, the agricultural sector contributes approximately $80 billion (9%) to Dutch GDP. The Netherlands is the second largest exporter of agricultural products in the world after USA. By exporting $8,8 billion ornamentals Netherlands is world top exporter, simultaneously, by exporting $8,6 billion meat as the 4$^{th}$ largest exporter after US, Brazil and Germany; by exporting $8,3 billion dairy products as the 3$^{th}$ largest exporter after Germany and New Zealand; by exporting $6,6 billion vegetables as the largest exporter and by exporting $5,3 billion oils and fats as the 4$^{th}$ largest exporter after Indonesia, Malaysia and Argentina (Source: the Ministry of Economic Affairs of the Netherlands, 2014) [2].

This is the result of a number of favorable geographical and bio-physical conditions and a pro-active and stimulating governmental policy in the past and use of innovative agrifood technology. This policy was developed and implemented over the years in good dialogue between government and farmer organizations.

The Industrial Revolution, large capital investments in agriculture and increasing use of highly trained labour force and more efficient farming technology have also led to faster success of

Netherlands agriculture. Technological innovations, research in agriculture, electronics, use of computers while operations and even space technology played a crucial role in the creation of more supply and possibilities to decrease costs.

Finally, evaluating current capabilities of our country, such as favorable location, high employment rate (37% of employed population), state programs, favorable tax regime, numerous subsidies and other concessions to support the development of agriculture by government I can make my suggestions as followings:

- **Productivity (access to new technologies) –** Increased productivity promises great benefits for both producers and consumers of agricultural products by leading higher incomes for producers and lower prices for consumers. Use of technological innovation in agriculture, such as computers, mobile apps (it diagnoses livestock illness accurately and find the most effective drugs to treat the disease), space technology, hydroponics (a technique used to grow plants without soil), biotechnology and other innovative technologies will reach productivity level of our agriculture to the same level as in developed countries. In the result of the increasing productivity the size of the labour force in agriculture will begin to shrink in total labour force, but it will increase gross output of agriculture and its share in total GDP. Advances in technology and worker productivity will bring to transfer of agriculture from labour-intensive production to technology-based production. So, the technological change should be an explicit concern of policy-makers.
- **Marketing research –** Azerbaijan has a comparative advantage in some types of the agricultural products compared to the Caucasus region, self-sufficiency rate of these products is high, even some of them exceed internal consumption (such as vegetables, garden crops, fruit and berries, grape, citrus fruits, potato, barley, cotton, beef, poultry meat and so on.). Marketing research has positive benefits in raising exports of these products for farmers and agricultural traders. Agricultural products are perishable, therefore gathering information about agricultural marketing (price, demand, supply) is vital for this area and it plays an important role in exporting and supplying of agrarian products. Considering that exports of agricultural and food products are exempted from customs duties, local farmers have easy access to many foreign markets, especially neighboring countries**.** Market research and advertising will improve the reputation of local products and their exports in the region.
- **Education** – Attracting youth to the agricultural study programs, researches, trainings and retaining them in the agriculture sector has to be challenged by Ministry of Education. In Azerbaijan, majority of the youth have not tend to choose agricultural study programs. It is very rare to find students who choose agriculture for a career. When we looked at the distribution of students by priority areas in the “State Program on Education of Azerbaijani Youth Abroad in the years 2007-2015”, only 1% of the students preferred agriculture for studying in abroad. Increased access to education and new forms of agriculture-based enterprise mean that young people can be a vital force to use technological innovation in agriculture.
- **Price floor –** In Azerbaijan farmers increasingly complain of lack of profitability of agriculture business. Therefore this sector is not attractive for investors. Government has to prevent prices from being too low by imposition price floor on some agricultural products for protecting farmers. In many industrialized countries, such as the United States and the countries within the European Union, price floors are set on agricultural production to protect the farmers. The price floors serve to encourage farmers to increase production and for attracting new investors to become involved in the agriculture business. In any case, price floor policies have some potential risks and benefits, so all of these should be accurately diagnosed. Because price supports cause larger production and smaller consumption. Anyway, for increasing the level of the exportable agricultural products, government has to impose price floor in internal market and customs duties on imports of agricultural goods. Import of low-price agricultural products has negative effects on domestic products. We have to create abundance of agricultural

products by local production, not by importing. It will help our farmers to improve their production and make them more competitive.

- **Agricultural cooperatives -** Agricultural cooperatives make an important contribution to farmers' economic, social and cultural needs in numerous countries. In the State Program on Reliable Provision of the Population with Food in the Republic of Azerbaijan for 2008-2015 government supports establishment and development of cooperatives, associations and unions in agricultural sector. Cooperatives play an important role in socio-economic system of developed countries. Market share of all agricultural cooperatives in the agriculture of the Netherlands is approximately 70%. Government has to strengthen cooperation with international organizations that support agricultural cooperatives in the world.

**İlkin Şahvələdov**

**Azərbaycan iqtisadiyyatında kənd təsərrüfatının rolunun statistik qiymətləndirilməsi**

**Xülasə**

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı hökumətin başlıca hədəflərindən biridir. Son vaxtlar dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsi bu məsələnin aktuallığını bir daha artırmışdır. Qeyri-neft sektorunun aparıcı sahələrindən biri kimi kənd təsərrüfatının ÜDM-də payının təhlili və son illər onun ÜDM-dəki payında baş verən tendensiyaların statistik qiymətləndirilməsi ölkə iqtisadiyyatı üçün əhəmiyyətlidir. Məqalədə kənd təsərrüfatının ÜDM-də payı həm nisbi, həm də mütləq ifadədə statistik təhlil aparılmış və bu sahənin inkişafı üçün təkliflər verilmişdir.

**Илкин Шахвеледов**

**Статистическая оценка роли сельского хозяйства в экономике Азербайджана**

**Резюме**

Развитие ненефтяного сектора является одной из основных целей правительства. Последние время резкого снижения цен на нефть на мировом рынке актуальность данного вопроса намного возросла. Анализ доли сельского хозяйства в ВВП как одной из ведущих отраслей ненефтяного сектора и статистическая оценка изменения тенденций вляющих на долю сельского хозяйства в ВВП имеет важное значение для национальной экономики. В последние годы в статье анализируется доля сельского хозяйства в ВВП как в относительном так и в абсолютном выражении и выдвигаются конкретные предложения для развития этой отрасли.

**Ilkin Shahvaladov**

**Statistical evaluation of the role of agriculture in the economy of Azerbaijan**

**Summary**

The development of non-oil sector in our country is one of the main goals of the government. The recent sharp decline in oil prices in the world market has increased the actuality of this issue. Analysis the share of agriculture in GDP as one of the leading area of the non-oil sector and to investigate statistical changes in agriculture sector as a component of the GDP in recent years is essential. The article analyzed the share of agriculture in GDP both in figures and interest rates and concrete suggestions for the development of this area have been made.

# References


1. State Statistical Committee of Republic of Azerbaijan. www.stat.gov.az
2. Ministry of Economic Affairs of the Netherlands, https://www.government.nl/latest/news/2015/01/16/dutch-agricultural-exports-top-80-billion-euros
3. FAO statistical yearbook 2013, "World food and agriculture", http://www.fao.org/docrep/018/i3107e/i3107e.PDF
4. The European Union's Neighbourhood Programme, "Assessment of the Agriculture and Rural Development Sectors in the Eastern Partnership countries, The Republic of Azerbaijan" Budapest–Hungary,2012, http://www.eesc.europa.eu/resources/docs/azerbaijan_assessment.pdf
5. Ministry of Agriculture of the Republic of Azerbaijan, http://www.agro.gov.az/nazirlik/
6. State Statistical Committee of the Republic of Azerbaijan, "The agriculture of Azerbaijan", Baku 2015, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/indexen.php
7. State Statistical Committee of the Republic of Azerbaijan, "Food balances of Azerbaijan", Baku 2015, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
8. Azerbaijan Export and Investment Promotion Foundation "Azerbaijan agriculture and food processing brochure", Baku 2015, http://www.azpromo.az/uploads/agriculture_broshure_web.pdf
9. Center for Economic and Social Development, "Evaluation and modeling of comparative advantages in agriculture in Azerbaijan" Baku 2015, http://cesd.az/new/wpcontent/uploads/2015/12/CESD_Research_Paper_Agriculture.pdf
10. State Programs on agriculture, http://www.agro.gov.az/nazirlik/

# ƏMƏK STATİSTİKASINA DAİR YENİ BEYNƏLXALQ STANDARTLARIN MİLLİ SƏVİYYƏDƏ TƏTBİQİ MƏSƏLƏLƏRİ

***Nemət Xuduzadə***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Əmək statistikası şöbəsinin müdiri*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: nemath@azstat.org*

**Açar sözlər:** əmək statistikası, işçi qüvvəsi, işçi qüvvəsindən tam istifadə olunmaması, əmək fəaliyyəti və onun növləri, beynəlxalq standartlar
**Ключевые слова:** статистика труда, рабочая сила, недоиспользование рабочей силы, трудовая деятельность и ее формы, международные стандарты
**Keywords:** labour statistics, labour force, labour underutilization, work activity and its forms, international standards

Əmək statistikasının müxtəlif sahələri üzrə beynəlxalq standartlar Beynəlxalq Əmək Təşkilatının (BƏT) Əmək Statistiklərinin Beynəlxalq Konfransı və Beynəlxalq Əmək Konfransında müzakirə olunur və qəbul edilir.

Belə ki, Beynəlxalq Əmək Konfransı tərəfindən qəbul edilən konvensiyalar onu ratifikasiya etmiş ölkələr üçün hüquqi öhdəlikdir. Konfrans tərəfindən qəbul edilmiş hər bir konvensiya ratifikasiya edilməsi üçün müvafiq dövr ərzində BƏT-ə üzv olan ölkələrə göndərilir. Bu konvensiyalardan irəli gələn tədbirlərin həyata keçirilməsi məqsədilə ölkələr tərəfindən milli səviyyədə müvafiq qanunlar qəbul edilir. Bununla yanaşı, konfrans tərəfindən qəbul edilmiş tövsiyələr hüquqi sənədlər əsasında milli səviyyədə tətbiq edilməsi məqsədilə üzv ölkələrə təqdim edilir. Ümumilikdə tövsiyələr ölkələr üçün məcburi xarakter daşımasa da, bu tövsiyələr beynəlxalq müqayisəliliyin təmin edilməsi üçün əsas meyar hesab olunur.

1923-cü ildən başlayaraq, hər beş ildən bir keçirilən Əmək Statistiklərinin Beynəlxalq Konfransları tərəfindən qəbul edilən beynəlxalq standartlar isə ölkələri milli statistika proqramlarının, məlumatların toplanması metodlarının, əmək statistikasına dair göstəricilər və onların metodoloji izahlarının hazırlanması üçün müvafiq tövsiyələr və qətnamələrlə təmin edir. Bu konfranslarda aparılan müzakirələrdə, qətnamə və tövsiyələrə dair qərarların qəbulunda, əsasən, üçtərəfli təmsilçilik çərçivəsində dövlət orqanı olan milli statistika idarələrinin, işəgötürən və həmkarlar təşkilatlarının nümayəndələrinin, eyni zamanda müşahidəçi statusunda beynəlxalq təşkilatların və qeyri-dövlət təşkilatlarının mütəxəssisləri iştirak edir.

Qeyd etmək lazımdır ki, əhalinin iqtisadi fəallığı, o cümlədən məşğulluq, işsizlik, iş vaxtı və s. haqqında statistik məlumatların toplanması, işlənməsi və yekunların əldə edilməsində istifadə olunan anlayışlar, təriflər və metodologiyalar milli səviyyədə hazırlanarkən Əmək Statistiklərinin 13-cü Beynəlxalq Konfransı tərəfindən qəbul edilmiş Qətnamə (1982-ci il) və bu qətnamədən irəli gələn Əmək statistikası haqqında 160 nömrəli Konvensiya və 170 nömrəli Tövsiyələrdə (1985-ci il) nəzərdə tutulmuş normalar və rəhbər prinsiplər əsas götürülür [1].

Sonrakı dövrlərdə cəmiyyətin sosial-siyasi və iqtisadi həyatının vacib sahəsi olan əmək bazarında mövcud dəyişiklikləri nəzərə alaraq, işçi qüvvəsinin qiymətləndirilməsi ilə bağlı mütəxəssislərin müxtəlif yanaşmaları olmuş və bununla əlaqədar müvafiq təkmilləşdirmə işləri aparılmasına ehtiyac yaranmışdır. Belə ki, 1998-ci və 2008-ci illərdə keçirilən Əmək Statistiklərinin müvafiq olaraq 16-cı və 18-ci konfransları tərəfindən iş vaxtının ölçülməsi, uşaq əməyi, natamam məşğulluq və əmək statistikasının digər sahələrinə dair yeni qətnamələr və beynəlxalq metodoloji göstərişlər qəbul olunmuşdur.

BƏT-in tövsiyə etdiyi beynəlxalq əmək statistikası standartları əsasında mütəmadi olaraq, ölkədə əhalinin iqtisadi fəallığı ilə bağlı statistik tədqiqat aparılır ki, bu da iqtisadi fəal və qeyri-fəal əhalinin, o cümlədən məşğul, işsiz kimi təsnifatlaşdırılan əhalinin sayını müəyyənləşdirmək üçün əsas məlumat mənbəyi hesab olunur. BƏT-in texniki və metodoloji köməyi ilə ölkədə ilk dəfə 2003-cü ildə keçirilən "Əhalinin iqtisadi fəallığı"na dair seçmə statistik müayinə əsasında milli səviyyədə bu statistik məlumatların əldə edilməsi mümkün olmuşdur. Məlumatların davamlı olaraq əldə edilməsi məqsədilə sonrakı dövrlərdə, yəni 2006-cı ildə birdəfəlik, 2007-ci ildən isə bu statistik müayinənin müntəzəm olaraq, rüblük dövriliklə həyata keçirilməsinə başlanılmışdır.

Ölkədə aparılan iqtisadi və sosial islahatların əsas istiqamətlərindən olan məşğulluğa dair siyasətin uğurla həyata keçirilməsi və işçi qüvvəsindən səmərəli istifadə edilməsi nəticəsində son 12 ildə dövlət məşğulluq xidməti orqanları tərəfindən rəsmi işsiz statusu almış işsizlər də daxil olmaqla ölkədə işsizlik səviyyəsi 9,2 faizdən 5,0 faizədək azalmışdır. Bununla yanaşı, regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar 2004-cü ildən başlayaraq qəbul edilmiş üç Dövlət Proqramı ölkənin müxtəlif regionlarında sosial-iqtisadi inkişafa böyük təsir göstərmiş, əhalinin iş yerləri ilə təmin edilməsində əhəmiyyətli rol oynamışdır. Hazırda Dövlət Proqramının üçüncü mərhələsinin yerinə yetirilməsi davam edir. Həyata keçirilmiş tədbirlər nəticəsində 2016-cı il yanvarın 1-i vəziyyətinə ölkə üzrə 1 milyon 480 min yeni iş yeri açılmışdır ki, bu da ölkədə məşğulluq səviyyəsinin artmasına səbəb olmuşdur [2].

Ölkə iqtisadiyyatında aparılan islahatların ardıcıl həyata keçirilməsi özəl sektorun inkişafında və onun iqtisadiyyatda aparıcı yer tutmasında həlledici rol oynamışdır. İqtisadiyyatda aparılan struktur dəyişiklikləri nəticəsində 2016-cı ilin əvvəlində iqtisadiyyatın qeyri-dövlət sektorunda məşğul əhalinin payı artaraq 74,8 faizə çatmışdır [2].

Hazırda müayinəyə cəlb olunmuş ev təsərrüfatlarının sayı ölkədə mövcud olan ev təsərrüfatlarının 1,0 faizini təşkil edir ki, bu da əmək bazarının təhlili zamanı vacib əhəmiyyətə malik olan əhalinin iqtisadi fəallığı haqqında ətraflı statistik məlumatların əldə edilməsinə imkan yaradır.

Dünya ölkələrində 2003-cü və 2008-ci illərdə baş verən qlobal böhran əmək bazarı və əmək münasibətlərində daha çevik yeni bir tendensiyanın meydana çıxmasına səbəb oldu. Beynəlxalq mütəxəssislərin təhlilləri əsasında müəyyən olundu ki, ölkələrdə yeni iş yerlərinin yaradılması və ya fəaliyyətlərinin bərpa edilməsi zamanı müxtəlif növ əmək fəaliyyətlərinə, o cümlədən natamam iş vaxtında çalışan, eyni zamanda məşğulluğun qeyri-formal sektorunda və müxtəlif növ təsadüfi işlərdə çalışan işçilərin sayının artması hallarına daha çox rast gəlinir. Beləliklə, əmək bazarında baş verən prosesləri nəzərə alaraq, haqqı ödənilən və haqqı ödənilməyən bütün növ işlərin və tam istifadə olunmayan işçi qüvvəsinin qiymətləndirilməsi, əmək statistikasının digər sahələrə inteqrasiyasının asanlaşdırılması, yaranmaqda olan sosial və iqtisadi məlumat ehtiyaclarının ödənilməsi üçün əmək fəaliyyətinin ümumi bir strukturunun yaradılmasına və bu məqsədlə beynəlxalq tələblərə cavab verən standartlara ehtiyac yaranmışdır.

BƏT-in mütəxəssisləri tərəfindən 160 ölkə üzrə aparılan tədqiqatın yekun nəticələri göstərir ki, 2000-2011-ci illər ərzində milli səviyyədə əldə olunan əmək fəaliyyətinin bir çox növləri haqqında məlumatlar əmək bazarının ətraflı təhlil edilməsinə, beynəlxalq müqayisəliliyin aparılmasına imkan vermir. Belə ki, müxtəlif ölkələr tərəfindən aparılan tədqiqatlarda öz istifadəsi üçün mal istehsal edən (<50%), haqqı ödənilməmək şərti ilə iş təcrübəsi keçən (<20%) və könüllülük əsasında fəaliyyət göstərən (<10%) şəxslər haqqında məlumatlar kifayət qədər nəzərə alınmamışdır[3].

Bununla əlaqədar BƏT-in müvafiq orqanı 100-dək üzv ölkənin mütəxəssisləri ilə məsləhətləşmələr aparmış, eyni zamanda müstəqil ekspertləri cəlb etməklə yeni beynəlxalq standartların hazırlanmasına nail olmuşdur. 2013-cü ilin oktyabr ayında keçirilmiş Əmək Statistiklərinin 19-cu Beynəlxalq Konfransına təqdim edilmiş "Əmək fəaliyyəti, məşğulluq və işçi qüvvəsindən tam istifadə olunmaması"na dair Qətnamə konfrans tərəfindən qəbul olunmuşdur. İlk növbədə yeni normalar müəyyən edən tövsiyə xarakterli bu qətnamə milli səviyyədə əmək statistikası sahəsində hazırlanmış mövcud statistik proqramların bu standartlara uyğunlaşdırılması üçün əsas vəsait hesab olunmalıdır.

Yeni standartların əhatə dairəsini əmək fəaliyyəti növləri, işçi qüvvəsindən tam istifadə olunmamasının qiymətləndirilməsi, əməkqabiliyyətli əhalinin təsnifləşdirilməsi, işçi qüvvəsinə daxil olmayan əhalinin təsnifatı, milli səviyyədə göstəricilər sisteminin müəyyənləşdirilməsi, məlumat mənbələrini, məlumatların mütəmadi əldə edilməsi və təqdim olunması strategiyasını, əhatə olunan əhali kateqoriyasını və göstəricilərin təhlilini özündə əks etdirən məlumatların toplanması metodları təşkil edir. Nəzərdə tutulan beynəlxalq tövsiyələrdə əsas dəyişikliklər əmək fəaliyyəti və onun növləri çərçivəsində yeni konsepsiya, məşğulluğun yeni tərifinin verilməsi, məşğulluq anlayışını istisna etməklə ayrıca qiymətləndirilən digər əmək fəaliyyəti növləri, əməkqabiliyyətli əhalinin strukturu, işçi qüvvəsindən tam istifadə olunmamasının qiymətləndirilməsi və öz ehtiyacları ilə bağlı qida məhsulları istehsal edən şəxslər üçün yeni göstəricilər kimi xarakterizə olunur.

*"Əmək fəaliyyəti"*nin beynəlxalq statistik izahı ilk dəfə Əmək Statistiklərinin 19-cu Beynəlxalq Konfransı tərəfindən qəbul edilmiş "Əmək fəaliyyəti, məşğulluq və işçi qüvvəsindən tam istifadə olunmaması"na dair Qətnamədə öz əksini tapmışdır. Belə ki, *əmək fəaliyyəti* – başqa şəxslərin istifadəsi və ya şəxsi istehlak məqsədilə cins və yaş qruplarından asılı olmayaraq, şəxslər tərəfindən mal istehsalı və ya xidmət göstərilməsi istiqamətində görülən bütün fəaliyyət növləridir. Rəsmi, qeyri-rəsmi və hüquqi statusundan asılı olmayaraq, bütün məhsuldar fəaliyyətlər əmək fəaliyyəti kimi qəbul edilir. Beləliklə, əmək fəaliyyətinə dair yeni konsepsiya işlənib hazırlanmış və bu Milli Hesablar Sisteminin (MHS-08) ümumi istehsal sərhədləri çərçivəsinə tam uyğunlaşdırılmışdır.

Nəzərə almaq lazımdır ki, əmək fəaliyyəti dedikdə ancaq əhalinin məşğulluğu nəzərdə tutulmur. Yeni konsepsiyaya uyğun olaraq, əmək fəaliyyətinin növləri aşağıdakı kimi xarakterizə olunur [4],[5]:

(i) *şəxsi istehlak üçün mal istehsalı və xidmət göstərilməsi ilə bağlı əmək fəaliyyəti* – şəxsin son istifadəsi üçün mal istehsalı və xidmət göstərilməsi (ev təsərrüfatları tərəfindən);
(ii) *məşğulluq* – əmək haqqı və ya gəlir formasında haqqının ödənilməsi müqabilində digərləri üçün mal istehsalı və xidmət göstərilməsi;
(iii) *haqqı ödənilməyən işlərdə təcrübə və peşə hazırlığı keçən şəxslərin əmək fəaliyyəti* – iş təcrübəsi və bacarığı əldə etmək üçün haqqı ödənilməmək şərti ilə mal istehsalı və xidmət göstərilməsi;
(iv) *könüllü əmək fəaliyyəti* – könüllülük prinsipi əsasında digər şəxslər üçün mal istehsalı və xidmət göstərilməsi ilə məşğulolma;
(v) *digər əmək fəaliyyətləri* – bu fəaliyyət növünə haqqı ödənilməyən icbari iş (mal istehsalı və xidmətgöstərmə) daxil edilə bilər. Qeyd etmək lazımdır ki, bu fəaliyyət növü mövcud sənəddə dəqiq müəyyən olunmamışdır.

Göstərildiyi kimi, yeni konseptual çərçivədə əmək fəaliyyəti statistikasının MHS-2008-in ümumi istehsal sərhədləri ilə uyğunluğu əyani surətdə aşağıdakı diaqramda öz əksini tapır:

<table>
<tr><td>Məhsulun təyin olunması</td><td colspan="2">Şəxsin son istehlakı üçün</td><td colspan="6">Digərlərinin istifadəsi üçün</td></tr>
<tr><td rowspan="3">Əmək fəaliyyətinin növləri</td><td colspan="2">Şəxsi istehlak üçün mal istehsalı və xidmət göstərilməsi</td><td rowspan="3">Məşğulluq (haqqı ödənilən)</td><td rowspan="3">Haqqı ödənilməyən təcrübə və peşə hazırlığı keçən şəxslər</td><td rowspan="3">Digər əmək fəaliyyəti</td><td colspan="3">Könüllü əmək fəaliyyəti</td></tr>
<tr><td rowspan="2">xidmətlər</td><td rowspan="2">mallar</td><td rowspan="2">ev təsərrüfatla-rında görülən işlər istisna olmaqla digər işlər</td><td colspan="2">ev təsərrüfatlarında</td></tr>
<tr><td>mallar</td><td>xidmətlər</td></tr>
<tr><td rowspan="2">MHS-08 ilə əlaqə</td><td rowspan="2"></td><td colspan="6">MHS-nin istehsal sərhədləri üzrə fəaliyyətlər</td><td></td></tr>
<tr><td colspan="7">MHS-nin ümumi istehsal sərhədləri üzrə fəaliyyətlər</td></tr>
</table>

Əmək fəaliyyətinin konseptual çərçivədə tətbiqi nəticəsində yeni standartların əvvəlki meyarlardan əsas prinsipial fərqi əməkqabiliyyətli yaşda olan əhalinin *"iqtisadi fəal"* və *"iqtisadi qeyri-fəal"* əhali kateqoriyalarına deyil, yeni normalara uyğun olaraq, məşğul və işsiz əhalidən ibarət olan *"işçi qüvvəsi"* və hesabat dövründə məşğulluq və işsizlik kateqoriyalarına aid olmayan *"işçi qüvvəsindən kənar qalan əhali"* kimi təsnifləşdirməkdən ibarətdir.

Eyni zamanda əmək bazarında "tam istifadə olunmayan işçi qüvvəsi" və "potensial işçi qüvvəsi"nin iqtisadi fəallığının, həmçinin "məşğul olmaq istəməyən" əhali qrupunun qiymətləndirilməsi nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, işçi qüvvəsi ilə bağlı statistik müayinənin keçirilməsi zamanı müayinəyə əməkqabiliyyətli yaşda olan əhali kateqoriyasının cəlb olunması bir şərtdir. Yeni meyarlara uyğun olaraq, əməkqabiliyyətli yaşda olan əhali kateqoriyasının minimum yaş həddi milli qanunvericiliyə uyğun (ölkələr üzrə müxtəlif yaş həddi nəzərdə tutulur), yuxarı yaş həddi isə hər hansı bir məhdudiyyət nəzərdə tutulmadan tənzimlənir. Bu isə o deməkdir ki, minimum yaş həddi və ondan yuxarı bütün yaş qruplarında olan əhalinin hər birinin əmək bazarında iştirakı qiymətləndirilməli və bu kateqoriyalı əhalinin əmək fəaliyyəti haqqında daha ətraflı məlumatlar əldə edilməlidir.

Əmək bazarında tam istifadə olunmayan işçi qüvvəsinə aid olan əhali kateqoriyasını qiymətləndirmək üçün tövsiyə olunan aşağıdakı 4 göstəricidən (üç göstəricinin adı beynəlxalq səviyyədə müəyyən olunmamışdır) istifadə olunur [4].

**1.** İşsizlik səviyyəsi**:**

[işsizlərin sayı / işçi qüvvəsinin sayı] x 100

**2.** Natamam iş vaxtında məşğul olan əhali və işsiz əhalinin səviyyəsini əks etdirən ümumi göstərici**:**

[(natamam iş vaxtında məşğul olan əhalinin sayı + işsizlərin sayı) / işçi qüvvəsinin sayı] x 100

**3.** İşsiz əhali və potensial işçi qüvvəsinin səviyyəsini əks etdirən ümumi göstərici:

[(işsiz əhali + potensial işçi qüvvəsinin sayı) / (ümumi işçi qüvvəsinin sayı[1])] x 100

**4.** Tam istifadə olunmayan işçi qüvvəsini əks etdirən ümumi göstərici:

[(natamam iş vaxtında məşğul olan əhalinin sayı + işsizlərin sayı +
+ potensial işçi qüvvəsinin sayı) / (ümumi işçi qüvvəsinin sayı)] x 100

Ümumiyyətlə, yeni standartlar əmək bazarında baş verən proseslərin ətraflı qiymətləndirilməsinə mühüm təsir göstərir. Belə ki, əvvəlki meyarlardan fərqli olaraq, məşğul əhali kateqoriyasına ancaq əmək haqqı və ya gəlir əldə etməklə əmək fəaliyyəti göstərən muzdla çalışan işçilər və özünüməşğul əhali daxil edilir. Şəxsi istehlakı üçün mal istehsalçıları, könüllü əmək fəaliyyəti göstərən şəxslər, eləcə də haqqı ödənilməyən işlərdə peşə hazırlığı keçən şəxslər kimi digər kateqoriyalı əhali məşğul əhalinin tərkibinə daxil edilmir və bu fəaliyyətlə məşğul olan əhali əmək fəaliyyətinin fərqli növləri kimi ayrı-ayrılıqda müşahidə və təhlil edilir. Eyni zamanda işsiz əhali həm işçi qüvvəsinin, həm də işçi qüvvəsindən kənar qalan əhali kateqoriyasına aid olan potensial işçi qüvvəsinin tərkibində müvafiq meyarlar əsasında müəyyən olunur. Yekun olaraq, məşğulluq statusunun mahiyyəti əvvəlkindən fərqli olaraq tam şəkildə dəyişir. Bu isə əmək bazarında baş verən proseslərin daha ətraflı təhlilinin aparılmasına imkan yaradır.

**Nəticə.** Əmək bazarının yeni beynəlxalq standartlara uyğun qiymətləndirilməsi zamanı əməkqabiliyyətli əhalini təşkil edən işçi qüvvəsinin sayının dəyişməsi müşahidə olunur. Beynəlxalq mütəxəssislərin ilkin təhlillərinin nəticəsi onu göstərir ki, işçi qüvvəsinin sayının dəyişməsinin səbəbi əhalinin məşğulluq səviyyəsinin azalması, işsizlik səviyyəsinin isə artması ilə əlaqədardır.

---

[*] Ümumi işçi qüvvəsinin sayı = işçi qüvvəsinin sayı + potensial işçi qüvvəsinin sayı

Beləliklə, əmək fəaliyyətini xarakterizə edən fəaliyyət növlərinin ölkənin əmək bazarında mövcudluğunu və aktuallığını nəzərə alaraq, onların milli qanunvericilikdə hüquqi əsaslarının olması mövzusunda ölkədə statistik məlumatların istifadəçilərinin, o cümlədən müvafiq dövlət orqanlarının, işəgötürən və həmkarlar təşkilatlarının, eyni zamanda elmi-tədqiqat institutlarının və qeyri-dövlət təşkilatlarının mütəxəssislərinin iştirakı ilə müzakirələrin aparılması məqsədəuyğundur.


**Nemət Xuduzadə**

**Əmək statistikasına dair yeni beynəlxalq standartların milli səviyyədə tətbiqi məsələləri**

**Xülasə**

Məqalədə son illərdə BƏT-in Əmək Statistiklərinin Beynəlxalq Konfransı və Beynəlxalq Əmək Konfransı tərəfindən əmək statistikası ilə bağlı qəbul olunmuş konsepsiyalar, standartlar, metodologiyalar, anlayışlar və s. barədə onların ölkədə tətbiqi nəticəsində əldə olunmuş yekunlar haqqında geniş məlumat verilir. BƏT-in tövsiyələrinin ölkənin əmək statistikası sahəsində tətbiqi nəticəsində əldə olunan məlumatların beynəlxalq müqayisəliliyinin təmin olunmasına xüsusi diqqət yetirilir. Məqalədə beynəlxalq standartların tətbiqi, əldə olunan nəticələrlə yanaşı, ölkədə əmək statistikası sahəsində yeniliklərin statistik məlumat istifadəçiləri, o cümlədən dövlət və qeyri-dövlət orqanlarının, işəgötürən və həmkarlar təşkilatlarının mütəxəssisləri, tədqiqatçılar ilə müzakirəsinin əhəmiyyətli olacağı tövsiyə edilir.



**Немат Худузаде**

**Вопросы применения новых международных стандартов статистики труда на национальном уровне**

**Резюме**

В статье представлена широкая информация о концепциях, стандартах, методологиях, определениях и др. по статистике труда, принятых за последние годы на Международной Конференции Статистиков Труда и Международной Конференции Труда, и об итогах их использования в стране. Особое внимание уделяется обеспечению международной сопоставимости итогов, полученных при использовании в статистике труда страны рекомендаций МОТ. В статье рекомендуется уделять особое внимание распространению и обсуждению применения международных стандартов, полученных итогов, инноваций в статистике труда среди пользователей, в том числе среди специалистов государственных и негосударственных органов, работодателей, профсоюзов и других исследователей.



**Nemat Khuduzade**

**Issues of application of new international standards on labour statistics at the national level**

**Summary**

The article includes information on concepts, standards, methodologies, definitions and etc. adopted with regard to labour statistics at ILO International Conference of Labour Statisticians (ICLS) and International Labour Conference (ILC) during last years and information about the results of their application in the country. Special attention is paid on provision of international comparability of information obtained due to application of ILO recommendations in the country labour statistics. The article specifies importance of application of international standards and dissemination and discussion of improvements, along with the achieved results in the field of labour statistics of the country, among users of statistical information as well as specialists of government and non-government authorities, employers and trade unions, and researchers.

## Ədəbiyyat:


1. Surveys of economically active population, employment, unemployment and underemployment: An ILO manual on concepts and methods. Ralf Hussmanns, Farhad Mehran and Vijay Verma. ILO, Geneva 1990
   http://www.ilo.org/public/english/bureau/stat/download/lfs.pdf
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
   http://www.stat.gov.az
3. Beynəlxalq Əmək Təşkilatı
   http://www.ilo.org/global/statistics-and-databases/meetings-and-events/meeting-of-experts/WCMS_321087/lang--en/index.htm
4. Əmək Statistiklərinin 19-cu Beynəlxalq Konfransı:
   http://www.ilo.org/19thicls
5. Рекомендации по применению в статистической практике методологических положений по измерению трудовой деятельности, занятости и недоиспользованной рабочей силы с учетом резолюции 19-й Международной конференции статистиков труда (МКСТ), Межгосударственный статкомитет СНГ, Москва 2015.

# AZƏRBAYCANDA LİZİNQİN NORMATİV-HÜQUQİ BAZASININ TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Aslan Məmmədov***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*"Marketinq" kafedrasının dosenti, i.e.n.*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: aslantahiroglu@gmail.com*

**Açar sözlər**: lizinq, lizinq sövdələşmələri, istehsalçı, lizinq verən, lizinq alan, lizinqin normativ-hüquqi bazası.
**Ключевые слова:** лизинг, лизинговые сделки, производитель, лизингодатель, лизингополучатель, нормативно-правовая база лизинга.
**Keywords:** leasing, leasing transactions, producer, lessor, lessee, regulatory and legal framework of the lease.

İqtisadi ədəbiyyatlarda lizinq – maşın və avadanlıqların, nəqliyyat vasitələrinin, istehsal qurğularının, uzun müddət işlədilən qurğuların, istehsal təyinatlı binaların və digər daşınan və daşınmayan əmlakın sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə uzun müddətə icarəyə verilməsi kimi izah edilir. Bu icarə formasının tətbiqi icarəçiyə böyük məbləğdə kapital qoyuluşu həyata keçirmədən müasir və baha qiymətli texnikadan istifadə etmək və icarə haqqını tədricən həmin avadanlıqların və digər texniki vəsaitlərin istismarından əldə olunan mənfəət hesabına ödəməyə imkan verir.

Lizinq icarə münasibətlərinin bir forması olsa da, onun icarədən aşağıdakı prinsipial fərqləri vardır:

- icarədən fərqli olaraq, müqavilə obyekti lizinq verən tərəfindən deyil, lizinq alan tərəfindən seçilir;
- lizinq müqaviləsinin müddəti lizinq obyektinin fiziki köhnəlmə müddətindən azdır və vergi amortizasiyası müddətinə yaxındır;
- kontraktın müddəti qurtardıqda müştəri icarəni güzəştli şərtlərlə uzada bilər;
- lizinq verən rolunda bir qayda olaraq, maliyyə təşkilatı – lizinq şirkəti çıxış edir;
- lizinq obyektinin istehsalçısını lizinq alan axtarıb tapır və onunla həmin obyektin texniki-istismar və digər parametrlərini razılaşdırır;
- icarə müqaviləsində iki tərəf − icarəyə verən və icarəçi iştirak etdiyi halda, lizinq müqaviləsində üç tərəf: istehsalçı, lizinq verən və lizinq alan iştirak edir.

Lizinq əməliyyatları onun bütün iştirakçıları üçün iqtisadi cəhətdən çox səmərəlidir. Belə ki, lizinq əməliyyatları nəticəsində lizinq alan lizinq obyektinin dəyərini həmin obyektdən istifadə edilməsi nəticəsində əldə edilən gəlirlər hesabına ödəyə bildiyindən əlavə maliyyə vəsaiti və ya kredit almadan çox baha olan əmlakı əldə etmək imkanı qazanır. Əksər hallarda həmin məhsula texniki xidmət məsələsi satıcı (mal verən) müəssisə tərəfindən təşkil edildiyindən lizinq alan müəssisə həmin avadanlığın təmiri üçün əlavə işçi saxlamaq problemlərindən azad olur. Bundan başqa avadanlığa xidmət işi satıcı (mal verən) tərəfindən həyata keçirildiyindən o, istismar müddətində lizinq obyektinin texnoloji və konstruktor çatışmazlıqlarını vaxtında aşkar etmək və aradan qaldırmaq imkanına malik olur. Bu isə satıcı ilə lizinq alan arasında əks əlaqənin yaradılmasına, məhsulun texniki-istismar və keyfiyyət parametrlərinin yaxşılaşdırılması üzrə təkliflərin alınmasına və son nəticədə isə məhsulun istehlakçının tələbatına uyğunlaşdırılması üzrə tədbirlərin hazırlanmasına və həyata keçirilməsinə gətirib çıxarır.

Satıcı müəssisələr üçün lizinq: 1) istehsal edilmiş məhsulların təminatlı satış kanalıdır; 2) aktiv marketinq vasitəsi, bazar ekspansiyası və rəqiblərin sıxışdırılması alətidir; 3) istehlakçılarla əks əlaqə yaratmaq vasitəsidir; 4) icarə hesabına məhsul istehsalının yeniləşmə tempinin sürətləndirilməsinə; 5) yeni müştərilərin cəlb edilməsinə; 6) kapitalın və sərbəst pul aktivlərinin daha sərfəli şərtlərlə yerləşdirilməsinə və 7) daha yüksək mənfəət əldə edilməsinə şərait yaradır.

İqtisadiyyatın inkişafında lizinqin oynadığı rolu nəzərə alaraq, ölkəmizdə də onun inkişafına xüsusi diqqət yetirilir. Belə ki, ölkəmizdə lizinq əməliyyatlarının həyata keçirilməsini tənzimləyən qanunvericilik aktları, həmçinin həyata keçirilən iqtisadi islahatlar lizinq kompaniyalarının yaradılması və onların fəaliyyətinin genişləndirilməsi üçün möhkəm təməl yaratmışdır. Keçən illər ərzində ölkəmizdə yaradılan lizinq kompaniyalarının və bankların lizinq bölmələrinin sayı və onların lizinq portfelinin həcmi artmağa başlamışdır. Hazırda ölkəmizdə bir sıra lizinq kompaniyaları: “Aqrolizinq”, “AG Leasing”, “Joint Lizinq Kompani”, “Atalizinq”, “Azərbaycan Sənaye Lizinq” MMC, “AZ Lizinq”, “Uluxanlı Lizinq” və s. fəaliyyət göstərir. Bu lizinq kompaniyaları ölkə müəssisələrinə müxtəlif avadanlıq, texnika və bu kimi digər istehsal-texniki təyinatlı məhsulların lizinqə verilməsini həyata keçirir. Məsələn, 1999-cu ildə yaradılmış “Joint Lizinq Kompani” lizinq kompaniyası xüsusi texnikanın, nəqliyyat vasitələrinin, istehsal avadanlıqlarının, məhsul emalı üçün avadanlıqların, həmçinin xidmət sferası üçün avadanlıqların lizinqə verilməsi ilə məşğul olur.

Ölkəmizdə fəaliyyət göstərən ən böyük lizinq kompaniyalarından biri kənd təsərrüfatı texnikasının çatışmazlığının aradan qaldırılması, fermerlərə güzəştli şərtlərlə texnika və avadanlıqların lizinqə verilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2004-cü il Sərəncamı ilə yaradılmış "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətidir. Lizinq kompaniyasının fəaliyyəti, əsasən, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir. "Aqrolizinq" MMC 2005-2014-cü illər ərzində 8415 fiziki və hüquqi şəxsə ümumilikdə 14564 ədəd kənd təsərrüfatı texnikası, o cümlədən 527 ədəd taxılyığan kombayn, 5241 ədəd traktor, 112 ədəd ekskavator və 8684 ədəd digər kənd təsərrüfatı texnikasını lizinqə vermişdir [6]. "Aqrolizinq" MMC kənd təsərrüfatı texnikasının lizinqi ilə yanaşı, fermerlərə iri və xırda buynuzlu cins heyvanların, texnoloji avadanlıqların lizinqə verilməsini, həmçinin onların mineral gübrələrlə və herbisidlərlə təchiz edilməsini, aqrotexniki və digər xidmətlər göstərir.

Ölkəmizdə lizinqin inkişafında baş verən bu müsbət meyillərə baxmayaraq, müəssisələrin əsas vəsaitlərinə investisiya qoyuluşunda onun payı hələ də çox aşağı səviyyədədir. Belə ki, bu göstərici Türkiyədə 6,3%, Rusiyada 5,7%, Qazaxıstanda 1,5% təşkil etdiyi halda, ölkəmizdə onun səviyyəsi cəmi 0,43% təşkil edir. Bundan başqa 2008-ci ildən bəzi imtiyazlar dayandırıldığına görə Azərbaycanın lizinq bazarındakı artım nisbətən azalmışdır. Məsələn, 2008-ci ildə lizinq bazarının portfel həcmi 200 milyon ABŞ dollarına çatmışdırsa, 2010-2011-ci illərdə bu göstərici 150 milyon dollardan artıq olmamışdır [7]. Bunlar ölkəmizdə lizinq əməliyyatlarının inkişafı sahəsində böyük ehtiyatların mövcud olmasını bir daha sübut edir.

Hər bir sahibkarlıq fəaliyyəti kimi lizinq əməliyyatlarının inkişafı da həlledici dərəcədə mütərəqqi, mükəmməl və işlək normativ-hüquqi bazanın mövcudluğundan asılıdır. Bəzi məlumatlara görə son 30-40 ilə qədər əksər inkişaf etmiş ölkələrdə də lizinq sövdələşmələri xüsusi qanunla deyil, əmlakın müvəqqəti icarəyə verilməsini tənzimləyən ümumi normalarla tənzimlənirdi. Bu normativ aktlarda lizinqin tərifi və onun birmənalı izahı verilmişdir. Son illərdə isə bir çox ölkələrin mülki hüququnda lizinqi və onun ayrı-ayrı formalarını tənzimləyən xüsusi qanunlar və normativ-hüquqi sənədlər qəbul edilmişdir. Bu sənədlərdə onun tərifi və bu sövdələşmələri tənzimləyən maddələr verilmişdir. Bu sənədlərin qəbulu baxımından dünya ölkələrini aşağıdakı üç qrupa bölmək olar:

- lizinq sövdələşmələrini tənzimləyən xüsusi qanunları olan ölkələr: Bu ölkələrdə qəbul edilmiş qanunların xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bu qanunlar yalnız lizinq sövdələşmələrinin iki iştirakçısı, lizinq verənlə lizinq alan arasındakı münasibətləri deyil, həm də onun digər iştirakçıları, o cümlədən məhsul göndərən müəssisə arasında yaranan münasibətləri də tənzimləyir. Bu qanunların müddəalarına görə lizinq müqavilələrində əmlakın sonradan icarəyə verilmək məqsədilə satınalınması, həmin əmlakdan yalnız peşəkar məqsədlər üçün istifadə edilməsi və müqavilə müddəti başa çatdıqdan sonra lizinqi alanın həmin əmlakı satınalma hüququnun olması göstərilməlidir. Bunlarla yanaşı,

lizinq sövdələşmələrində yaranan risklər və məsuliyyət məsələsi mülki və ticarət hüququnun ümumi normaları ilə həll edilir;

- xüsusi qanun aktları olan ölkələr: Bu ölkələrdə lizinq sövdələşmələrinin hüquqi tənzimlənməsi müvəqqəti istifadəyə verilən əmlakın dəyərindən və lizinq müqaviləsinin subyektlərindən asılı olaraq həyata keçirilir. Məsələn, İngiltərədə əgər müvəqqəti istifadəyə verilən əmlakın dəyəri 2000 funt sterlinqdən çox deyilsə və lizinqi alan hüquqi şəxsdirsə, onda tərəflər arasındakı münasibətlər icarə-satış haqqında Qanunla tənzimlənir. Buna uyğun gəlməyən bütün hallarda isə bu münasibətlər "ümumi hüquq" normaları ilə həll edilir;
- xüsusi qanunvericilik aktları olmayan ölkələr: Bu hal həmin ölkələrdə lizinqin inkişafına müəyyən qədər mane olur. Bu, son illərə kimi həmin ölkələrdə lizinqdən istifadə edilməsinin amortizasiya və vergi güzəştləri əsasında stimullaşdırılması ilə izah edilir. Bu stimullaşdırıcı amillər isə vergitutma məsələlərini tənzimləyən qanunvericilik aktlarında nəzərdə tutulur.

Hazırda ölkəmizi birinci qrup ölkələrə aid etmək mümkündür. Belə ki, Azərbaycanda lizinq münasibətləri 29 noyabr 1994-cü ildə qəbul edilmiş "Lizinq xidməti haqqında" Azərbaycan Respublikası Qanunu və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir. Hər iki qanunvericilik aktı ölkəmizdə lizinq münasibələrini tənzimləyir, onun subyektlərini, formalarını və lizinq müqaviləsinin iştirakçılarının məsuliyyətini müəyyənləşdirir və s.

İstər "Lizinq xidməti haqqında" Azərbaycan Respublikasının Qanununun, istərsə də Azərbaycan Respublikasının Mülki Məcəlləsinin lizinqə aid maddələrinin məzmununun təhlili və onun Avropa ölkələrinin qanunvericilik aktları ilə müqayisəsi göstərir ki, onun həm bir sıra üstünlükləri, həm də bəzi çatışmazlıqları vardır. Belə ki, əksər Avropa ölkələrinin qanunvericilik aktlarında göstərildiyi kimi ölkəmizin bu qanunvericilik aktlarında lizinq müqaviləsi predmetinin sonradan icarəyə verilmək məqsədilə götürülməsi, müqavilə müddəti başa çatdıqdan sonra lizinq alana həmin əmlakı satın almaq hüququnun verilməsi və satınalma zamanı onun qiymətinin müəyyən edilməsi qaydası göstərilir.

Ölkəmizin lizinq üzrə qanunvericilik aktlarının digər üstünlüyü həm daşınan, həm də daşınmaz əmlakın icarəyə verilməsinin nəzərdə tutulmasıdır. Çünki bir sıra Avropa ölkələrində lizinq qanunvericiliyində yalnız daşınmaz əmlakın lizinqə verilməsi nəzərdə tutulur. Lakin praktikada elə hallar olur ki, lizinqə götürülməsi nəzərdə tutulan əmlak həm daşınan, həm də daşınmaz əmlakdan (məsələn, zavod və fabriklər) ibarət olur. Özü də ölkəmizin müəssisələrinin texnika və texnologiya cəhətdən inkişaf etmiş ölkələrdən geri qalması tam tsikllı müəssisələrin lizinqə götürülməsini çox vacib edir. Onda göstərilən qanunvericilik aktının tələbinə görə həmin zavodun və ya fabrikin bir hissəsi lizinqə götürülə bilər, digər hissəsi isə bu yolla alına bilməz. Bu praktikada müəyyən çətinliklər və mürəkkəbliklər yaradır. Ölkəmizin qanunvericilik aktında həm daşınan, həm də daşınmaz əmlakın lizinqə verilməsinin nəzərdə tutulması belə halların qarşısını alır.

Ölkə qanunvericilik aktlarının ən mühüm üstünlüklərindən biri də lizinq predmetinin dövlət qeydiyyatına alınmasını nəzərdə tutmasıdır. Mülki Məcəllənin 748-5 maddəsində göstərilir ki, "lizinq müqaviləsinin obyekti olan əmlaka hüquqlar bu Məcəllədə nəzərdə tutulan hallarda bu Məcəlləyə və digər normativ-hüquqi aktlara uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatına alınmalıdır". Hazırda ölkəmizdə lizinqə verilmiş əmlakın qeydiyyatı Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən həyata keçirilir. Bu halın nəzərdə tutulması lizinqə götürülmüş əmlakın lizinq verənin icazəsi olmadan lizinq alan müəssisə tərəfindən onun üçüncü şəxslərə satılmasının, icarəyə verilməsinin və digər qanundankənar əməliyyatlara yol verilməsinin qarşısını müəyyən qədər alır.

Yuxarıda qeyd etdiyimiz kimi, ölkəmizin qanunvericilik aktlarının bir sıra çatışmazlıqları da vardır. Bura hər şeydən əvvəl bu qanunvericilik aktları arasında uyğunluğun olmaması, Mülki Məcəlləyə nisbətən "Lizinq xidməti haqqında" Qanunun daha məhdud olmasıdır. Lizinq bazarını inkişaf etdirmək məqsədilə hər şeydən əvvəl bu qanunvericilik aktları arasında uyğunluq yaratmaq, onların hər ikisində olan çatışmazlıqları aradan qaldırmaq lazımdır.

“Lizinq xidməti haqqında” Azərbaycan Respublikası Qanununun 6-cı maddəsində göstərilir ki, “lizinq müqaviləsinin obyekti istehsal təyinatlı binalar, dəzgahlar, maşınlar, avadanlıqlar, nəqliyyat vasitələri və digər əmlaklar ola bilər”. Bu maddə lizinq obyektlərinin siyahısını məhdudlaşdırır. Belə ki, bu maddənin məzmunundan belə nəticə çıxarmaq olur ki, zavodlar, təyyarələr, ofis texnikası, kompüterlər və bu kimi digər əmlaklar lizinqə verilə bilməz. Halbuki həmin məhsullar da lizinqə verilir və aparılmış təhlil göstərir ki, onlar lizinq sövdələşmələrində böyük paya malikdir.

Bunu nəzərə alaraq, Mülki Məcəllədə bu məhdudiyyətlər aradan qaldırılmış və onun 747-2 maddəsində göstərilir ki, Azərbaycan Respublikası qanunlarına əsasən mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar istisna olmaqla qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid olan daşınan və daşınmaz əşyalar lizinq müqaviləsinin obyektinə aid edilmişdir. Lakin lizinqə veriləcək əmlakın bu cür məhdudlaşdırılmaması da düzgün deyildir. Çünki bu maddəni tətbiq etməklə istənilən əmlakı şəxsi məqsədlər üçün də lizinqə götürmək mümkündür (hazırda ölkəmizdə praktikada bu cür hallara rast gəlinir. Məsələn, minik avtomobillərini şəxsi istifadə üçün götürmək olur). Halbuki lizinq sövdələşmələri, əsasən, sahibkarlığın inkişafı üçün nəzərdə tutulmuşdur və şəxsi məqsədlər üçün məhsulların satınalınması satış müqaviləsi və yaxud kirayə müqaviləsi ilə tənzimlənir. Deməli, “Lizinq xidməti haqqında” Azərbaycan Respublikası Qanunu lizinq obyektlərinin siyahısını məhdudlaşdırsa da, Mülki Məcəllədə onun siyahısı həddən artıq genişdir və digər müqavilə münasibətləri ilə qarışdırılır. Qeyd edilən çatışmazlığı aradan qaldırmaq məqsədilə, bizim fikrimizcə, hər iki qanunvericilik aktında "sahibkarlıq fəaliyyəti üçün nəzərdə tutulan və Azərbaycan Respublikasının qanunlarına əsasən mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar istisna olmaqla qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid olan daşınan və daşınmaz əmlak lizinq müqaviləsinin obyektinə aid edilir” kimi verilməlidir.

Lizinq üzrə ölkə qanunvericilik aktlarının əsas çatışmazlıqlarından biri də lizinq müəssisələrinin təsisçilərinin kimlərin olmasına və yaxud lizinq əməliyyatlarının aparılmasının hansı təşkilatlara (müəssisələrə) icazə verilməsi məsələsinin göstərilməməsidir. Bir çox dünya ölkələrində lizinq kompaniyalarının təsisçilərinə və lizinq sövdələşmələrini həyata keçirən müəssisələrə məhdudiyyətlər qoyulmuşdur, ayrı-ayrı müəssisə və təşkilatlara lizinq kompaniyalarının təsisçi olmasına və lizinq əməliyyatlarının həyata keçirilməsinə icazə verilmir. Məsələn, ABŞ-da banklar lizinq kompaniyalarının təsisçisi ola bilər, ancaq birbaşa lizinq əməliyyatlarını həyata keçirə bilməz, tərkibində bu əməliyyatları həyata keçirən bölmə yarada bilməz. Bunu nəzərə alaraq, ölkə qanunvericilik aktlarında belə bir məhdudiyyətin olub-olmaması məsələsi belə bir məhdudiyyətin olduğu halda isə məhdudiyyət qoyulan təşkilatların (müəssisələrin) siyahısı verilməlidir.

“Lizinq xidməti haqqında” Azərbaycan Respublikasının Qanununda lizinq müqaviləsinin müddətinin yuxarı həddinin lizinq obyektinin texniki sənədlərində nəzərdə tutulan istismar müddətindən artıq olmaması göstərilsə də (maddə 5, bənd 4), Mülki Məcəllədə onun müddəti, ümumiyyətlə, göstərilmir. Bu isə lizinq müqaviləsinin (əmlakın istismar müddətindən artıq olmamaqla) istənilən müddətə bağlanmasına və sahibkarların qanundankənar əməliyyatlar həyata keçirməsinə şərait yarada bilər. Bunu aradan qaldırmaq məqsədilə beynəlxalq praktikada olduğu kimi, bu qanunvericilik aktlarında lizinq müqaviləsinin müddətinin göstərilməsi və onun müddətini lizinqə verilən predmetin amortizasiya müddətinə bərabər götürülməsi daha məqsədəuyğun olardı.

Lizinq münasibətlərinin nomativ-hüquqi bazasını hazırlayarkən lizinq müqavilələrinin hüquqi təbiətinin, mahiyyətinin və onun digər müqavilələrdən fərqləndirici xüsusiyyətlərinin nəzərə alınması da çox aktual məsələdir. Hazırda bu məsələnin həllində iki yanaşma mövcuddur. Birinci yanaşmada lizinq sövdələşmələri zamanı meydana çıxan bütün münasibətlər mülki qanunvericilik normaları − tapşırıq, icarə, borc müqavilələri baxımından izah edilir.

Düzdür, lizinq müqavilələrinə tapşırıq müqaviləsi normalarının bəzi xüsusiyyətləri xasdır. Lakin lizinq münasibətləri yalnız qeyd edilən münasibətlərlə məhdudlaşmır və bu normalara nisbətən daha geniş və mürəkkəbdir.

Lizinq müqavilələrinə bəzən icarə müqaviləsinin bir forması kimi də baxılır. Lakin lizinq müqaviləsində lizinq verənlə lizinq alanın hüquq və öhdəlikləri icarə müqaviləsindəki icarədarla

icarəyə verənin hüquq və öhdəliklərinə adekvat deyildir, yəni onlar bir-birindən xeyli fərqlənir. Lakin bu fərqlərlə yanaşı, bu iki müqavilənin bir çox ümumi cəhətləri də vardır.

Lizinq müqaviləsi öz mahiyyətinə görə kirayə müqaviləsinə daha yaxındır. Lakin bu düzgün deyildir. Çünki kirayə müqaviləsi ikitərəfli müqavilə olduğu, qısa müddətə bağlandığı, kirayə verilən məhsula xidmət göstərilməsi kirayəçi tərəfindən həyata keçirildiyi və məhsula olan tələblər kirayəyə verən müəssisə tərəfindən müəyyənləşdirilirdiyi halda, lizinq müqaviləsi üçtərəfli müqavilədir: uzun müddətə bağlanılır, məhsula olan tələbat və ona göstəriləcək xidmətlər, habelə bu sahədə meydana çıxacaq problemlər lizinq alanla satıcı (mal verən) arasında həll edilir.

Lizinq müqaviləsi ilə kredit münasibətlərinin yalnız iqtisadi baxımdan oxşarlığından danışmaq olar. Çünki lizinq alan lizinq verənlə pul müqaviləsi bağlamır.

"Lizinq xidməti haqqında" Qanunun ən başlıca çatışmazlıqlarından biri burada lizinq müqaviləsi iştirakçılarının, lizinq subyektlərinin qarşılıqlı münasibətlərinin, öhdəliklərinin və məsuliyyətinin göstərilməməsidir. Bu hal Mülki Məcəllədə müəyyən qədər aradan qaldırılmışdır. Belə ki, Məcəllənin 748-1 maddəsi (bu maddə 14 bənddən, yəni alt maddədən ibarətdir) lizinq predmetinə xidmət məsələləri, aşkar edilən nöqsanların aradan qaldırılması və bu kimi digər münasibətlərin tənzimlənməsinə həsr edilmişdir. Lakin lizinq alan müqavilə müddətində lizinq predmetini satdığı, başqasına icarəyə verdiyi, onu xarab və ya məhv etdiyi, təyinatı üzrə istifadə etmədiyi halda, tərəflər arasındakı münasibətlərin tənzimlənməsi və ümumiyyətlə, hansı inzibati və iqtisadi sanksiyaların tətbiq ediləcəyi bu qanunvericilik aktlarında öz əksini tapmamışdır.

Lizinq müqaviləsində də digər müqavilələrdə olduğu kimi, ən aktual məsələ mülkiyyət münasibətlərinin, xüsusən də sahiblik hüququnun kimə məxsus olmasının müəyyən edilməsidir. Çünki lizinq müqaviləsində birmənalı olaraq, sərəncam vermək hüququ lizinq verənə, istifadə hüququ isə lizinq alana məxsusdur. Sahiblik hüququnun kimə məxsus olduğu isə hazırda ən mübahisəli məsələdir. "Lizinq xidməti haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin I bəndində göstərilir ki, "İcarəçi əmlakdan istifadə üzrə müqavilə müddəti ərzində həmin əmlak üzərində yalnız sahiblik və istifadə hüququna malikdir".

Ümumiyyətlə, sahiblik hüquqi mülkiyyətçidən ayrılmazdır. Lakin sahiblik hüququ lizinq verənə məxsus olduğuna baxmayaraq, ondan istifadə etməklə faydasını lizinq alan götürür. Buna görə də bəzi mütəxəssislər bu problemi həll etmək məqsədilə hüquqi mülkiyyətçi və iqtisadi mülkiyyətçi anlayışlarından istifadə edilməsini məqsədəuyğun hesab edirlər. Onlar göstərirlər ki, lizinq predmetinin hüquqi mülkiyyətçisi lizinq verən, iqtisadi mülkiyyətçisi isə lizinq alan müəssisədir. Azərbaycan Respublikasının Mülki Məcəlləsində isə əmlakın sahibinin və onu müvəqqəti istifadəyə götürmüş müəssisələrin sahiblik hüququnun sərhədlərini müəyyənləşdirmək üçün vasitəsiz və vasitəli sahiblik anlayışlarından istifadə edilmişdir. Məcəllənin 160-cı maddəsində göstərilir ki, "əgər sahib əşyanı məhdud əşya və ya şəxsi sahiblik hüququnu həyata keçirilməsi üçün kiməsə vermişsə, onların hər ikisi sahibdirlər, onlardan birincisi vasitəli sahib, ikincisi isə vasitəsiz sahibdir". Deməli, əşyanın bilavasitə yiyəsi, mülkiyyətçisi olan şəxsi vasitəli sahib, əşyanı istifadəyə götürən şəxs isə vasitəsiz sahibdir. Bu maddədən çıxış edərək deyə bilərik ki, lizinq verən vasitəli sahib, lizinq alan isə vasitəsiz sahibdir. Bunu nəzərə alaraq, "Lizinq xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik etmək və ümumiyyətlə, sahiblik hüququnun yox, yalnız vasitəsiz sahiblik hüququnun lizinq alana məxsus olduğunu göstərmək lazımdır.

Ölkəmizdə lizinq bazarının inkişaf səviyyəsinin aşağı olması, bu sahəyə kifayət qədər diqqət yetirilməməsi və bu sahənin inkişafı üzrə kompleks tədbirlər həyata keçirilməməsidir. Bu, özünü lizinq münasibətlərini tənzimləyən əlavə normativ-hüquqi sənədlərin olmamasında və onun kiçik sahibkarlıq sferasına yayılması üzrə kifayət qədər təşəbbüslərin göstərilməməsində büruzə verir.

Lizinq sövdələşmələri üzrə təsərrüfat praktikasının əsas problemlərindən biri də lizinq müqaviləsinin iştirakçılarının öz öhdəliklərini yerinə yetirməməsinə və ya lazımi şəkildə yerinə yetirməməsinə görə məsuliyyətin və tətbiq ediləcək cərimə və sanksiyaların müəyyənləşdirilməsidir. Mülki Məcəllənin 747-8-ci maddəsində lizinq alanın və satıcını seçənin məsuliyyəti (məsələn, lizinq obyektinin məhv edilməsi, itirilməsi, korlanması, talanması, vaxtından əvvəl sıradan çıxması və s. görə məsuliyyəti) qismən müəyyən edilsə də, satıcının (məsələn, lizinq obyektini vaxtında və tam həcmdə, spesifikasiyaya uyğun göndərmədikdə və s.), lizinq verənin və müəyyən hallarda lizinq alanın (məsələn, lizinq ödənişlərini vaxtında və tam həcmdə ödəmədikdə və ya ümumiyyətlə,

ödəmədikdə) məsuliyyəti və bu zaman hansı sanksiyaların və cərimələrin tətbiq ediləcəyi məsələsi öz əksini tapmamışdır.

**Nəticə.** Bizim fikrimizcə, bu tip məsələlərin həll edilməsi və ümumiyyətlə, lizinq sövdələşməsinin iştirakçıları arasındakı münasibətlərin tənzimlənməsi məqsədilə əlavə normativ-hüquqi aktların qəbul edilməsi məqsədəuyğundur.


**Aslan Məmmədov**

**Azərbaycanda lizinqin normativ-hüquqi bazasının təkmilləşdirilməsinin əsas istiqamətləri**

**Xülasə**

Lizinq investisiya fəaliyyətinin tərkib elementi kimi onun iştirakçıları – istehsalçı, lizinq verən və lizinq alan üçün faydalı olmaqla ölkə iqtisadiyyatının inkişafına, sərbəst maliyyə resurslarının qıtlığı şəraitində istehsalda mütərəqqi texnika və texnologiyanın tətbiqinə və bunun sayəsində rəqabətədavamlı məhsul istehsalına imkan verir. Məqalədə lizinqin mahiyyəti və onun icarədən fərqləri, onun istehsalçı müəssisələr, lizinq alan və lizinq verən müəssisələr, həmçinin dövlət üçün faydaları, bu sahədə olan uğurlar izah edilmiş, lizinqin normativ-hüquqi bazasının təkmilləşdirilməsinə dair konkret təkliflər verilmişdir.

**Аслан Мамедов**

**Основные направления совершенствования нормативно-правовой базы лизинга в Азербайджане**

**Резюме**

Лизинг - как составной элемент инвестиционной деятельности, являясь полезным для его участников: производителей, лизингодателей и лизингополучателей, создает возможности для развития экономики страны, применения передовой техники и технологий в производстве в условиях дефицита свободных финансовых ресурсов и, тем самым, способствует производству конкурентоспособной продукции. В статье разъяснены суть лизинга, его отличительные особенности от аренды, его польза для производственных предприятий, лизингодателей и лизингополучателей, а также для государства в целом, даны объяснения достигнутым в этой сфере успехам и выдвинуты конкретные предложения по совершенствованию нормативно-правовой базы лизинга.

**Aslan Mammadov**

**The main directions in regulatory and legal framework for improvement of leasing in Azerbaijan**

**Summary**

Leasing, as an element of investment activity is useful to its participants – producer, leasing provider and lessee to give opportunities for development of the economy of the country, application of advanced technology in conditions of scarcity of financial recources and in the result of this to produce competitive products. In the article we explain the definition of leasing and its differences with rent, its importance to the producer companies, leasing provider and lessee companies, as well as its benefits for the country, its success in this area, in conclusion specific proposals have been given for improvement of regulatory and legal framework of leasing.


## Ədəbiyyat


1. «Lizinq xidməti haqqında» Azərbaycan Respublikası Qanunu, Bakı, 29 noyabr 1994-cü il
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, 2003
3. Васильев Н.М., Катырин С.Н., Лепе Л.Н., Лизинг: организация, нормативно-правовая основа, развития, М.,1997
4. Семенихин В. В., Лизинг, М., Эксмо, 2012.

5. Талье И., Абашина А. Аренда и лизинг.- М: Издательский дом "Филинъ", 1997
6. В.А. Шабашев, Е.А. Федулова, А.В. Кошки, Лизинг: основы теории и практики, «Кнорус», 2005
7. Прилуцкий Л. «Финансовый лизинг. Правовые основы, экономика, практика». М.: ОСЬ-89, 1997
8. agro.gov.az/97-aqrolizinq-asc-trfindn-lizinq-verilmi-knd-tsrrfat-texnikal...
9. vergiler.az/art-view/67/
10. senaye.gov.az/.../Dünyada%20avadanlıq%20və%20texnikanın%20lizinq...
11. www.raexpert.ru/strategy/conception/part15/market/
12. expert.ru/ratings/table_56410/
13. lektsii.net/1-3792.html
14. az.trend.az/business/economy/1458856.html/

## BMT-nin STATİSTİKA KOMİSSİYASININ 47-ci SESSİYASI

2016-cı ilin 8-11 mart tarixlərində Nyu-York şəhərində BMT-nin Statistika Komissiyasının 47-ci sessiyası keçirilmişdir. Statistika sahəsində dünyada ən ali tədbir olan sessiyanın işində Azərbaycan tərəfindən Dövlət Statistika Komitəsinin sədri cənab Tahir Budaqov da iştirak etmişdir.

BMT-nin mərkəzi qərargahında təşkil edilmiş bu tədbirə 139 ölkənin milli statistika qurumlarının rəhbərləri, eyni zamanda 70 beynəlxalq təşkilatın nümayəndələri qatılmışdır. Sessiyanın gündəliyinə daxil edilmiş 27 sənəddən 14-ü məlumat xarakterli olmuş, 13-ü isə müzakirə üçün nəzərdə tutulmuşdur. Müzakirəyə çıxarılan məsələlərdən ən önəmlisi “Dayanıqlı inkişaf üzrə gündəlik – 2030” hədəflərinin yerinə yetirilməsinə statistik dəstək sənədi olmuşdur.

Bu sənəd 2000-2015-ci illər üçün nəzərdə tutulmuş “Minilliyin inkişaf məqsədləri”nin icrası zamanı dünya ölkələri tərəfindən əldə edilmiş təcrübə əsasında hazırlanmışdır. Növbəti 15 il üçün dayanıqlı inkişaf hədəfləri bir məqsəd kimi qarşıya qoyulduğu üçün həmin istiqamətdə həyata keçiriləcək fəaliyyətlərin qiymətləndirilməsi zamanı beynəlxalq müqayisəliliyi təmin edə biləcək statistik göstəricilər sisteminin formalaşdırılmasının aktuallığı ön plana çəkilmişdir.

Bu məqsədlə 2015-ci ildə 28 ölkənin mütəxəssislərindən ibarət ekspert qrupu yaradılmış və 229 göstəricini əhatə edən statistik dəstək sənədinin layihəsi hazırlanaraq sessiyaya təqdim olunmuşdur.

Bu məsələ ətrafında iki gün davam edən müzakirələrin yekunu olaraq, dayanıqlı inkişaf göstəricilərinə dair BMT-nin dünya forumunun keçirilməsi, müqayisəliliyi təmin etmək məqsədilə beynəlxalq səviyyədə bu göstəricilərin metodologiya və izahlarını hazırlamaqla onların təkmilləşdirilməsi və yekun sənədin növbəti ilin mart ayında keçiriləcək BMT-nin Statistika Komissiyasının 48-ci sessiyasına təqdim olunması barədə qərar qəbul edilmişdir.

Növbəti məsələ Milli Hesablar Sistemi - 2008-in (MHS-2008) milli səviyyədə tətbiqinə həsr olunmuşdur. Bugünədək görülmüş işlər sessiya tərəfindən yüksək qiymətləndirildi və ekoloji-iqtisadi uçot sistemi ilə müqayisəliliyi təmin etmək məqsədilə dayanıqlı inkişaf məqsədlərinin müvafiq göstəricilərinə dair metaməlumatların yaradılması prosesinin davam etdirilməsi işçi qrupuna tövsiyə edildi. Həmçinin ev təsərrüfatlarında şəxsi (fərdi) istehlak məqsədləri üçün istifadə edilən mal, məhsul və xidmətlərə dair təsnifatın və geniş iqtisadi kateqoriyalar təsnifatının yenidən işlənib hazırlanması ilə bağlı təkliflər qəbul olundu. Statistika Komissiyasının 46-cı sessiyasından irəli gələn tövsiyələrə uyğun olaraq, Rəsmi statistikada islahatlar proqramına dair konsepsiya əsasında Baş Katiblik tərəfindən hazırlanmış məruzə də maraqla qarşılandı. Məruzədə istifadəçilərin tələblərinə cavab verən dayanıqlı inkişafa dair göstəricilər sisteminin səmərəliliyi, bu sahə üzrə hazırlanmış qlobal fəaliyyət planının, eyni zamanda milli xüsusiyyətlər nəzərə alınmaqla milli, regional və qlobal səviyyədə statistika sisteminin təkmilləşdirilməsinin vacibliyi qeyd edildi. Dünya ölkələri üzrə keçirilməsi nəzərdə tutulmuş islahatlar proqramına dair 5 regional konfransın nəticələri ilə bağlı yekun hesabatların BMT-nin Statistika Komissiyasının 48-ci sessiyasına təqdim olunması tövsiyə edildi.

Bununla yanaşı, iri həcmli məlumatlardan rəsmi statistikada istifadə, beynəlxalq müqayisələr proqramı, sənaye, informasiya-kommunikasiya texnologiyaları, iqlim dəyişikliyi, dövlət idarəetməsi statistikası, Qərbi Asiyada regional səviyyədə statistikanın inkişafına dair məruzələr iştirakçılar tərəfindən geniş müzakirə olundu.

Azərbaycan tərəfinin də dəstəyi ilə sessiyanın gündəliyinə daxil edilmiş qaçqınlar statistikası ilə bağlı Avrostat, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, Norveç və Türkiyə milli statistika qurumlarının birgə hazırladığı hesabat da xüsusi marağa səbəb oldu. Bu məsələnin Azərbaycan üçün aktuallığı nəzərə alınaraq, Dövlət Statistika Komitəsi tərəfindən Xarici İşlər Nazirliyi ilə razılaşdırılmaqla xüsusi buklet hazırlanmış və sessiya iştirakçılarına paylanılmışdır. Bukletdə Ermənistanın ölkəmizə qarşı təcavüzü və torpaqlarımızın 20 faizinin işğalı nəticəsində 1 milyondan

artıq qaçqın və məcburi köçkünün olması, işğal olunmuş ərazilərin qeyd-şərtsiz azad edilməsi, qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması ilə əlaqədar BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 4 qətnamənin Ermənistan tərəfindən yerinə yetirilmədiyi öz əksini tapmışdır. Məsələnin müzakirəsi zamanı Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov söz alaraq, bukletdə əks olunan məlumatları bir daha sessiya iştirakçılarının diqqətinə çatdırmış, qaçqın və məcburi köçkünlərin sosial rifahının yaxşılaşdırılması məqsədilə ölkəmizdə həyata keçirilən dövlət proqramları barədə geniş məlumat verərək, qaçqınların uçotu üzrə milli və beynəlxalq təşkilatların mütəxəssislərindən ibarət komitənin formalaşdırılması təklifinin ölkəmiz tərəfindən dəstəkləndiyini, eləcə də qaçqınların statistik uçotu üzrə beynəlxalq tövsiyələrin hazırlanmasında Azərbaycan statistiklərinin də iştirak etməyə hazır olduqlarını vurğulamışdır.

T.Budaqov sessiya dövründə BMT-nin Statistika şöbəsinin direktoru, Avropa Statistika Bürosunun (Avrostat) Avropa Statistika Sistemində əməkdaşlıq, beynəlxalq əməkdaşlıq və resurslar direktorluğunun rəhbəri, İslam Ölkələrinin Statistika, İqtisadiyyat və Sosial Tədqiqat Mərkəzinin (SESRIC) direktoru, MDB Dövlətlərarası Statistika Komitəsinin sədri və bir sıra ölkələrin milli statistika qurumlarının rəhbərləri ilə də görüşlər keçirmişdir. Görüşlərdə ölkəmizdə uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar barədə geniş məlumat verilmiş, son dövrlərdə milli statistika sisteminin təkmilləşdirilməsi və Avropa standartlarına uyğunlaşdırılması sahəsində görülən işlər və gələcək planlar haqqında müzakirələr aparılmışdır.

## DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ KONTEKSTİNDƏ STATİSTİK VƏ İNSTİTUSİONAL POTENSİALIN MÖHKƏMLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ ÜZRƏ İŞÇİ MÜŞAVİRƏ VƏ AVROPA STATİSTİKLƏRİ KONFRANSININ 64-cü PLENAR SESSİYASI

Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının (BMT AİK) təşkilatçılığı ilə 2016-cı ilin 26 aprel tarixində Parisdə dayanıqlı inkişaf məqsədləri kontekstində statistik və institusional potensialın möhkəmləndirilməsi məsələləri üzrə işçi müşavirə və 27-29 aprel tarixlərində Avropa Statistikləri Konfransının 64-cü plenar sessiyası keçirilmişdir.

Dayanıqlı inkişaf məqsədləri kontekstində statistik və institusional potensialın möhkəmləndirilməsi məsələləri üzrə işçi müşavirədə, əsasən, ekoloji-iqtisadi uçot sisteminin tətbiqi, dayanıqlı inkişaf məqsədləri üçün statistika və rəsmi statistika haqqında ümumi qanun barədə müzakirələr aparılmışdır. Müşavirədə Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrinin milli statistika sistemlərinin nümayəndələri, Avrostat və BMT AİK ekspertləri iştirak etmişlər.

Tədbirdə region ərazisində ətraf mühit statistikası və ekoloji-iqtisadi uçot sisteminin tətbiqi və Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrində ekoloji-iqtisadi uçot sisteminin tətbiqinin prioritetləri barədə müzakirələr aparılmışdır. Göstərilmişdir ki, ekoloji-iqtisadi uçot sisteminin tətbiqinə dəstək verilməsi Avrostatın əsas fəaliyyətlərindən biridir. Sistemin göstəricilərinin 17-dən 10-u dayanıqlı inkişaf məqsədlərinin göstəricilərinə daxildir. Bunlar, əsasən, ekoloji sahəyə aid göstəricilərdir.

Dayanıqlı inkişaf məqsədləri üçün statistika mövzusu ətrafında müzakirələrdə BMT Statistika Komissiyasının qərarının nəticələri üzrə sonrakı fəaliyyət və Avropa Statistikləri Konfransının fəaliyyət proqramı təqdim edilmişdir. Qeyd edilmişdir ki, seçilmiş göstəricilər təhlil edilərkən ölkə üzrə bu göstəricilərin toplanmasına cavabdeh qurumlar müəyyənləşməli, əlaqələndirmə sistemi qurulmalı və statistika qurumları əsas istiqamətlərin mərkəzində dayanmalıdır. Ölkə ərazisində dayanıqlı inkişaf məqsədləri üzrə statistikanın düzgün tənzimlənməsi üçün partnyorluq sazişləri bağlanmalı və əməkdaşlıq genişləndirilməlidir.

27-29 aprel tarixlərində isə Avropa Statistikləri Konfransının 64-cü plenar sessiyası öz işini davam etdirmişdir. Plenar sessiyada 57 ölkənin milli statistika qurumlarının və 16 beynəlxalq təşkilatın nümayəndələri iştirak etmişdir. Konfransın keçirilməsində əsas məqsəd Birləşmiş Millətlər Təşkilatının Statistika Komissiyasının 47-ci sessiyası zamanı qeyd edilən məsələlər ətrafında yaranmış suallara Avropa konfransı çərçivəsində cavab tapmaqdan ibarət olmuşdur. Konfrans

zamanı, əsasən, strateji partnyorluq, rəsmi statistikanın modernləşdirilməsi üzrə yüksək səviyyəli qrupun işi, dayanıqlı inkişaf məqsədləri üçün statistika, rəsmi statistika əsasında coğrafi informasiya sahəsində xidmətlər, qlobal və beynəlxalq dəyişikliklər, BMT AİK tərəfindən regionda statistika fəaliyyətinin əlaqələndirilməsi, statistika haqqında ümumi qanun, BMT AİK tərəfindən təqdim edilən statistika proqramı və digər aktual məsələlər müzakirəyə çıxarılmışdır.

Birləşmiş Millətlər Təşkilatının Statistika Komissiyasının 47-ci sessiyası zamanı qeyd edilən məsələlər ətrafında yaranmış suallara və hədəflərə dair müzakirələrdə "Dayanıqlı inkişaf üzrə gündəlik – 2030" hədəflərinin yerinə yetirilməsinə statistik dəstək məsələsi də müzakirə edilmişdir. "Minilliyin inkişaf məqsədləri"nin icrası zamanı dünya ölkələri tərəfindən növbəti 15 il üçün dayanıqlı inkişaf hədəfləri bir məqsəd kimi qarşıya qoyulduğu üçün həmin istiqamətdə həyata keçiriləcək fəaliyyətlərin qiymətləndirilməsi zamanı beynəlxalq müqayisəliliyi təmin edə biləcək statistik göstəricilər sisteminin formalaşdırılmasının aktuallığının ön plana çıxarılmalı olduğu qeyd edilmişdir.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Hesabları çərçivəsində Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələri üçün hazırlanmış Rəsmi statistika haqqında ümumi qanun müzakirə olunan sənədlər sırasında olmuşdur. Qanun əvvəlcədən bütün ölkələrə müzakirə üçün göndərildiyindən və irad və təkliflərin əksəriyyətinin nəzərə alındığı konfrans tərəfindən qəbul olunmuşdur. Eyni zamanda qeyd olunmuşdur ki, Avropa Azad Ticarət Assosiasiyası və BMT AİK tərəfindən hazırlanmış bu qanun ölkələrin milli qanunvericilik bazasının təkmilləşdirilməsinə dəstək verilməsi məqsədilə hazırlanmışdır.

Tədbirdə Dövlət Statistika Komitəsinin Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri Qasım Əliyev çıxış edərək Azərbaycan Respublikasında Rəsmi statistika haqqında qanunun qəbulundan, son dəyişikliklərdən, milli qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı gedən islahatlardan, Birləşmiş Millətlər Təşkilatının inkişaf hesabları layihəsi çərçivəsində Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələri üçün hazırlanmış rəsmi statistika haqqında ümumi qanunun qəbulundan sonra qanuna uyğunlaşmaq istiqamətində ölkə perspektivləri barədə məlumat vermişdir.

## *Şahbala Aqqırax oğlu MƏMMƏDOV – 80*



1 iyun 2016-cı il tarixində Azərbaycan statistikasının inkişafında və təkmilləşdirilməsində yaxından iştirak etmiş, həyatının 50 ilindən çoxunu statistikaya həsr etmiş və 35 ildən çox Dövlət Statistika Komitəsinnin Baş Hesablama Mərkəzinə rəhbərlik etmiş (BHM) Şahbala Aqqırax oğlu Məmmədovun 80 yaşı tamam olur.

Məmmədov Şahbala Aqqırax oğlu 1936-cı il iyun ayının 1-də Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olmuşdur. 1954-cü ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Respublikası Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş və 1958-ci ildə oranı bitirmişdir. Ali məktəbi statistika ixtisası üzrə bitirdikdən sonra əmək fəaliyyətinə Şamxor (indiki Şəmkir) Rayonu Statistika bölməsində başlamış və 1959-cu ildə Əhalinin Ümumittifaq siyahıyaalınmasında fəal iştirak etmişdir.

1960-cı ildə Azərbaycan Respublikası Mərkəzi Statistika İdarəsinə (MSİ) dəvət olunmuş Şahbala Məmmədov "Əsaslı tikinti və mənzil-kommunal təsərrüfatı" statistikası şöbəsində iqtisadçı, baş iqtisadçı və şöbənin rəisi vəzifəsində işləmişdir.

1965-ci ilin aprelindən əvvəlcə maşın-hesablama stansiyasının, sonra isə Respublika Baş Hesablama Mərkəzinin direktor müavini vəzifəsində çalışmışdır. 1976-cı ilin mart ayında Respublika Baş Hesablama Mərkəzinin direktoru – Mərkəzi Statistika İdarəsinin rəis müavini vəzifəsinə təyin edilmişdir.

Onun rəhbərliyi dövründə statistik işlərin Elektron Hesablama Maşınlarında (EHM) işlənməsinin təşkilinə başlanılmış, dövlət statistika sistemində avtomatlaşdırma həyata keçirilmişdir. Qeyd etmək kifayətdir ki, 1980-ci ildə MSİ-nin hesablama sistemi öz tərkibində 74 hesablama təşkilatını, o cümlədən bir respublika hesablama mərkəzini, 9 rayon və şəhər məlumat-hesablama mərkəzini və 64 məlumat-hesablama stansiyasını birləşdirirdi. Onların maşın parkında 3,5 min vahiddən çox texnika mövcud idi ki, bunların arasında ES-45,46, EHM «Minsk-22» seriyalı maşın, perforasiya-hesablama kompleksi M-5000, 5010, elektron hesablama maşınları "Sellatron"-S-8205, 8205 M, "Askota" mühasibat maşınları, EFA və FME faktura maşınları və başqaları olmuşdur.

Statistikanın avtomatlaşdırılması sahəsində əldə edilən nailiyyətlərə görə Baş Hesablama Mərkəzi müttəfiq respublikaların BHM-ləri arasında 8 dəfə, həmçinin respublika daxilində müxtəlif nazirlik və komitələrin BHM-ləri arasında 9 dəfə "Keçici Qırmızı Bayraq"la təltif edilmişdir.

Müstəqillik əldə etdiyimiz 1991-ci ildən başlayaraq, məlumatların işlənməsi texnologiyasında və kompüter texnikasının tətbiqində inqilabi dəyişikliklərin baş verməsində Şahbala Məmmədov yaxından iştirak etmişdir. Yeni texniki vasitələrin və texnologiyanın tətbiqi ilə yanaşı, statistik hesabatların fərdi kompüterlərdə işlənməsinin təmin edilməsi məqsədilə yeni proqramlaşdırma dillərinin (FoxPro, Paskal, Delfi, PHP, Java), sistemlərinin (Windows, Novell, Linux) və məlumat bazalarının aparılması işlərinin mənimsənilməsinin həyata keçirilməsində fəal iştirak etmişdir. 2000-ci ildən başlayaraq, Dövlət Statistika Komitəsinin inzibati binasında yeni lokal məlumat şəbəkəsinin qurulmasına rəhbərlik etmiş və bu işin müvəffəqiyyətlə həyata keçirilməsini təmin etmişdir.

O, kadr məsələsinə ciddi fikir verirdi. İşçilər üçün yaxşı iş şəraiti, mənzil təminatı, istirahət imkanı yaradırdı. Mütəxəssislərin iş şəraitini yaxşılaşdırmaq məqsədilə 30-dan çox şəhər və rayon statistika idarəsi üçün inzibati binanın tikilməsinə rəhbərlik etmişdir.

Şahbala Məmmədovun ölkədə statistikanın inkişafındakı əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1960 və 1986-cı illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin "Fəxri fərmanı", 1970-ci ildə "Əməkdə fərqlənməyə görə" yubiley medalı ilə təltif olunmuş, 1981-ci ildə "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. 1978-ci ildən "Azərbaycan Respublikasının əməkdar iqtisadçısı" fəxri adına layiq görülmüşdür. O, müxtəlif illərdə beş dəfə Rayon Xalq Deputatları Sovetinin deputatı olmuşdur. 2011-ci ilin dekabr ayından dövlət qulluqçusu kimi pensiyaya çıxmışdır.

Ölkəmizin statistikləri Şahbala Məmmədovu xoş xatirələrlə yada salır, ona uzun ömür və can sağlığı arzulayır.

***Redaksiya heyəti***

## Məqalələrin təqdim olunma qaydaları

“Statistika xəbərləri” elmi-praktik jurnalında statistika elminin nəzəri-metodoloji əsasları, iqtisadi, sosial, ekoloji və demoqrafik proseslərin statistik təhlili, iqtisadiyyat və sosial sahələr ilə bağlı digər məqalələrə üstünlük verilməklə başqa nəşrlərə təqdim edilməmiş məqalələr dərc olunur.

**Redaksiyaya göndərilən məqalələrdə müəlliflər aşağıdakıları nəzərə almalıdırlar:**

1. Məqalə qrafiki materiallar, cədvəllər, düsturlar, xülasə və ədəbiyyat siyahısı daxil olmaqla ümumi həcmi 12 səhifədən çox olmamalı və azərbaycan, rus və ya ingilis dillərindən birində hazırlanmalıdır.
2. Məqalə kağızda və ya elektron versiyada olmalıdır. Kağız versiyası imzalanmış şəkildə redaksiyaya təqdim edilməli, elektron versiyası isə kompakt diskdə verilə, yaxud jurnalın elektron poçtuna (stat.xeber@azstat.org) göndərilə bilər.
3. Mətn Microsoft Office Word proqramında **A4** formatda, **Times New Roman–12** şriftində, **1,0** intervalında yığılmalı, soldan **25 mm**, sağdan **15 mm**, yuxarıdan **20 mm**, aşağıdan isə **19 mm** boş sahə buraxılmalıdır.
4. Məqalələr aşağıdakı ardıcıllıqla tərtib edilməlidir: məqalənin adı (böyük hərflərlə, qalın şriftlə), müəllifin adı və soyadı (yalnız ilk hərfləri böyük olmaqla, qalın şriftlə), açar sözlər, mətn, xülasə və ədəbiyyat siyahısı. Məqalədə yarımbaşlıqlardan istifadə edildiyi halda, onun yalnız ilk hərfi böyük olmaqla, qalın şriftlə və nömrələnməklə yazılmalıdır. Başlıq və yarımbaşlıqlardan, cədvəl və şəkillərdən əvvəl və sonra əlavə bir sətir ara boşluğu buraxılmalıdır. Mətndə sözlər bütöv yazılmalı, “-” işarəsi ilə sətirdən-sətrə keçirilməməlidir.
5. Cədvəl və şəkillərin adı olmalı və bu ad cədvəllər üçün cədvəlin üstündə sağ küncdə, şəkillər üçün şəklin sol küncündə yerləşdirilərək ərəb rəqəmləri ilə ardıcıl nömrələndirilən müvafiq olaraq “cədvəl” və “şəkil” sözlərindən sonra yazılmalıdır. Cədvəl və şəkillərin başlıqlarının ilk hərifləri böyük olmaqla qalın şriftlə yazılmalıdır. Cədvəlin sütunlarının adı qısa olmalı, ölçü vahidləri göstərilməlidir.
6. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə(lər) və həmin müəssisənin (müəssisələrin) ünvan(lar)ı, müəllif(lər)in elekron poçt ünvan(lar)ı göstərilməlidir.
7. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllif(lər)in gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
8. Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə istinad olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba sırası ilə və ya mətndə istinad olunan ədəbiyyatların rast gəlindiyi ardıcıllıqla nömrələnməlidir (məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalı). Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi Qaydaları" haqqında təlimatın 10.2-10.4.6 maddələrinə əsasən "İstifadə edilmiş ədəbiyyat" bölməsinin tələblərinə riayət etmək lazımdır.
9. Xülasə məqalənin hazırlandığı dildən əlavə başqa iki dildə verilməlidir. Məqalənin müxtəlif dillərdə olan xülasələri bir-biri ilə eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Məqalədə müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə öz əksini tapmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllifin və ya müəlliflərin tam ad(lar)ı göstərilməlidir. Xülasələrin həcminin 8-10 sətir olması tövsiyə olunur.
10. Hər məqalədə UOT indeksi, PACS kod tipi və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə verilməli (məqalə və xülasənin yazıldığı dillər) və 5 sözdən az olmamalıdır.
11. Siyahıda göstərilən ədəbiyyatların müəlliflərinin soyadı, adının ilk hərfi, mənbənin adı, nəşr yeri və çap olunduğu il göstərilməlidir. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrə üstünlük verilməlidir.

12. Təqdim edilən əlyazmalara redaksiya heyəti tərəfindən baxıldıqdan sonra onun dərc edilib-edilməməsinə qərar verilir və bununla bağlı müəllif məqalə qəbul olunduqdan sonra ən geci bir ay müddətində yazılı şəkildə məlumatlandırılır.
13. Məqalə müəllif(lər)inə redaksiya tərəfindən bir nüsxə jurnal pulsuz verilir, jurnalın elektron versiyası isə Dövlət Statistika Komitəsinin internet səhifəsində yerləşdirilir.
14. Müəllif(lər) məqalənin keyfiyyətinə, göstərilən faktların və elmi nəticələrin doğruluğuna və digər məlumatlara görə cavabdehlik daşıyır.

**Müəllif(lər) məqaləni aşağıdakı nümunə üzrə təqdim edirlər:**

**Məqalə müəllifinin anketi**

| № | Müəllif(lər) | Müəllif(lər)in məqalənin dərc olunmasına razılığı | Məqalənin əvvəllər dərc olunmadığının təsdiqlənməsi | Məqalənin hər hansı bir dildəki variantının eyni zamanda digər dövri elmi nəşrlərə göndərilmədiyinin təsdiqlənməsi | Məqalə ilə bağlı elmi tədqiqat işi hansı müəssisədə yerinə yetirilmişdir | Müəlliflərin imzası |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Redaksiyanın ünvanı:** Dövlət Statistika Komitəsi, AZ 1136, Bakı şəh., İnşaatçılar pr. 81.
**Tel:** (012) 538 77 19
**e-poçt:** stat.xeber@azstat.org

## Правила для авторов статей

В научно-практическом журнале «Статистика хеберлери» дается предпочтение статьям, посвященным теоретическим и методологическим основам статистической науки, статистическому анализу экономических, социальных, экологических и демографических процессов, а также другим статьям, связанным с экономикой и социальными отраслями. В журнале публикуются статьи ранее не опубликованные в других изданиях.

### Авторы, предоставляющие в редакцию статьи должны учитывать следующее:

1. Статья не должна быть больше 12 страниц, включая графические материалы, таблицы, формулы, резюме и список литературы и должна быть написана на одном из трех языков: азербайджанском, русском или английском.
2. Статья должна быть в электронном форме или же на бумажном носителе. Бумажная версия статьи должна быть предоставлена в редакцию журнала с соответствующей подписью автора, а электронная версия может быть предоставлена в редакцию журнала на компакт диске или выслана по электронной почте (stat.xeber@azstat.org).
3. Текст статьи должен быть набран с помощью программы Microsoft Office Word в формате **A4**. Шрифт текста **Times New Roman**, размер шрифта **12**, интервал **1,0**. На страницах оставляются поля слева **25 мм**, справа **15 мм**, сверху **20 мм** и снизу **19 мм**.
4. Статьи должны оформляться в следующей последовательности: название статьи ( выделяются прописными буквами, жирным шрифтом), имя и фамилия автора (только первые буквы прописными, жирным шрифтом), ключевые слова, текст, резюме и список литературы. При использовании в статье подзаголовков, только первые буквы должны быть выделенными, жирным шрифтом и пронумерованы. Перед и после заголовка и подзаголовка, таблиц и рисунков необходимо оставлять промежуток размером в один интервал. Слова в статье должны писаться полностью, слова нельзя переносить с одной строки на другую с использованием знака «-».
5. Таблицы и рисунки должны иметь заголовки. Заголовки для таблиц должны быть размещены в правом углу над таблицей, для рисунков в левом углу под рисунком. Заголовки должны быть напечатаны, после последовательно пронумерованых арабскими цифрами соответствующих слов «таблица» и «рисунок». Заголовки таблиц и рисунков должны быть напечатаны прописными буквами и жирным шрифтом. Название колонок таблицы должны быть короткими, должны быть указаны единицы измерения.
6. В статье должны быть указаны название учреждения (учреждений), в котором работает автор (авторы) и адрес (адреса) данного учреждения (учреждений), адрес (адреса) электронной почты автора (авторов).
7. В конце научной статьи в соответствии с характером статьи и областью науки должны быть четко отмечены научные выводы, к которым пришел автор (авторы), научная новизна, практическая значимость и экономическая эффективность работы и т. д.
8. Должны быть ссылки на научные источники, связанные с темой статьи. Предоставляемый в конце статьи список литературы должен быть пронумерован в алфавитном порядке или в последовательности в которой встречается ссылаемая литература в тексте (например, обозначаться как [1] или [1, стр. 119]). При повторной ссылке на одну и ту же литературу в другом месте, ссылаемая литература должна быть пронумерована предыдущим номером. Ссылаясь на одни и те же статьи, тезисы симпозиумов, конференций и других влиятельных научных мероприятий должны быть указаны названия статей, докладов и тезисов. При библиографическом описании ссылаемого источника нужно следовать требованиям пункта 10.2-10.4.6 раздела «Использованная литература» инструкции о «Правилах оформлении диссертаций» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.
9. Резюме должно быть представлено на двух других языках, отличающихся от языка, на котором написана статья. Резюме статьи, написанные на разных языках должны быть одинаковыми и должны соответствовать содержанию статьи. Научные выводы, к

которым пришли автор или авторы, научная новизна, практическая значимость и экономическая эффективность работы и т.д. должны кратко отражаться в резюме. В каждом резюме должно указываться название статьи, полное имя автора или авторов. Рекомендуется писать резюме объемом 8-10 строк.

10. В каждой статье должны указываться индексы UOT, коды типа PACS и ключевые слова. Ключевые слова должны даваться на трех языках (языки на которых написаны статья и резюме) и не должны быть меньше 5 слов.
11. Для литературы указанного в списке должны указываться фамилии и первые буквы имен авторов, название источника, место и год издания. В списке литературы должно даваться предпочтение научным статьям, монографиям и другим достоверным источникам последних 5-10 лет.
12. Решение о публикации или не публикации предоставленной рукописи принимается после ее рассмотрения редакционным советом и в связи с этим автор письменно уведомляется не позднее 1 месяца после принятия статьи.
13. Автору (авторам) статьи со стороны редакции бесплатно предоставляется 1 экземпляр журнала, а электронная версия журнала размещается на интернет странице Государственного Комитета по Статистике.
14. Автор несет ответственность за качество статьи, достоверность предоставленных фактов, научных результатов и прочей информации.

**Статьи предоставляются автором (авторами) по нижеприведенному образцу:**

**Анкета автора статьи**

| № | Автор (авторы) | Согласие автора (авторов) на публикацию статьи | Подтверджение о том, что статья прежде не публико-валась | Подтверждение о том, что вариант статьи на каком-либо из языков одновременно не предоставлен в другое периодическое научное издание | В каком ужреждении проводилась научно-исследова-тельская работа, связанная со статьей | Подпись автора (авторов) |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Адрес редакции:** Государственный Комитет по Статистике, AZ 1136, г. Баку,
пр. Иншаатчылар 81.
**Тел:** (012) 538 77 19
**e-mail:** stat.xeber@azstat.org

## Instructions for authors

Theoretical-methodological basis of science on statistics, statistical analysis of economic, social, ecological and demographic processes, other articles related to economy and social areas are preferred and articles non submitted to other publications are published in Journal of Research and Practice “Statistica kheberleri”.

**Authors have to take the followings into account:**

1. Total volume of article, including graphical materials, tables, formulas, summaries and list of literature should not exceed 12 pages and should be prepared either in Azerbaijan, English or Russian languages.
2. Article text should be in a paper or electronic form. Paper version must be submitted to editorial office in a signed form; an electronic version could be presented on CD or sent to e-mail (stat.xeber@azstat.org).
3. Article should be in Microsoft Office Word **A4** format, **Times New Roman**, Font **12**, line spacing **– 1,0**, margins: left **- 25 mm**, right **- 15 mm**, top **– 20 mm**, bottom **– 19 mm**.
4. Article should be compiled in a following sequence: title of article (in capitals, bold), name and surname of author (only first letters in capitals, bold), keywords, text, summary and list of literature. If subtitles, only first letter is written in capitals, bold and numbered. Before and after titles and subtitles, tables and pictures it is necessary to skip down one space. Words in the text should be written completely, it shouldn’t be allowed to skip from line to line with a sign “-”.
5. Tables and pictures have to be titled and these titles for tables should be placed at the right corner of the top of the table, for pictures – at the left corner of the bottom of the picture; titles should be numbered by Arabic figures which have to be indicated correspondingly after words “table” and “picture”. First letters of titles of tables and pictures should be written in capitals and bold. Names of tables’ columns should be short and measurement units have to be indicated.
6. Institution(s) where author(s) works and address(es) of this (these) institution(s), e-mail(s) of author(s) should be indicated in the article.
7. At the end of research article the conclusions reached by author(s), scientific novelty of a paper, importance of its application, economic efficiency and etc. should be clearly indicated in accordance with nature of domain of science and article.
8. As regard to the subject of article the scientific sources should be referred. List of literature at the end of article should be numbered either by sequence of referred literature met in the text (for example, it should be indicated as [1] or [1, page 119] or by alphabetical order. If the same literature is referred again in another part of the text, then the referred literature should be indicated by previous number. When referring to the same articles, theses of symposiums, conferences and other important scientific events the title of article, paper or thesis has to be indicated. When specifying the bibliographic description of referred source it is necessary to rely on requirements of item 10.2-10.4.6 of the section “List of literature” of effective guideline on “Compilation rules of the dissertations” of the High Attestation Commission under the President of the Republic of Azerbaijan.
9. Summary should be provided in two languages other than language of article. Summaries of article in several languages should be the same and correspond to the content of article. Summary should reflect condensate of conclusions reached by author or authors, scientific novelty of a paper, importance of its application and etc. Each summary should specify title of article, full name(s) of author(s). It is recommended summary to be of 8-10 lines.
10. UOT indices or PACS-type codes and keywords should be specified in each article. Keywords should be given in three languages (languages of articles and summaries) and be not less than 5 words.
11. Surnames, first letter of names of authors of the used literature, source, place of publication and a year of issue should be specified in the list. In the list of literature scientific articles and monographs of the last 5-10 years and other reliable sources are preferable.

12. After editorial office staff reviews the presented manuscripts it is made decision whether publish it or not and the author is informed about it at the latest during a month.
13. Editorial office presents a copy of journal to author(s) of article free of charge; e-version of journal is posted on the web-page of the State Statistical Committee.
14. Author bears responsibility for quality of article, reliability of the indicated facts and scientific results and other information.

**Author(s) submits article(s) following the below-mentioned example:**

**Author's questionnaire**

| № | Author(s) | Consent of author(s) to publish article | Approval of non-publication of article previously | Approval of non-submission of article in any language to be published in other periodical scientific issue | Institution implementing research work with regard to article | Signature of author(s) |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Address of editorial office:** State Statistical Committee, Baku city, Inshaatchilar av. 81, AZ 1136.
**Tel:** (012) 538 77 19
**e-mail:** stat.xeber@azstat.org

**Dizayner:** Xatirə Qasımova
**Korrektor:** Arzu Salmanova

**Çapa imzalanmışdır:** 11.05.2016